RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 127 (10147) 21 iyul 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ **Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri**

## Almaniya Azərbaycanla münasibətlərin inkişafında maraqlıdır

### Brandenburq "Willy Brandt" Aeroportunda qarşılanma



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də, axşam radələrində Almaniya Federativ Respublikasına rəsmi səfərə gedib. AZƏRTAC xəbər verir ki, Berlin şəhərinin Brandenburq "Willy Brandt" Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini rəsmi şəxslər qarşıladılar.

## Azərbaycanın uğurlu bağlantı modeli



### Ölkəmiz müasir infrastruktur, çevik diplomatiya və real dividendlərlə Avrasiyanın əsas nəqliyyat mərkəzinə çevrilir

Azərbaycanın təşəbbüskarı olduğu regional layihələrin artıq qlobal miqyasda mühüm amilə çevrildiyini bəyan edən dövlətimizin başçısı əməkdaşlığın çoxtərəfli xarakterini xüsusi olaraq vurğulayıb: "Avrasiyanın böyük coğrafi məkanında, Azərbaycandan Şərq və Qərb, Şimal və Cənub istiqamətlərdə geniş beynəlxalq əməkdaşlığı qurmaq, prosesi apardığımız kimi inkişaf etdirmək, məsələn, Azərbaycanın təşəbbüskar olduğu, əsas maliyyə töhfəsini verən tərəf olduğu və çoxtərəfli əməkdaşlığı təşkil edən tərəf kimi enerji layihələrimizin həyata keçirilməsi həmin meyarlar sırasındadır".

Dövlətimizin başçısının vurğuladığı kimi, coğrafi mövqe öz-özlüyündə üstünlük yaratmır, yalnız güclü infrastruktur və düzgün qonşuluq siyasəti ilə birləşdikdə real siyasi-iqtisadi resursa çevrilir. Məhz Azərbaycanın qətiyyəti, təşəbbüskarlığı və çoxtərəfli əməkdaşlıq modeli ölkəmizi regional tranzit qovşağından qlobal enerji və nəqliyyat təhlükəsizliyinin əsas zəmanətçilərindən birinə yüksəldib.

Nəzərə alsaq ki, son dövrdə dünyada və regionda cərəyan edən geosiyasi proseslər, qlobal təchizat zəncirindəki qırılmalar alternativ və təhlükəsiz marşrutlara olan tələbatı kəskin şəkildə artırıb, onda Azərbaycanın illər öncə əsasını qoyduğu bağlantı strategiyası məhz bu günün reallıqlarına tam cavab verir. Lakin yaranmış yeni reallıqlar və gələcək hədəflər çərçivəsində mövcud imkanların daha da genişləndirilməsi zərurətə çevrilib. Dövlətimizin başçısının söylədiyi kimi, fiziki infrastruktur qurulub, indi isə biz yalnız onun genişləndirilməsi yolları üzərində çalışırıq: "Çünki biz gözləmirdik ki, coğrafiyamız son vaxtlar bu qədər lazımlı olacaq. Şərq və Qərbdəki qonşularla - istər Mərkəzi Asiya ölkələri, istərsə də Gürcüstan, Türkiyə və Avropa kimi yaxın qonşularımızla qarşılıqlı fəaliyyət çox yaxşıdır. Əlbəttə, bütün bunları bir araya gətirmək üçün bizə dəhlizi səmərəli edə biləcək bir çox addımları atmaq vacib idi".

Zamanında atılmış strateji addımlar, tamamlanmış fiziki infrastruktur və qurulmuş etibarlı tərəfdaşlıqlar ölkəmizi Avrasiyanın mühüm nəqliyyat və enerji mərkəzi səviyyəsinə çatdırıb. Gələcək hədəf isə mövcud dəhlizlərin rəqəmsallaşdırılması, ötürücülük qabiliyyətinin artırılması və effektivliyin maksimuma yüksəkdilməsi vasitəsilə bu liderlik mövqeyini daha da möhkəmləndirməkdən ibarətdir.

7

## Prezident İlham Əliyev Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Berlində Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harms ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və alman iş adamlarının, həmçinin şirkətlərinin birgə fəaliyyətə marağının artdığı vurğulanaraq, bu cür fəaliyyətin institutlaşdırılması yolları müzakirə edildi.

Ənənəvi və alternativ energetika üzrə mövcud potensial, Orta dəhliz daxil olmaqla bağlantı, nəqliyyat və logistika sahələrində imkanlar barədə fikir mübadiləsi aparıldı.

Azərbaycanda kənd təsərrüfatı ilə bağlı dövlət proqramının qəbul olunduğu xatırlanaraq, Almaniyanın bu sahədə aparıcı texnologiyalarının ölkəmizdə tətbiqi imkanlarına toxunuldu, o cümlədən "ağıllı kənd təsərrüfatı" istiqamətində əməkdaşlığın perspektivləri qeyd edildi.

Söhbət zamanı həmçinin ölkəmizin turizm potensialından istifadə olunmasına və qarşılıqlı maraq doğuran digər mövzulara dair fikir mübadiləsi aparıldı.

## Milli mətbuatda dövlətçilik düşüncəsi




Prezident İlham Əliyevin rəhbərliyi ilə milli media yeni geosiyasi reallıqların və rəqəmsal dövrün tələblərinə uyğun inkişaf istiqaməti qazandı. İnformasiya təhlükəsizliyi dövlət siyasətinin mühüm komponentlərindən birinə çevrildi. Medianın İnkişafı Agentliyinin yaradılması, "Media haqqında" qanunun qəbul edilməsi, jurnalist peşəkarlığının yüksəldilməsi, media subyektlərinin iqtisadi dayanıqlılığının gücləndirilməsi və rəqəmsal transformasiya istiqamətində həyata keçirilən tədbirlər bu sahədə sistemli yanaşmanın göstəricisidir. Söhbət yalnız qanunvericiliyin yenilənməsindən getmirdi. Məqsəd sürətlə dəyişən informasiya mühitində milli medianın rəqabət qabiliyyətini artırmaq, peşə standartlarını möhkəmləndirmək və ictimai etimadı gücləndirmək idi.

Müasir dövrdə dövlət başçılarının fəaliyyəti təkcə qəbul etdikləri qərarlarla qiymətləndirilmir. Həmin qərarların beynəlxalq ictimaiyyətə necə çatdırılması da siyasi liderliyin mühüm meyarlarından biri hesab olunur. Prezident İlham Əliyevin dünyanın aparıcı televiziya kanallarına, informasiya agentliklərinə və nüfuzlu qəzetlərinə verdiyi çoxsaylı müsahibələr bu baxımdan ayrıca təhlil mövzusudur.

5

## Bakı-Berlin münasibətləri yeni mərhələyə qədəm qoyur



Yeni dövrün çağırışlarına uyğun olaraq, Azərbaycan ilə Almaniya arasında əməkdaşlıq təkcə ənənəvi karbohidrogen resursları ilə məhdudlaşmır, həm də "yaşıl enerji" və iqlim dəyişikliyi ilə mübarizə sahələrini əhatə edir. Almaniya bərpaolunan enerji texnologiyaları sahəsində dünya liderlərindən biridir. Azərbaycanın Xəzər dənizində və işğaldan azad edilmiş ərazilərdə malik olduğu nəhəng külək və günəş enerjisi potensialı alman şirkətləri üçün cəlbedici investisiya imkanları vəd edir. Bakı və Berlin "yaşıl hidrogen" istehsalı və onun gələcəkdə Avropa bazarlarına ixracı istiqamətində birgə layihələrin həyata keçirilməsini, həmçinin "Berlin İqlim Keçidi Dialoqu" çərçivəsində əlaqələrin gücləndirilməsini hədəfləyir.

Müasir geosiyasətdə boru kəmərləri qədər nəqliyyat dəhlizləri, dəniz limanları, dəmir yolları və rəqəmsal kommunikasiya xətləri də dövlətlərin geoiqtisadi gücünü müəyyən edən əsas amillərə çevrilib. Almaniya kimi ölkənin ixracyönümlü və nəhəng istehsal potensialına malik bir iqtisadiyyat üçün təchizat zəncirlərinin təhlükəsizliyi və diversifikasiyası həyati əhəmiyyət daşıyır. Bu kontekstdə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) Almaniya sənayesinə Mərkəzi Asiya və Uzaq Şərq bazarlarına daha təhlükəsiz, qısa və rentabelli çıxış imkanı yaradır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və logistik mərkəzləri ilə Azərbaycan bu nəhəng coğrafiyada Asiya ilə Avropanı birləşdirən ən etibarlı qovşaq rolunu oynayır.

6

## Qarabağ həm də qlobal dialoq mərkəzidir



Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən nəqliyyat-infrastruktur layihələri bölgənin gələcək inkişafının təməlini təşkil edir. Beynəlxalq hava limanları - Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanlarının tikilib istifadəyə verilməsi bölgəni dünyanın logistika və turizm xəritəsinə inteqrasiya edir. Mürəkkəb dağlıq relyefdə salınan yüzlərlə kilometrlik müasir magistral yollar, keçidlər və strateji əhəmiyyətli tunellər şəhər və kəndlərimiz arasında rahat gediş-gəlişi təmin edir.

8

# "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1135 (Cild I);2026, № 3, maddə 203) aşağıdakı dəyişikliklər edilsin:

1. 17.1.11-ci maddəyə ikinci halda "təminatının" sözündən sonra "(bu Qanunun 49.4-2-ci maddəsinə əsasən qeyri-rezident hüquqi və ya fiziki şəxslərin icra və (və ya) avans təminatını təqdim etmək öhdəliyindən azad edildiyi hallar istisna olmaqla)" sözləri əlavə edilsin.

2. 33.10.2-ci, 35.1.9-cu maddələrə, 38.2-ci maddənin birinci cümləsinə və 38.5-ci maddəyə "təminatını" sözündən sonra "(bu Qanunun 49.4-2-ci maddəsinə əsasən qeyri-rezident hüquqi və ya fiziki şəxslərin icra təminatını təqdim etmək öhdəliyindən azad edildiyi hallar istisna olmaqla)" sözləri əlavə edilsin.

3. 39.1-ci maddənin üçüncü cümləsinə "təminatı" sözündən sonra "(bu Qanunun 49.4-2-ci maddəsinə əsasən qeyri-rezident hüquqi və ya fiziki şəxslərin avans təminatını təqdim etmək öhdəliyindən azad edildiyi hallar istisna olmaqla)" sözləri əlavə edilsin.

4. 49-cu maddə üzrə:

4.1. aşağıdakı məzmunda 49.2-1-ci maddə əlavə edilsin:

"49.2-1. Qeyri-rezident hüquqi və ya fiziki şəxslər bu Qanunun 49.2-ci maddəsinə uyğun olaraq təklifləri ilə birlikdə icra və (və ya) avans təminatını təqdim etmək öhdəliyindən azad edilmələri barədə əsaslandırılmış müraciətlərini satınalma komissiyasına təqdim edə bilərlər.";

4.2. 49.4-cü maddə üzrə:

4.2.1. birinci cümlədə "Nəzarət orqanının" sözləri "Bu Qanunun 49.4-2-ci maddəsinin tələbləri nəzərə alınmaqla, nəzarət orqanının bir mənbədən satınalma metodunun tətbiqinə dair" sözləri ilə əvəz edilsin;

4.2.2. ikinci cümləyə "verildiyi" sözündən sonra "(bu Qanunun 49.4-2-ci maddəsinə əsasən qeyri-rezident hüquqi və ya fiziki şəxsin icra və (və ya) avans təminatını təqdim etmək öhdəliyindən azad edilməsi və ya azad edilməsindən imtina olunması barədə qərar qəbul edildiyi halda, həmin qərarın qəbul edildiyi)" sözləri əlavə edilsin;

4.3. aşağıdakı məzmunda 49.4-1 - 49.4-3-cü maddələr əlavə edilsin:

"49.4-1. Satınalma komissiyası bu Qanunun 49.4-cü maddəsinə əsasən nəzarət orqanının bir mənbədən satınalma metodunun tətbiqinə dair razılığını aldıqdan sonra bu Qanunun 49.2-1-ci maddəsində göstərilən müraciətlər əsasında, habelə belə müraciətin edilmədiyi hallarda öz təşəbbüsü ilə satınalma müqaviləsinin bağlanılması nəzərdə tutulan qeyri-rezident hüquqi və ya fiziki şəxs tərəfindən icra və (və ya) avans təminatının ödənilməsinin mümkünsüzlüyünü müəyyən etdikdə, satınalma komissiyasını formalaşdıran satınalan təşkilat 10 (on) iş günü müddətində bununla bağlı əsaslandırılmış müraciətini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

49.4-2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) nəzarət orqanının və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təklifləri əsasında 20 (iyirmi) iş günü müddətində qeyri-rezident hüquqi və ya fiziki şəxsin icra və (və ya) avans təminatını təqdim etmək öhdəliyindən azad edilməsi və ya azad edilməsindən imtina olunması barədə qərar qəbul edir və həmin qərarı satınalan təşkilata təqdim edir. Qeyri-rezident hüquqi və ya fiziki şəxslərin icra və (və ya) avans təminatını təqdim etmək öhdəliyindən azad edilməsi ilə bağlı satınalan təşkilatların müraciətlərinə baxılması və qərarların qəbul edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

49.4-3. Qeyri-rezident hüquqi və ya fiziki şəxsin icra və (və ya) avans təminatını təqdim etmək öhdəliyindən azad edilməsi barədə qərarın qəbul edildiyi tarixdən 12 (on iki) ay ərzində həmin qeyri-rezident hüquqi və ya fiziki şəxsdən eyni satınalan təşkilat tərəfindən eyni satınalma predmetinin satın alınmasına tələbat yarandıqda, həmin təchizatçıya münasibətdə icra və (və ya) avans təminatını təqdim etmək öhdəliyindən azad edilmə barədə qərarın qəbul edilməsi tələb olunmur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2026-cı il*

# İspaniyanın Kralı Əlahəzrət VI Felipeyə

Əlahəzrət!

2026 FIFA Dünya Kubokunda İspaniya milli futbol komandasının möhtəşəm qələbəsi və ikinci dəfə dünya çempionu adını qazanması münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Futbol üzrə dünya birinciliyinin oyunlarında yüksək ustalıq, böyük əzmkarlıq və sarsılmaz iradə nümayiş etdirərək azarkeşlərinə unudulmaz anlar və hədsiz sevinc bəxş etmiş İspaniya futbolçularına ən səmimi təbriklərimi yetirir, onlara yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyul 2026-cı il*

# "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" (bundan sonra - Tədbirlər Planı) təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

2.1. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin;

2.2. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsini Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyul 2026-cı il*

# "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 447-VIIQD nömrəli Qanununun tətbiqi və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13iyul tarixli 447-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 49.4-1-ci maddəsində və 49.4-2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 49.4-1-ci maddəsində, 49.4-2-ci maddəsinin birinci (birinci halda) və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 49.4-2-ci maddəsinin birinci cümləsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 49.4-2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, qeyri-rezident hüquqi və ya fiziki şəxslərin icra və (və ya) avans təminatını təqdim etmək öhdəliyindən azad edilməsi ilə bağlı satınalan təşkilatların müraciətlərinə baxılması və qərarların qəbul edilməsi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 iyul tarixli 447-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3."Dövlət satınalmaları haqqında" 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1174 (Cild I); 2025, № 7, maddə 652, № 11, maddə 1018; 2026, № 3, maddə 214) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1.1.1-ci bəndə "42.2-ci," sözlərindən sonra "49.4-1-ci maddələrində, 49.4-2-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində," sözləri əlavə edilsin;

3.2.1.4-cü bənddə "və 52.2-ci maddələrində" sözləri ", 49.4-1-ci maddələrində, 49.4-2-ci maddəsinin birinci (birinci halda) və ikinci cümlələrində, 52.2-ci maddəsində" sözləri ilə əvəz edilsin;

3.3.1.7-ci bəndə "cümlələrində" sözündən sonra ", 49.4-2-ci maddəsinin birinci cümləsində (ikinci halda)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyul 2026-cı il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 216** **Bakı şəhəri, 15 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, № 1, maddə 80, № 2, maddə 178, № 4, maddə 383; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 1 may tarixli 127 nömrəli və 12 may tarixli 141 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə 6401 10 000 0, 6401 92 100 1, 6401 92 900 1, 6401 99 000 1, 6402 91 100 0, 6402 91 900 1, 6402 99 050 0, 6402 99 100 1, 6402 99 390 1, 6402 99 930 1, 6403 40 000 0, 6403 91 130 1, 6403 91 930 1, 6403 99 330 1 və 6403 99 930 1 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "30.06.2026-cı il" sözləri "31.07.2028-ci il" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 217** **Bakı şəhəri, 17 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 970 (Cild I); 2024, № 2, maddə 241, № 3, maddə 341, № 5 (II kitab), maddə 611; 2025, № 1, maddə 83, № 2, maddə 206, № 6, maddə 599; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 15 may tarixli 150 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"2.9. İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə I və ya II səviyyə peşəkar mühasib sertifikatını əldə etmək üçün müraciət etmiş namizəd aşağıdakı sertifikatlardan hər hansı birinə malik olduğu hallarda keçiriləcək imtahanın birinci mərhələsindən azad edilir:

2.9.1. İctimai Sektor üçün İmtiyazlı Maliyyə və Mühasibatlıq İnstitutunun (CIPFA - CharteredInstitute of PublicFinance&Accountancy) İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə sertifikatı;

2.9.2. İmtiyazlı və Sertifikatlaşmış Mühasiblər Assosiasiyasının (ACCA - Association of CharteredCertifiedAccountants) İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə sertifikatı.".

2.3.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.5. Bu Qaydaların 3.2.3-cü yarımbəndində göstərilən sertifikatı əldə etmiş peşəkar mühasiblər işçilərinin ümumi sayı 100 nəfərdən çox olmayan büdcə təşkilatlarında, habelə işçilərin sayından asılı olmayaraq mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələrində və strukturuna daxil olmayan tabeliyindəki büdcə təşkilatlarında və yerli xərclərdən maliyyələşdirilən büdcə təşkilatlarında baş mühasib vəzifəsini tuta bilərlər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi Qaydası"nın təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 218** **Bakı şəhəri, 17 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 iyun tarixli 691 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının dövlət idarəetməsinin həyata keçirilməsinə cəlb edilməsi ilə bağlı əlavə tədbirlər və Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 472 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası vətəndaşlarının və vətəndaş cəmiyyəti institutlarının dövlət idarəetməsinin həyata keçirilməsində, o cümlədən ümumdövlət və yerli səviyyədə qərarların qəbulunda iştirakı ilə əlaqədar proseslərin optimallaşdırılması, bu sahədə fəaliyyətin təşkilində və icrasında rəqəmsal texnologiyalardan istifadə etməklə səmərəliliyin və operativliyin artırılması və "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "İctimai iştirakçılıq haqqında" və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 7 iyul tarixli 433-VIIQD nömrəli Qanununun icrası məqsədilə **qərara alıram:**

1. Elektron Hökumət İnformasiya Sisteminin strukturunda "Elektron iştirakçılıq" altsistemi (bundan sonra - altsistem) yaradılsın.

2. Müəyyən edilsin ki, altsistem vasitəsilə aşağıdakılar təmin edilir:

2.1. "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququnun həyata keçirilməsi;

2.2. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş ictimai iştirakçılıq formalarının həyata keçirilməsi.

3. Altsistemin sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi altsistemin formalaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün.

6. Bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan fəaliyyətin həyata keçirilməsində iştirak edən dövlət orqanlarına (qurumlarına) tapşırılsın, Azərbaycan Respublikasının Milli Məclisinə və yerli özünüidarəetmə orqanlarına tövsiyə olunsun ki, həmin fəaliyyətin altsistem vasitəsilə həyata keçirilməsini təmin etmək, o cümlədən sahibi və (və ya) operatoru olduqları müvafiq informasiya sistemlərini və ehtiyatlarını təkmilləşdirmək üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə doqquz ay müddətində zəruri tədbirlər görsünlər.

7. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 472 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 8, maddə 757; 2026, № 1, maddə 24, № 3, maddə 224) ilə təsdiq edilmiş "Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1-ci hissə üzrə:

7.1.1. 1.2-ci bənddə "və açıq informasiyaya çıxış imkanını" sözləri ", açıq informasiyaya çıxış və vətəndaşların qanunvericilik təşəbbüsü hüququnun və dövlət idarəetməsində ictimai iştirakçılığın həyata keçirilməsi imkanlarını" sözləri ilə əvəz edilsin;

7.1.2. 1.4-cü bənddə "3.1.8-ci" sözləri "3.1.9-cu" sözləri ilə əvəz edilsin;

7.2. 3-cü hissə üzrə:

7.2.1. 3.1.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.1.9-cu yarımbənd əlavə edilsin:

"3.1.9. "Elektron iştirakçılıq" altsistemi.";

7.2.2. aşağıdakı məzmunda 3.14-1-ci bənd əlavə edilsin:

"3.14-1. "Elektron iştirakçılıq" altsistemi aşağıdakıları təmin edir:

3.14-1.1. "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququnun həyata keçirilməsini;

3.14-1.2. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş ictimai iştirakçılıq formalarının həyata keçirilməsini.";

7.3. aşağıdakı məzmunda 4.7-1-ci bənd əlavə edilsin:

"4.7-1. "Elektron iştirakçılıq" altsisteminə "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" və "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan məlumatlar ötürülür, bu mümkün olmadığı halda daxil edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2026-cı il*

# "Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 589 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 219** **Bakı şəhəri, 20 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 589 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428; 2025, № 9, maddə 879, № 10, maddələr 972, 996; 2026, № 3, maddələr 270, 272) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinin 2-ci hissəsinin "cəmi" sütununda "79" rəqəmləri "80" rəqəmləri ilə, "aparat üzrə" sütununda "19" rəqəmləri "20" rəqəmləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 317 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1231 (Cild I) 1-ci hissəsinin birinci abzasında "13 (on üç)" sözləri "14 (on dörd)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 220** **Bakı şəhəri, 20 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 823 (Cild I); 2024, № 1, maddə 77, № 9, maddə 1106; 2025, № 3, maddə 293; 2026, № 1, maddə 79) ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü bəndə "gömrük yığımları" sözlərindən sonra "(bu Sənədin 2.1-1-ci bəndində nəzərdə tutulan gömrük yığımları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. 2.1-ci bənddə "Malların" sözü "Bu Sənədin 2.1-1-ci bəndi nəzərə alınmaqla, malların" sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Bu Sənədin 2.1-ci bəndi ilə müəyyən olunmuş gömrük yığımlarına əlavə olaraq, aşağıdakı malların sərbəst dövriyyəyə buraxılış gömrük proseduru altında yerləşdirilməsinə görə müvafiq məbləğlərdə gömrük yığımları alınır:

2.1-1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən, işğaldan azad edilmiş ərazilərdə yerləşən sənaye parklarının rezidenti olan hüquqi şəxslər tərəfindən sənaye parklarında istehsal məqsədilə xammal kimi idxal istisna olmaqla, xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun 7213 (7213 91 410 0 alt yarımmövqeyi istisna olmaqla) və 7214 mal mövqeyində təsnifləşdirilən "dəmirdən və ya aşqarlanmamış poladdan çubuqlar"ın 1 tonu üçün - 150 manat;

2.1-1.2. xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun 7005 10 050 0, 7005 10 250 0, 7005 10 300 0, 7005 10 800 0, 7005 21 250 0, 7005 21 300 0, 7005 21 800 0, 7005 29 250 0, 7005 29 350 0, 7005 29 800 0 alt yarımmövqelərində təsnifləşdirilən armaturlaşdırılmamış şüşələrin 1 tonu üçün - 100 manat.".

2. Bu Qərar 2026-cı il 31 dekabr tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistanın baş prokuroru ilə görüşüb



**İyulun 20-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının baş prokuroru Niqmatilla Yuldoşevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Özbəkistan arasında strateji müttəfiqlik münasibətləri, parlamentlərarası əlaqələr, hüquq və qanunvericilik sahəsində əməkdaşlıq, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət məsələləri müzakirə olunub.

Milli Məclisin Sədri ölkələrimiz arasında münasibətlərin qardaşlıq, dostluq və qarşılıqlı etimada əsaslandığını bildirib. Sahibə Qafarova dövlətlərarası əlaqələrimizin keyfiyyətcə yeni mərhələyə yüksələrək strateji müttəfiqlik səviyyəsinə çatmasında Azərbaycan Prezidenti İlham Əliyevlə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev arasında formalaşmış səmimi dostluq və etimada əsaslanan siyasi dialoqun mühüm rolunu vurğulayıb. Bildirilib ki, Azərbaycan və Özbəkistan beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edir, beynəlxalq platformalarda bir-birinin mövqeyini ardıcıl şəkildə dəstəkləyirlər.

Söhbət zamanı parlamentin Sədri Özbəkistana səfərlərini, burada keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, əlaqələrimizin inkişafında dostluq qruplarının önəmini, deputatların qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayıb.

Sahibə Qafarova qonağa Azərbaycan parlamentinin tarixindən, onun müsəlman Şərqində tutduğu mühüm mövqeyindən və keçdiyi yoldan söz açıb, ölkəmizin suverenliyini bərpa etdikdən sonrakı dövrdə qarşılaşdığı mürəkkəb siyasi çağırışlar və dövlətçiliyinə yönəlmiş təhdidlər barədə məlumat verib. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması, dövlətçiliyin möhkəmləndirilməsi və ölkənin sabit inkişaf yoluna qədəm qoyması baxımından mühüm tarixi əhəmiyyət daşıyıb.

Qonağa hazırkı çağırış Milli Məclisin fəaliyyətinin prioritet istiqamətlərindən, parlament diplomatiyası, qanunvericilik sisteminin təkmilləşdirilməsi və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi sahəsində görülən işlərdən bəhs olunub. Bu baxımdan Milli Məclislə Azərbaycan Respublikasının Baş Prokurorluğu arasında mövcud olan konstruktiv əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Özbəkistan Respublikasının baş prokuroru Niqmatilla Yuldoşev Azərbaycana hər səfərində ölkəmizin dinamik inkişafının şahidi olduğunu qeyd edərək, əldə olunan uğurları böyük məmnunluqla izlədiklərini söyləyib. O, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərini ölkənin yüksək quruculuq potensialının bariz nümunəsi kimi dəyərləndirib. Qonaq Azərbaycanın Cənubi Qafqazda davamlı sülhün bərqərar olunması istiqamətində atdığı addımları və regionda yeni əməkdaşlıq imkanlarının formalaşmasına verdiyi töhfələri yüksək qiymətləndirib.

Niqmatilla Yuldoşev Azərbaycan ilə Özbəkistan arasında parlamentlərarası əlaqələrin də uğurla inkişaf etdiyini diqqətə çatdıraraq, bu əməkdaşlığın iki ölkə arasında münasibətlərin mühüm istiqamətlərindən birini təşkil etdiyini bildirib.

Söhbətdə parlamentlərarası əməkdaşlığın ölkələr arasında münasibətlərin inkişafında mühüm rol oynadığı bildirilib, Azərbaycan və Özbəkistan parlamentləri arasında formalaşmış səmərəli əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Leyla Əliyeva Budapeştdə "Azərbaycan xalçaları - ənənədən müasir incəsənətə" sərgisinin təqdimatında iştirak edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Budapeştdəki Etnoqrafiya Muzeyində "Azərbaycan xalçaları - ənənədən müasir incəsənətə" sərgisinin təqdimatında iştirak edib.**











AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan sərgidə XVII-XX əsrlərə aid nadir tarixi xalçalar, eləcə də ənənəvi tekstil nümunələri, milli geyimlər, zərgərlik məmulatları, xalça eskizləri və müasir incəsənət əsərləri nümayiş etdirilir.

İyunun 25-dən açılan ekspozisiyada ziyarətçilər Qarabağ, Şirvan, Bakı və digər tarixi bölgələrin incə nəbati və həndəsi ornamentləri, həmçinin yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilən özünəməxsus xalçaçılıq ənənələri ilə yaxından tanış olmaq imkanı əldə edirlər. Sərgidə Xalq rəssamları Lətif Kərimov və Eldar Mikayılzadənin əsərləri və xalça eskizləri, həmçinin rəssam CHINGIZ-in müasir bədii axtarışlarını əks etdirən işləri, multidisiplinar rəssam Mədinə Qasımovanın material, yaddaş və vizual strukturun kəsişməsində formalaşan yaradıcılığı təqdim olunub.

Sərginin əsas konseptual xətti ənənəvi ornamental dilin müasir bədii ifadə formasına transformasiyasıdır. Burada tarixi xalçalar müasir incəsənət nümunələri ilə birlikdə təqdim olunaraq Azərbaycan tekstil ənənələrinin zamanlararası aktuallığını, estetik gücünü və mədəni əhəmiyyətini ön plana çıxarır.

Azərbaycanın ən mühüm bədii irs nümunələrindən olan xalçaçılıq sənətini əks etdirən nadir eksponatların nümayişi ziyarətçilərdə bu zəngin mədəni irs haqqında dolğun və yaddaqalan təəssürat yaradır.

Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycanın Macarıstandakı səfirliyi, Macarıstan Etnoqrafiya Muzeyi, Azərbaycan Milli Xalça Muzeyinin təşkilatçılığı ilə keçirilən sərgi iyulun 26-dək davam edəcək.

# Özbəkistan Respublikasının baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda işgüzar səfərdədir

**Özbəkistan Respublikasının baş prokuroru Niqmatilla Yuldoşevin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana işgüzar səfər çərçivəsində Fəxri xiyabanı ziyarət edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur.**




Nümayəndə heyəti həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın, tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarını ziyarət etmişdir.

Daha sonra qonaqlar Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsini ehtiramla yad etmiş, məzarları üzərinə gül dəstələri düzmüşlər.

Səfər çərçivəsində Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevlə Özbəkistan Respublikasının baş prokuroru Niqmatilla Yuldoşev arasında geniş tərkibdə görüş keçirilmişdir.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev arasında mövcud olan yüksəksəviyyəli qarşılıqlı etimada və siyasi iradəyə əsaslanan dostluq, qardaşlıq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələr üzrə dinamik inkişaf etdiyi məmnunluqla vurğulanmışdır.

Bildirilmişdir ki, dövlət başçılarının həyata keçirdikləri məqsədyönlü siyasət hüquq-mühafizə orqanları arasında əməkdaşlığın da keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə əlverişli zəmin yaratmışdır.

Baş prokuror Kamran Əliyev Azərbaycan və Özbəkistan xalqları arasında əsrlər boyu formalaşmış ortaq tarixi, milli-mənəvi dəyərlərə və qarşılıqlı hörmətə əsaslanan qardaşlıq münasibətlərinin dövlətlərarası əməkdaşlığın bütün istiqamətlərdə uğurla inkişafına mühüm töhfə verdiyini qeyd etmiş, prokurorluq orqanları arasında formalaşmış səmərəli əməkdaşlığın cinayət mühakimə icraatının səmərəliliyinin artırılması, qanunun aliliyinin təmin edilməsi və transmilli cinayətkarlığa qarşı mübarizə baxımından xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Görüş zamanı Azərbaycan Respublikası baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətinin 2025-ci ilin sentyabr ayında Özbəkistan Respublikasına səfəri, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin baş prokurorlarının VI iclasında, eləcə də Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin baş prokurorlarının IV iclasında iştirakı məmnunluqla xatırlanmış, həmin səfərin iki ölkənin prokurorluq orqanları arasında institusional əlaqələrin daha da möhkəmlənməsinə və çoxtərəfli hüquqi əməkdaşlığın inkişafına mühüm töhfə verdiyi qeyd edilmişdir.

Tərəflər ikitərəfli hüquqi əməkdaşlığın gələcək inkişaf perspektivlərini müzakirə etmiş, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, ekstradisiya, cinayət yolu ilə əldə edilmiş əmlakın müəyyən edilməsi, üzərinə həbs qoyulması və müsadirəsi, transmilli mütəşəkkil cinayətkarlıq, korrupsiya, kibercinayətkarlıq, terrorçuluğun maliyyələşdirilməsi, insan alveri və digər müasir cinayət təzahürlərinə qarşı mübarizə, habelə rəqəmsal texnologiyaların tətbiqi, prokurorluq əməkdaşlarının peşə hazırlığı və təcrübə mübadiləsi sahələrində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulamışlar.

Görüş çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğu ilə Özbəkistan Respublikası Baş Prokurorluğu arasında 2027-2028-ci illəri əhatə edən Əməkdaşlıq Proqramı imzalanmışdır. Proqram iki ölkənin prokurorluq orqanları arasında institusional əməkdaşlığın daha da möhkəmləndirilməsinə, qarşılıqlı səfərlərin, birgə təlimlərin, ekspert mübadiləsinin və beynəlxalq təşkilatlar çərçivəsində koordinasiyalı fəaliyyətin genişləndirilməsinə xidmət edir.

Niqmatilla Yuldoşev göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirərək Özbəkistan Respublikasının Baş Prokurorluğunun Azərbaycan Respublikası Baş Prokurorluğu ilə qarşılıqlı etimada əsaslanan əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi önəm verdiyini, bu əlaqələrin bundan sonra da yüksələn xətt üzrə davam etdirilməsi üçün bütün zəruri səylərin göstəriləcəyini vurğulamışdır.

Görüş zamanı Azərbaycan və Özbəkistan prokurorluq orqanları arasında əməkdaşlığın inkişafına verdiyi mühüm töhfələr nəzərə alınaraq Niqmatilla Yuldoşevə "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı təqdim edilmişdir.

Daha sonra nümayəndə heyəti Azərbaycan Respublikası Prokurorluğunun Tarix Muzeyi ilə tanış olmuş, prokurorluq orqanlarının yaranma tarixi, inkişaf mərhələləri, institusional islahatlar və müasir fəaliyyət istiqamətləri barədə ətraflı məlumatlandırılmışdır.

# Çin Kommunist Partiyasının nümayəndə heyəti ölkəmizdə səfərdədir

**Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə Çin Kommunist Partiyasının (ÇKP) nümayəndə heyəti ölkəmizə səfər edib.**





Nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edərək məzarı önünə əklil və gül dəstələri qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət edilib. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Nümayəndə heyəti YAP Yasamal rayon təşkilatında partiyanın Gənclər Birliyinin üzvləri ilə görüş keçirib. Tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov, partiyanın Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamenti direktorunun müavini, nümayəndə heyətinin rəhbəri Kanq Şuay çıxış ediblər.

Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin iradəsi sayəsində iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi bildirilib. Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyasının geniş əlaqələrə malik olması xüsusi vurğulanaraq qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin münasibətlərin gələcək inkişafı baxımından böyük önəm daşıdığı qeyd olunub. 2024-cü ilin noyabr ayında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılığı ilə nümayəndə heyətinin Çinə səfəri zamanı partiyalar arasında imzalanmış Əməkdaşlıq Memorandumunun əhəmiyyəti nəzərə çatdırılıb. Memorandumdan irəli gələrək müxtəlif sahələrdə, o cümlədən gənclər arasında əməkdaşlıq istiqamətində görülən işlərin partiyalar və ölkələr arasında tərəfdaşlığın gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığı qeyd olunub. Hər iki partiyanın gənc üzvlərinin gələcək layihə və təşəbbüslərdə fəal iştirak edərək əməkdaşlığın daha da dərinləşdirilməsinə mühüm töhfələr verəcəyinə inam ifadə olunub.

Daha sonra YAP Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev və ÇKP Mərkəzi Komitəsinin Mərkəzi və dövlət orqanları ilə iş komitəsinin Siyasi tədqiqatlar departamentinin sektor müdiri Vu Min təqdimatlarla çıxış ediblər.

Çin Kommunist Partiyasının nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında da olub.

Əvvəlcə qonaqlar akademiyanın nəzdində fəaliyyət göstərən Çin Dili və Mədəniyyəti Mərkəzinin və Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbinin fəaliyyəti ilə tanış olublar.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, YAP Veteranlar Şurasının üzvü, akademik Urxan Ələkbərov "Dayanıqlı inkişaf və ekoloji sivilizasiya naminə innovativ dövlət idarəçiliyi texnologiyaları: Çin Xalq Respublikasının konsepsiyası və Azərbaycan Respublikasının təcrübəsi" mövzusunda təqdimatla çıxış edib.

Tədbirdə həmçinin ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamenti direktorunun müavini Kanq Şuay və Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxış ediblər.

Çıxışlarda bildirilib ki, iki ölkə arasında konstruktiv siyasi dialoq şəraitində son zamanlar iqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar və digər sahələrdə əlaqələr daha da genişlənib. Cari ilin may ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Mərkəzi Komitəsinin Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının dövlət idarəçiliyi və kadr hazırlığı sahəsində təcrübə mübadiləsi baxımından önəmi vurğulanıb.

Nümayəndə heyəti Çinin Qlobal Təşəbbüslərinin, İnkişafının və Mədəniyyətinin Öyrənilməsi Mərkəzinin təşkilatçılığı ilə "Çin Kommunist Partiyasının 105 illik şanlı yolu: gənclərin baxışı ilə ÇKP-ni anlamaq" mövzusunda konfransa da qatılıb.

Qeyd edək ki, nümayəndə heyətinin İçərişəhərə, Dənizkənarı Milli Parkına, "Sea Breeze" istirahət mərkəzinə və Mərkəzi Nəbatat Bağına ziyarəti də təşkil olunub. ÇKP nümayəndələri həmçinin Azərbaycan Dövlət Akademik Musiqili Teatrının "Operetta inciləri" konsert proqramında iştirak ediblər.

**Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 iyul tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026–2030-cu illər üçün Tədbirlər Planı

| | Tədbirin adı | Əsas icraçı orqan (qurum), fəaliyyət istiqamətlərinə uyğun olaraq | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **Prioritet istiqamət 1. Məşğulluqyönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsi, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi** | | | | | | | |
| 1.1. | Regionlarda investisiya fəallığının stimullaşdırılması, istehsal olunan malların və xidmətlərin daxili və xarici bazarlara çıxışının dəstəklənməsi üçün tədbirlər görülməsi | İN | KTN, YİHO, RİNN, ASK (tövsiyə olunur) | 2026 2030 | Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin (bundan sonra – KOB subyektləri) investisiya və innovasiya fəallığının stimullaşdırılması üçün əlverişli şərait yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsi | KOB subyektlərinin məlumatlandırılması və onlar üçün təlimlərin təşkili | KOB subyektlərinin dayanıqlığının gücləndirilməsi, iş yerlərinin qorunub saxlanılması və sayının artırılması |
| 1.2. | Regionlarda gənclərin startap layihələrinin dəstəklənməsi, o cümlədən xarici investisiyaların cəlb olunması istiqamətində tədbirlərin genişləndirilməsi | GİN, RİNN | İN, AQUPDK, VXSİDA | 2026 2030 | Startap layihələri üçün təqdimat günlərinin keçirilməsi (startap sayı – minimum 50, təqdimat günlərinin sayı – minimum 2) | Startap sayının minimum 100-ə, təqdimat günləri sayının minimum 4-ə çatdırılması | Startapların kommersiyalaşdırılması səviyyəsinin yüksəldilməsi, investisiya cəlb etmiş və beynəlxalq bazarlara çıxış əldə etmiş startapların sayının artırılması |
| 1.3. | Özünüməşğulluq proqramına cəlb olunan şəxslərin biznes subyektləri kimi formalaşdırılmasını təşviq edən yeni mexanizmlərin yaradılması | ƏƏSMN | İN, KTN | 2026 2030 | Özünüməşğulluq proqramı çərçivəsində fərdi sahibkar və ya ailə kəndli təsərrüfatı kimi rəsmi qeydiyyata alınanların sayının artırılması | Özünüməşğulluq proqramına cəlb olunmuş və rəsmi qeydiyyatdan keçərək biznesini davam etdirən şəxsləri Dünya Bankı ilə birgə həyata keçirilən Məşğulluğa Dəstək Layihəsi çərçivəsində icra olunan "Həvəsləndirmə mükafatları" müsabiqəsinə və "Sosial cəhətdən həssas şəxslər üçün əlavə iş yerlərinin yaradılması" layihəsinə cəlb etməklə onlara əlavə dəstək verilməsi | Özünüməşğulluq proqramı çərçivəsində yaradılmış biznes subyektlərinin məşğulluğa töhfəsinin artırılması |
| 1.4. | Dayanıqlı iş yerlərinin yaradılması məqsədilə KOB subyektləri üçün keyfiyyətli məsləhət xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi | İN | ƏƏSMN | 2027 2030 | Müasir texnologiyalardan istifadə etməklə məsləhət xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi tərəfindən göstərilən xidmətlər haqqında əhali arasında məlumatlılığın artırılması | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyinin göstərdiyi xidmətlərdən istifadə edənlərin sayının artırılması |
| 1.5. | Aqrar sektorda əmək məhsuldarlığının artırılması məqsədilə müasir texnologiyaların (ağıllı texnologiyalar, müasir suvarma sistemləri, intensiv bağçılıq, intensiv ferma modelləri və s.) tətbiqinin genişləndirilməsi | KTN | İN, YİHO | 2026 2030 | Aqrar sektorda tətbiq olunacaq müasir texnologiyaların tələbinə uyğun kadr potensialının hazırlanması məqsədilə təlimlərin təşkili, bacarıqların artırılması sahəsində digər tədbirlərin görülməsi | | Aqrar sektorda əmək məhsuldarlığı göstəricisinin artırılması |
| 1.6. | Əmək məhsuldarlığının artırılması üzrə KOB subyektlərinə metodiki dəstək göstərilməsi | İN | ƏƏSMN, ASK (tövsiyə olunur), aidiyyəti qurumlar | 2026 2030 | Təlim ehtiyacı olan KOB subyektlərinin müəyyən edilməsi, təlimlərin təşkili | KOB subyektlərinin potensialının gücləndirilməsi və sayının artırılması | |
| 1.7. | Azərbaycan Respublikasında, xüsusilə kənd yerlərində turizm infrastrukturunun inkişafı sahəsində tədbirlərin həyata keçirilməsi | DTA | İN, ƏƏSMN, YİHO | 2026 2030 | Turizm infrastrukturunun inkişafı üzrə müvafiq layihələrin təşkili və bu sahədə bacarıqların artırılması üçün tədbirlər görülməsi | | Regionların turizm cəlbediciliyinin, o cümlədən turist axınının və turizmdən əldə olunan gəlirlərin artırılması |
| **Prioritet istiqamət 2. Əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi** | | | | | | | |
| 2.1. | "İşəgötürənlər və sahibkarlar birlikləri haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanması | İN | ƏƏSMN, ASK (tövsiyə olunur) | 2026 2030 | Sahibkarlar birliklərinin fəaliyyətinin tənzimlənməsi sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və təkliflər hazırlanması | Müvafiq təkliflər əsasında qanun layihəsinin hazırlanması, razılaşdırılması və aidiyyəti üzrə təqdim edilməsi | Əmək və məşğulluq sahəsində qərarların qəbul olunmasında işəgötürənlərin iştirakının genişləndirilməsi |
| 2.2. | Əmək bazarının tənzimlənməsi üzrə mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | ƏƏSMN | İN, MN, AQUPDK və digər aidiyyəti qurumlar | 2027 2030 | Aidiyyəti normativ hüquqi aktlarda dəyişiklik edilməsi barədə layihələrin və Vahid Tarif-İxtisas Sorğu Kitabçasının davamlı olaraq təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlanması | Müvafiq layihələrin razılaşdırılması və aidiyyəti üzrə təqdim edilməsi | Qəbul olunmuş normativ hüquqi aktlar əsasında işəgötürənlər tərəfindən vəzifələrin və həmin vəzifələr üzrə əməkhaqlarının müəyyən edilməsi, habelə işçilərin hüquqlarının təmini istiqamətində metodiki dəstəyin göstərilməsi |
| 2.3. | Əmək və məşğulluq sahəsində beynəlxalq konvensiyalara Azərbaycan Respublikasının qoşulması ilə bağlı təkliflərin hazırlanması və həmin konvensiyaların ratifikasiya edilməsi imkanlarının araşdırılması ilə bağlı müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | ƏƏSMN | XİN, AHİK və ASK cəlb olunmaqla | 2027 2030 | Azərbaycan Respublikasının qoşulmadığı Beynəlxalq Əmək Təşkilatının 184, 190 və 191 nömrəli konvensiyalarının ratifikasiya edilməsi imkanlarının araşdırılması | Beynəlxalq Əmək Təşkilatının 184, 190 və 191 nömrəli konvensiyalarına Azərbaycan Respublikasının qoşulması ilə bağlı təkliflərin hazırlanması | Müəyyən olunmuş konvensiyaların ratifikasiya olunması prosesinə başlanılması |
| 2.4. | İş yerində öyrənmə (usta yanında şagirdlik və təcrübəkeçmə) üzrə yeni mexanizmin yaradılması məqsədilə normativ hüquqi bazanın formalaşdırılması | ƏƏSMN | ETN, İN, ASK və AHİK cəlb olunmaqla | 2026 2029 | İş yerində öyrənmə ilə bağlı beynəlxalq təcrübənin araşdırılması və təkliflərin hazırlanması | İş yerində öyrənmə ilə bağlı müvafiq normativ hüquqi akt layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | İş yerində təcrübə və şagirdlik dövründə əmək münasibətlərinin tənzimlənməsi üzrə yeni mexanizmin formalaşdırılması |
| 2.5. | Əmək miqrasiyası proseslərinin tənzimlənməsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi | DMX | ƏƏSMN, aidiyyəti qurumlar | 2026 2030 | Əmək miqrasiyası sahəsində mövcud qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi və təkliflər hazırlanması | | İşəgötürənin xarici işçi qüvvəsinə olan ehtiyacının qarşılanmasına dair tələbləri təkmilləşdirməklə əmək miqrasiyası proseslərinin tənzimlənməsi |
| 2.6. | Məşğulluq sahəsində göstərilən xidmətlərin elektronlaşdırılmasının genişləndirilməsi | ƏƏSMN | RİNN | 2026 2030 | İşsizlikdən sığorta ödənişi, peşə hazırlığı, özünüməşğulluq, kvota üzrə və kvotadan əlavə iş yerlərinin müəyyən edilməsi və s. sahələrdə göstərilən xidmətlərin tam avtomatlaşdırılması üzrə tədbirlər görülməsi, habelə avtomatlaşdırılmış monitorinq və hesabat mexanizmlərinin yaradılması | | Məşğulluq xidmətlərinin əlçatanlığının, operativliyinin və şəffaflığının artırılması, habelə xidmətlərin göstərilməsi və monitorinqinin səmərəliliyinin yüksəldilməsi |
| 2.7. | İşaxtaran və işsiz şəxslərin məşğulluğunun təmin edilməsi prosesində süni intellektə əsaslanan xidmətlərin yaradılması | ƏƏSMN | RİNN, İN | 2026 2030 | Müvafiq sahə ilə bağlı təkliflərin hazırlanması | Pilot layihələrin həyata keçirilməsi | Süni intellektə əsaslanan xidmətlərdən yararlanan şəxslərin sayının artırılması |
| 2.8. | Regionların iqtisadi inkişaf prioritetlərinə uyğun peşə hazırlığı mərkəzləri şəbəkəsinin genişləndirilməsi | ƏƏSMN | YİHO | 2026 2030 | Peşə hazırlığı mərkəzlərinin yaradılması üçün regionların müəyyən edilməsi | 6 regional peşə hazırlığı mərkəzinin yaradılması və fəaliyyətə başlaması | |
| 2.9. | Beynəlxalq təcrübə əsasında çevik iş vaxtı rejimi modellərinin yaradılması | ƏƏSMN | İN | 2026 2030 | Çevik iş rejimi modellərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübənin araşdırılması | Çevik iş rejimi modellərinin tətbiqi ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Çevik iş rejimi modellərinin tətbiq edilməsi |
| 2.10. | Məşğulluq xidmətlərinə əlçatanlığın artırılması istiqamətində regional infrastrukturun gücləndirilməsi | ƏƏSMN | YİHO | 2026 2030 | Regionlarda yeni "DOST" mərkəzlərinin yaradılması istiqamətində işlər görülməsi | Regionlarda "DOST" mərkəzlərinin yaradılması və məşğulluq xidmətlərinin "DOST" mərkəzlərində göstərilməsi | Məşğulluq xidmətlərinin regionlar üzrə əhatəliliyinin və əlçatanlığının artırılması |
| **Prioritet istiqamət 3. İşçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi** | | | | | | | |
| 3.1. | "Peşələr üzrə elektron atlas" informasiya sisteminin yaradılması | ƏƏSMN | RİNN | 2026 2029 | "Peşələr üzrə elektron atlas"ın məzmunu və strukturu ilə bağlı beynəlxalq təcrübənin araşdırılması və bunun əsasında müvafiq informasiya sisteminin yaradılması | "Peşələr üzrə elektron atlas" informasiya sistemi barədə təhsil, təlim və əmək bazarı iştirakçıları arasında məlumatlandırma tədbirlərinin keçirilməsi, informasiya sisteminin peşələrin siyahısına və məzmununa uyğun olaraq mütəmadi yenilənməsi | İşsiz və işaxtaran şəxslərin əmək bazarında mövcud olan peşələrlə bağlı bilik və bacarıqlarının artırılması və uyğun karyera imkanlarının genişlənməsi |
| 3.2. | Peşə təhsili müəssisələrində təhsilverənlər üçün təkmil ixtisasartırma proqramlarının tətbiqi | ETN | ASK (tövsiyə olunur) | 2026 2030 | Müasir texniki bilik və bacarıqlar üzrə təlim keçən təhsilverənlərin sayının minimum 250 nəfərə çatdırılması | | Müasir texniki bilik və bacarıqlar üzrə təlim keçən təhsilverənlərin sayının minimum 300 nəfərə çatdırılması |
| 3.3. | Əmək bazarının tələbləri əsasında peşə və kvalifikasiya standartlarının davamlı olaraq yenilənməsi | ƏƏSMN | | 2026 2030 | Əmək bazarında peşə və kvalifikasiya standartlarına ehtiyacın mütəmadi müəyyən edilməsi | Bacarıqların inkişafı üzrə sahə komissiyalarının qərarı əsasında peşə və kvalifikasiya standartlarının təsdiq olunması | Peşə və kvalifikasiya standartlarının əmək bazarının cari və perspektiv tələblərinə uyğunluğunun təmin edilməsi |
| 3.4. | KOB subyektlərinin ehtiyaclarına uyğun maliyyə savadlılığının artırılması üzrə təlimlərin təşkili | İN | ƏƏSMN, ETN | 2026 2030 | Təlim ehtiyacı olan KOB subyektlərinin müəyyən edilməsi | Maliyyə savadlılığının artırılması istiqamətində təlim ehtiyacı olan KOB subyektləri üçün təlimlər keçirilməsi | Təlimlərdən bəhrələnəcək KOB subyektlərin sayının artırılması |
| 3.5. | Peşə təhsili müəssisələrində müasir tələblərə uyğun sənayeyönümlü ixtisasların tədrisinin genişləndirilməsi | ETN | İN, ƏƏSMN | 2026 2030 | Yeni sənayeyönümlü peşə təhsili ixtisaslarının müəyyən edilməsi və tədrisin təşkili | | Sənaye sektorunun ixtisaslı kadrlarla təminatının gücləndirilməsi |
| 3.6. | "Yaşıl iqtisadiyyat"a keçid kontekstində müasir bacarıqların əldə olunması məqsədilə peşə hazırlığı proqramlarının təkmilləşdirilməsi | ƏƏSMN | ETN, İN | 2026 2030 | "Yaşıl iqtisadiyyat"a keçid komponentləri əsasında yeni peşə hazırlığı proqramlarının hazırlanması, mövcud proqramların məzmununa yenidən baxılması | | "Yaşıl iqtisadiyyat"ın inkişafı üçün zəruri bacarıqlara malik kadr potensialının gücləndirilməsi |
| 3.7. | İqtisadiyyatın prioritet sahələri üzrə əmək bazarının tələblərinə uyğun peşə təhsili proqramlarının hazırlanması | ETN | ƏƏSMN, ASK (tövsiyə olunur) | 2026 2030 | Əmək bazarının tələblərinə uyğun müvafiq ixtisaslar üzrə beynəlxalq sertifikat proqramlarını mövcud peşə təhsili proqramları ilə uyğunlaşdırma imkanlarının müəyyən edilməsi | Təhsil proqramlarının beynəlxalq sertifikat proqramlarına uyğunlaşdırılması və pilot layihələrin tətbiqi (2 təhsil proqramı) | Tətbiq edilən 2 pilot təhsil proqramının tədris nəticələrinə əsasən tədbirlərin müəyyən edilməsi |
| 3.8. | Əmək bazarının tələblərinə uyğun olaraq ali və orta ixtisas təhsili proqramlarının yenilənməsi | ETN | aidiyyəti qurumlar | 2026 2030 | Ali və orta ixtisas təhsili pillələri üzrə yenilənməsinə ehtiyac olan proqramların müəyyən edilməsi | Tələbata uyğun olaraq proqramların yenilənməsi | |
| 3.9. | Dual peşə təhsili modelinin əhatə dairəsinin genişləndirilməsi | ETN | ASK (tövsiyə olunur) | 2026 2030 | Dual peşə təhsili proqramına cəlb olunan tələbə sayının 1400 nəfərə çatdırılması | Dual peşə təhsili proqramına cəlb olunan tələbə sayının 1500 nəfərə çatdırılması | Dual peşə təhsili proqramına cəlb olunan tələbə sayının 1600 nəfərə çatdırılması və əmək bazarında praktik bacarıqlara malik işçi qüvvəsi sayının artırılması |
| 3.10. | Qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə olunmuş bacarıqların tanınması sisteminin təkmilləşdirilməsi | ETN | ƏƏSMN | 2026 2030 | Qeyri-formal və informal təhsil bacarıqlarının tanınması sisteminin təkmilləşdirilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi | Beynəlxalq təcrübə əsasında normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş bacarıqların tanınması və əmək bazarında istifadəsi imkanlarının genişləndirilməsi |
| 3.11. | Peşəyönümünə dair məsləhət xidməti üzrə rəqəmsal həllərin tətbiqi | ƏƏSMN | ETN | 2026 2029 | Rəqəmsal həllərin tətbiqi üçün müvafiq texniki bazanın yaradılması | Rəqəmsal həllər tətbiq olunmaqla peşəyönümünə cəlb edilmiş şəxslərin sayının artırılması | |
| **Prioritet istiqamət 4. Aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyasının gücləndirilməsi** | | | | | | | |
| 4.1. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin əmək bazarına çıxışının artırılması üçün aktiv məşğulluq tədbirlərinin səmərəliliyinin artırılması | ƏƏSMN | | 2026 2030 | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün həyata keçirilən aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi | Aktiv məşğulluq tədbirlərinin səmərəliliyinin artırılması məqsədilə təkliflər hazırlanması və tətbiqi istiqamətində tədbirlər görülməsi | Aktiv məşğulluq tədbirlərinə cəlb edilən şəxslərin sayının artırılması |
| 4.2. | İşəgötürənlər cəlb olunmaqla sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün aktiv məşğulluq proqramlarının sayının artırılması | ƏƏSMN | İN, ASK (tövsiyə olunur) | 2028 2030 | İşəgötürənlərlə birlikdə yeni aktiv məşğulluq proqramlarının tətbiqinə dair beynəlxalq təcrübənin öyrənilməsi | Yeni aktiv məşğulluq proqramlarının tətbiqi | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərdən işlə təmin olunanların sayının artırılması |
| 4.3. | Özünüməşğulluq proqramı üzrə təlim proqramlarının, habelə proqram çərçivəsində təqdim olunacaq material, avadanlıq və digər əmlakın tərkibinin təkmilləşdirilməsi | ƏƏSMN | İN, KTN, ASK (tövsiyə olunur) | 2026 2030 | Özünüməşğulluq proqramına yeni istiqamətlərin əlavə edilməsi və mövcud olan material, avadanlıq və digər əmlakın tərkibinə yenidən baxılması | | Özünüməşğulluq proqramına cəlb olunmuş şəxslərin səmərəli fəaliyyətinin təşkili |
| 4.4. | Yerli kadrların mövcud vakansiyalara uyğunluğunun artırılması üçün işəgötürənlərlə əlaqələrin gücləndirilməsi | ƏƏSMN | İN, ASK (tövsiyə olunur) | 2026 2030 | İşəgötürənlərlə əlaqələrin gücləndirilməsi və kadr tələbatının öyrənilməsi | Vakansiyalara uyğun peşələr üzrə peşə hazırlığını həyata keçirən müəssisələrin seçilməsi | Əmək bazarının tələbləri ilə peşə hazırlığı sistemi arasında uyğunluğun gücləndirilməsi və vakansiyaların yerli kadrlar hesabına təmin olunması imkanlarının artırılması |
| 4.5. | Regionlarda işsiz və işaxtaran şəxslər (xüsusilə gənclər) üçün onlayn və hibrid təlimlərin təşkili | ƏƏSMN | GİN, ETN | 2026 2030 | Təlim ehtiyaclarının öyrənilməsi | Təlimlərin təşkili | Təlimdə iştirak edən şəxslər, xüsusilə gənclər arasında işlə təmin olunanların sayının artırılması |
| 4.6. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən qadınların aktiv məşğulluq tədbirlərinə cəlb edilməsi işinin gücləndirilməsi | ƏƏSMN | ETN, GİN, AQUPDK, YİHO | 2026 2030 | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən qadınların əmək bazarına qısa müddətdə inteqrasiya olunması məqsədilə aktiv məşğulluq tədbirlərinin sayının artırılması | Sosial müdafiəyə xüsusi ehtiyacı olan qadınların aktiv məşğulluq tədbirləri ilə əhatə səviyyəsinin artırılması | Əmək bazarına inteqrasiya olunan sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən qadınların sayının artırılması |
| 4.7. | Dövlət uşaq müəssisələrindən məzun olmuş əməkqabiliyyətli şəxslərin məşğulluğunun dəstəklənməsi üzrə tədbirlərin həyata keçirilməsi | ƏƏSMN | ETN, GİN, YİHO, İN, ASK (tövsiyə olunur) | 2026 2030 | Dövlət uşaq müəssisələrindən məzun olmuş əməkqabiliyyətli şəxslər üçün fərdi məşğulluq proqramının hazırlanması | Fərdi məşğulluq proqramına uyğun olaraq şəxslərin aktiv məşğulluq tədbirlərinə cəlb edilməsi | Dövlət uşaq müəssisəsindən məzun olmuş şəxslərin işlə təmin olunmasının yaxşılaşdırılması |
| **Prioritet istiqamət 5. Sosial dialoqun inkişaf etdirilməsi və qeyri-formal əmək münasibətlərinin qarşısının alınması** | | | | | | | |
| 5.1. | Əmək münasibətlərinin leqallaşdırılması istiqamətində aidiyyəti dövlət orqanları (qurumları) arasında əlaqələndirilmənin gücləndirilməsi | ƏƏSMN | İN, VXSİDA | 2026 2030 | Əmək münasibətlərinin leqallaşdırılması istiqamətində yeni çağırışlarla bağlı məsləhətləşmələr aparılması | Əmək münasibətlərinin leqallaşdırılması üzrə birgə fəaliyyətlərin müəyyən edilməsi | Əmək münasibətlərinin leqallaşdırılmasının gücləndirilməsi və əmək müqaviləsi əsasında çalışan şəxslərin sayının artırılması |
| 5.2. | İşəgötürənlərin əmək qanunvericiliyi sahəsində məlumatlılığının artırılması istiqamətində tədbirlərin gücləndirilməsi | ƏƏSMN | İN, ASK və AHİK cəlb olunmaqla | 2026 2030 | Əmək qanunvericiliyi sahəsində maarifləndirici materialların hazırlanması | Əmək qanunvericiliyi sahəsində məlumatlandırma tədbirlərinin keçirilməsi | Əmək qanunvericiliyi tələblərinin pozulmasının qarşısının alınması və işçilərin hüquqlarının müdafiəsinin təmin olunması |
| 5.3. | Qeyri-formal məşğulluğun qarşısının alınması ilə bağlı preventiv maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | ƏƏSMN | İN, VXSİDA, ASK və AHİK cəlb olunmaqla | 2026 2030 | Qeyri-formal məşğulluğun qarşısının alınması ilə əlaqədar həyata keçirilən tədbirlər barədə ictimai müzakirələrin keçirilməsi | Qeyri-formal məşğulluğun xarakterik olduğu sahələr üzrə risk qrupu subyektlərinin müəyyən edilməsi və maarifləndirmənin təşkili | Formal məşğulluğun təşviqi və işçilərin sosial müdafiəsinin təmin olunması |
| 5.4. | "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatından istifadə etməklə əmək münasibətlərinin leqallaşdırılması istiqamətində tədbirlərin görülməsi | ƏƏSMN | İN, RİNN, DMX | 2026 2030 | Digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri və ehtiyatları arasında inteqrasiyanın təşkili üçün zəruri məlumatların dəqiqləşdirilməsi, qeyri-formal məşğulluğun elektron uçotunun aparılması üçün müvafiq elektron informasiya sistemlərində (ehtiyatlarında) təkmilləşdirmə ehtiyaclarının müəyyən edilməsi, yeni funksionallıqların yaradılması | | Riskəsaslı elektron auditin aparılmasının təmin edilməsi |
| 5.5. | Ərazi məşğulluq proqramlarının hazırlanması mexanizminin təkmilləşdirilməsi | ƏƏSMN | İN, YİHO | 2027 2030 | Ərazi məşğulluq proqramlarının hazırlanması mexanizminin təkmilləşdirilməsinə dair təkliflər hazırlanması | Ərazi məşğulluq proqramlarının tərtib olunmasına dair təlimlərin təşkili | İnzibati rayonlar üzrə yeni metodologiya əsasında ərazi məşğulluq proqramlarının regional əmək bazarının tələblərinə uyğun tərtib edilməsi |
| 5.6. | Kənd təsərrüfatı sahəsində məşğulluğun uçotu sisteminin təkmilləşdirilməsi | ƏƏSMN | RİNN, KTN, İN | 2027 2030 | Kənd təsərrüfatı sahəsində əmək münasibətlərinin leqallaşdırılmasına, o cümlədən ailə kəndli təsərrüfatlarında çalışan işçilərin uçotunun təşkilinə dair təkliflər hazırlanması | | Kənd təsərrüfatı sahəsində məşğul şəxslərin elektron uçotunun aparılması |
| 5.7. | Əcnəbi işçi qüvvəsinin sayının proqnozlaşdırılması istiqamətində sahibkarlıq subyektləri ilə əməkdaşlığın gücləndirilməsi | ƏƏSMN | DMX, İN, ASK və AHİK cəlb olunmaqla | 2026 2030 | Əcnəbi işçi qüvvəsinə tələbatı yüksək olan işəgötürənlərdə işçi qüvvəsinin yerli kadrlarla əvəz edilməsi imkanlarının müəyyənləşdirilməsi | İşəgötürənlərlə yerli işçi qüvvəsi arasında əlaqə qurulmasına dəstək verilməsi | İşəgötürənlərin ehtiyaclarının yerli kadrlarla ödənilməsi səviyyəsinin artırılması |
| 5.8. | Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın fəaliyyətinin qiymətləndirilməsi metodologiyasının hazırlanması və tətbiqi | ƏƏSMN | ASK və AHİK cəlb olunmaqla | 2026 2030 | Qiymətləndirmə metodologiyası üzrə beynəlxalq təcrübənin öyrənilməsi | Mütərəqqi təcrübə əsasında qiymətləndirmə metodologiyasının hazırlanması | Hazırlanmış metodologiya əsasında Komissiyanın fəaliyyətinin qiymətləndirilməsi |
| **Prioritet istiqamət 6. Əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi** | | | | | | | |
| 6.1. | Əmək bazarı üzrə proqnozlaşdırma metodologiyasının təkmilləşdirilməsi | ƏƏSMN | ETN, İN, RİNN, aidiyyəti dövlət orqanları (qurumları) | 2027 2030 | Beynəlxalq təcrübə əsasında proqnozlaşdırma metodologiyasının hazırlanması üçün tələb olunan statistik göstəricilər sisteminin müəyyən edilməsi | Əmək bazarının proqnozlaşdırma metodologiyasının hazırlanması | Əmək bazarı siyasətləri üzrə daha səmərəli qərarların qəbulu üçün qısa, orta və uzunmüddətli proqnozların hazırlanması |
| 6.2. | İşçi qüvvəsinin bacarıqlarının monitorinqi və əmək bazarının gələcək ehtiyaclarının müəyyən edilməsi üçün araşdırmalar aparılması | ƏƏSMN | İN, ETN, ASK və AHİK cəlb olunmaqla | 2027 2030 | Əmək bazarında ən çox tələb olunan bacarıqların müəyyən edilməsi metodologiyasının hazırlanması, ilk monitorinq hesabatlarının aidiyyəti üzrə təqdim edilməsi | Bacarıq tələbatına uyğun təlim proqramlarının hazırlanması və tətbiqi | Əmək bazarının tələbatına uyğun ixtisaslı işçi qüvvəsinin sayının artırılması |
| 6.3. | Təhsil müəssisələri tərəfindən məzunların əmək bazarına adaptasiyası vəziyyətinin öyrənilməsi üzrə dövri müayinələr aparılması | ƏƏSMN | ETN | 2026 2030 | Müayinə metodologiyasının hazırlanması | | Elektron sistemlərin inteqrasiyası əsasında məzunların işədüzəlmə imkanlarının qiymətləndirilməsi |
| 6.4. | Əmək bazarının diaqnostikası və proqnozlaşdırılması məqsədilə təhlillər aparılması | ƏƏSMN | DSK | 2026 2030 | Əmək bazarının diaqnostikası üzrə indikatorlar sisteminin hazırlanması | Dövri və operativ statistik hesabatların hazırlanması, muzdla çalışan işçilərin strukturuna və dinamikasına dair araşdırmaların aparılması | Əmək bazarı üzrə qısa, orta və uzunmüddətli proqnozların hazırlanması |
| 6.5. | İşəgötürənlərin peşələrə dair tələbatının müəyyən olunması | ƏƏSMN | İN, ASK | 2026 2030 | İşəgötürənlərin peşələrə dair tələbatının öyrənilməsi məqsədilə illik sorğuların keçirilməsi | | İşəgötürənlərin peşələr üzrə işçi sayına ehtiyaclarının müəyyən edilməsi |
| 6.6. | Qısamüddətli dövrdə minimum əməkhaqqı artımının əmək bazarına təsirinin qiymətləndirilməsi | ƏƏSMN | İN | 2027 2030 | Minimum əməkhaqqının əmək bazarına təsirlərinə dair metodologiyanın hazırlanması | Minimum əməkhaqqının əmək bazarına təsirlərinə dair proqnozların hazırlanması | |
| 6.7. | Əmək bazarında işçi qüvvəsinin hərəkətinin proqnozlaşdırılması | ƏƏSMN | İN, DSK | 2027 2030 | İşçi qüvvəsi axınlarının təhlili | İşçi qüvvəsinin hərəkəti ilə bağlı proqnozlaşdırma metodologiyasının hazırlanması və tətbiqi | Əmək bazarında işçi qüvvəsinin hərəkətini əks etdirən proqnozların hazırlanması |

**Akronimlər**

| | |
|---|---|
| AHİK | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası |
| AQUPDK | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| ASK | Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası |
| DMX | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti |
| DSK | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi |
| DTA | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi |
| ETN | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi |
| GİN | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| XİN | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi |
| İN | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi |
| KTN | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi |
| MN | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| RİNN | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| VXSİDA | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| YİHO | Yerli icra hakimiyyəti orqanları |

## 151 illik şərəf salnaməsi

# Milli mətbuatda dövlətçilik düşüncəsi

**Dövlətlərin tarixini müəyyənləşdirən amillər sırasında siyasi liderlərin fəaliyyəti, iqtisadi inkişaf, hərbi qələbələr və hüquqi institutlar xüsusi yer tutur. Ancaq həmin tarixin görünməyən bir xətti də mövcuddur. Bu xətt cəmiyyətin necə düşündüyünü, hansı dəyərləri qəbul etdiyini, həqiqətlər uğrunda necə mübarizə apardığını göstərir.**




Dövlətlərin uzunömürlülüyü də çox vaxt məhz həmin düşüncə mühitinin möhkəmliyi ilə müəyyən olunur. Dövlət idarəçiliyi siyasi qərarlar qəbul edir, mətbuat isə həmin qərarların cəmiyyət tərəfindən necə qarşılanacağına təsir göstərən ictimai mühit formalaşdırır. Bu baxımdan milli mətbuat dövlət həyatının kənarında dayanan müşahidəçi yox, dövlətçilik təfəkkürünün formalaşmasında birbaşa iştirak edən əsas ictimai institutlardan biridir.

Tarixin müxtəlif mərhələləri bu həqiqəti dəfələrlə təsdiqləyib. XV əsrdə İohann Qutenberqin çap dəzgahını təkmilləşdirməsi texniki yenilik kimi qiymətləndirilsə də, sonrakı yüzilliklər onun ictima-siyasi nəticələrinin daha böyük olduğunu göstərdi. Çap məhsullarının geniş yayılması Avropada maarifçilik hərəkatını sürətləndirdi, dini islahatlara, elmi düşüncənin inkişafına və hüquqi dövlət ideyasının möhkəmlənməsinə ciddi təsir göstərdi. İngilis dövlət xadimi Edmund Börk yazırdı ki, parlamentdə üç hakimiyyət mövcuddur, mətbuat isə onların hamısından güclü təsir imkanına malik dördüncü hakimiyyətdir. Bu fikir təkcə jurnalistikanın nüfuzunu ifadə etmirdi. O, ictimai rəyin dövlət idarəçiliyində tutduğu yeri müəyyənləşdirirdi.

XVIII əsrdə Amerika istiqlal mübarizəsi və Fransa inqilabı zamanı qəzetlər siyasi ideyaların əsas daşıyıcısına çevrildi. İnsan hüquqları, vətəndaş azadlıqları və xalq hakimiyyəti haqqında düşüncələr əvvəlcə qəzet səhifələrində müzakirə olundu, sonra dövlətlərin siyasi həyatına daxil oldu. Bu hadisələr göstərdi ki, söz bəzən orduların aça bilmədiyi qapıları açır.

XX əsr isə mətbuatın həm qurucu, həm də dağıdıcı gücünü bütün miqyası ilə ortaya qoydu. Birinci Dünya müharibəsi zamanı Böyük Britaniyada yaradılmış "Wellington House" adlı xüsusi təbliğat bürosu tarixdə dövlət səviyyəsində təşkil olunmuş ilk informasiya mərkəzlərindən biri hesab olunur. Onun əsas vəzifəsi cəbhədə qələbə qazanmaq deyildi. Məqsəd ictimai rəyi idarə etmək, müttəfiq ölkələrdə dəstəyi gücləndirmək və rəqib dövlətlərin mövqeyini zəiflətmək idi. Müharibədən sonra aparılan araşdırmalar göstərdi ki, informasiya üzərində qazanılan üstünlük bir çox halda hərbi əməliyyatların nəticəsinə də təsir göstərmişdi.

İkinci Dünya müharibəsi informasiyanın siyasi silaha çevrilməsinin ən ağır nəticələrini ortaya çıxardı. 1933-cü ildə Almaniyada Xalq Maarifləndirilməsi və Təbliğat Nazirliyinin yaradılması təsadüfi qərar deyildi. Jozef Qebbels mətbuatı, radionu, kinonu və nəşriyyatları vahid idarəetmə sistemi altında birləşdirərək bütöv cəmiyyətin düşüncəsinə təsir göstərən mexanizm qurdu. Təkrarlanan yalanın həqiqət kimi qəbul etdirilməsi, nifrətin ideologiyaya çevrilməsi və insan şüurunun sistemli şəkildə istiqamətləndirilməsi tarixdə ağır faciələrə səbəb oldu. Nürnberq məhkəmələri faşizmin cinayətlərini hüquqi müstəvidə qiymətləndirərkən təbliğat maşınının həmin cinayətlərdə oynadığı rolu da ayrıca qeyd etdi.

Eyni dövrdə sosialist ideologiyası da mətbuatı dövlət siyasətinin əsas alətlərindən biri kimi formalaşdırdı. "Pravda" və "İzvestiya" kimi qəzetlərin milyonlarla nüsxə tirajla çap olunması təkcə jurnalistikanın uğuru hesab edilmirdi. Bu nəşrlər ideoloji idarəetmə sisteminin mühüm hissəsi idi. İnformasiya seçilir, şərh olunur və müəyyən olunmuş siyasi xəttə uyğun təqdim edilirdi. Dövlətlə informasiya arasında yaranan bu münasibət uzun illər bütöv bir cəmiyyətin düşüncə modelini formalaşdırdı.

Soyuq müharibə illərində informasiya sahəsində rəqabət yeni mərhələyə qədəm qoydu. Qarşıdurma yalnız raketlərin sayı, orduların gücü və hərbi blokların imkanları ilə ölçülmürdü. Dövlətlər insanların düşüncəsinə təsir göstərmək üçün radio yayımlarından, qəzetlərdən, televiziya proqramlarından və analitik mərkəzlərdən geniş istifadə edirdilər. "Azad Avropa" radiosu, "Amerikanın səsi", Sovet İttifaqının mərkəzi informasiya resursları və digər media qurumları geosiyasi rəqabətin görünən tərəflərindən biri idi. Hər məlumat siyasi məqsəd daşıyır, hər şərh müəyyən strateji marağa xidmət edirdi. İnformasiya təhlükəsizliyi anlayışı da məhz həmin dövrdə dövlət siyasətinin ayrılmaz istiqamətlərindən birinə çevrildi. Bu tarixi təcrübə mühüm nəticə ortaya qoydu. Cəmiyyətin düşüncə mühiti zəiflədikcə xarici təsirlərin imkanları genişlənir, milli həmrəylik gücləndikcə informasiya təxribatlarının təsir dairəsi daralır. Dövlət sərhədlərini qoruyan əsgər fiziki təhlükəsizliyi təmin edir, informasiya məkanını qoruyan peşəkar media isə milli düşüncənin dayanıqlılığını möhkəmləndirir. Bu iki istiqamət bir-birini tamamlayan strateji amillərdir.

Azərbaycan milli mətbuatı da mürəkkəb beynəlxalq proseslərin fonunda formalaşaraq özünəməxsus inkişaf yolu keçib. 1875-ci il 22 iyul tarixində Həsən bəy Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti milli mətbuatımızın əsasını qoymaqla yanaşı, yeni ictimai düşüncə məktəbi yaratdı. Zərdabi üçün qəzet gündəlik xəbərlər toplusu deyildi. O, xalqın maariflənməsini, elmə marağın artmasını, ana dilinin inkişafını və milli özünüdərk hissinin möhkəmlənməsini əsas məqsəd hesab edirdi. "Əkinçi"nin cəmi 56 nömrəsi çap olunub. Bu rəqəm kiçik görünə bilər. Lakin həmin 56 nömrənin yaratdığı intellektual təsir sonrakı onilliklərdə yüzlərlə nəşrin görə bilmədiyi işi görüb.

Zərdabi yazırdı ki, xalqın tərəqqisinin yolu elmdən keçir. Bu fikir, sadəcə, maarifçilik çağırışı deyildi. O, gələcək dövlətçilik düşüncəsinin fəlsəfi əsaslarından birinə çevrildi. Savadlı və məlumatlı insanın yetişməsi milli inkişafın başlanğıcı kimi qəbul olunurdu. Sonrakı dövrlərdə milli mətbuatın aparıcı nümayəndələri də məhz bu xətti davam etdirdilər.

Əhməd bəy Ağaoğlu mətbuatı milli azadlığın siyasi tribunasına çevirdi. Onun publisistikası cəmiyyətdə hüquq, vətəndaş məsuliyyəti və milli dövlət anlayışını möhkəmləndirirdi. Əli bəy Hüseynzadə "Türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyasını irəli sürərkən mətbuatı həmin ideyanın daşıyıcısı kimi görürdü. Əlimərdan bəy Topçubaşov publisistik fəaliyyəti ilə hüquqi dövlət düşüncəsini inkişaf etdirir, Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" vasitəsilə cəmiyyətin sosial problemlərini, savadsızlığı, xurafatı və ictimai laqeydliyi kəskin satira ilə tənqid edirdi. Üzeyir bəy Hacıbəylinin publisistikası isə milli həmrəyliyi, mədəniyyətin dövlət həyatındakı rolunu və ziyalının məsuliyyətini yeni məzmunda təqdim edirdi. Bu ziyalıların hər biri müxtəlif üslubda yazırdı. Fərqli mövzulara toxunurdular. Onları birləşdirən ortaq cəhət isə dəyişmirdi: mətbuat xalqı hadisələrin tamaşaçısı kimi yox, gələcəyin iştirakçısı kimi hazırlamalıdır. Dövlətçilik əvvəlcə düşüncədə möhkəmlənir, düşüncə isə cəmiyyətə söz vasitəsilə çatır. Azərbaycan milli mətbuatının ilk böyük məktəbi məhz bu prinsiplər üzərində formalaşdı.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması milli mətbuat qarşısında yeni vəzifələr müəyyənləşdirdi. Müstəqil dövlət artıq yalnız siyasi qərarlarla idarə olunmurdu. Cəmiyyətin həmin qərarlara münasibəti, milli ideyanın qəbul olunması və dövlətçilik şüurunun möhkəmlənməsi mətbuatın fəaliyyətindən də asılı idi. Parlamentin iclasları, qəbul olunan qanunlar, diplomatik danışıqlar, milli ordunun yaradılması, təhsil islahatları və dövlət rəmzləri ilə bağlı müzakirələr qəzetlərin əsas mövzularını təşkil edirdi. Cəmi iyirmi üç ay yaşayan cümhuriyyət özündən sonra hüquqi dövlət modeli ilə yanaşı, azad söz ənənəsini də miras qoydu.

1920-ci ilin aprelindən sonra Azərbaycan yeni siyasi sistem daxilində fəaliyyət göstərməyə başladı. Mətbuat da həmin sistemin ideoloji mexanizminin tərkib hissəsinə çevrildi. Bununla yanaşı, milli düşüncə tamamilə arxa plana keçmədi. Azərbaycan dili, ədəbiyyatı, klassik irs, tarix və mədəniyyət haqqında aparılan araşdırmalar xalqın milli kimliyini qoruyan mənəvi dayaqlardan biri oldu. Bəzən bir elmi məqalə, bəzən tarixi şəxsiyyət haqqında yazılmış publisistik yazı, bəzən də ədəbi əsər milli yaddaşın qorunmasına xidmət edirdi. Siyasi sərhədlər dəyişə bilərdi, milli kimlik söz vasitəsilə yaşamağa davam edirdi.

1988-ci ildən etibarən Azərbaycan xalqının milli azadlıq hərəkatı yeni mərhələyə daxil oldu. Meydanlarda səslənən çağırışlar qəzet səhifələrinə, qəzet səhifələrində yazılan fikirlər isə cəmiyyətin ümumi mövqeyinə çevrilirdi. Həmin dövr informasiya üzərində nəzarətin siyasi hakimiyyət üçün nə qədər mühüm əhəmiyyət daşıdığını bir daha göstərdi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun Bakıya yeridilməsi hərbi əməliyyat olmaqla yanaşı, genişmiqyaslı informasiya əməliyyatı ilə müşayiət olundu. Faciədən bir neçə saat əvvəl Azərbaycan Televiziyasının enerji blokunun partladılması təsadüfi addım deyildi. Respublika əhalisini informasiya mənbəyindən ayırmaq, baş verən hadisələr haqqında operativ məlumatın yayılmasına imkan verməmək planın əsas hissələrindən biri idi. Həmin gecə insanlar xəbəri radio dalğalarından, bir-birinə ötürülən məlumatlardan və xarici radiostansiyalardan almağa çalışırdı. İnformasiya üzərində nəzarət silahlı müdaxilənin ayrılmaz hissəsinə çevrilmişdi. Belə mürəkkəb şəraitdə Ümummilli Lider Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində keçirdiyi mətbuat konfransı müasir siyasi tariximizin dönüş nöqtələrindən biri oldu. Sovet İttifaqının hələ mövcud olduğu, ciddi siyasi təzyiqlərin davam etdiyi bir vaxtda SSRİ rəhbərliyinin hərəkətlərini açıq şəkildə qanunsuz və cinayət kimi qiymətləndirmək böyük siyasi iradə tələb edirdi. Həmin çıxış dünya informasiya agentlikləri tərəfindən geniş yayıldı və Azərbaycan xalqına qarşı törədilmiş faciənin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı. O gün təkcə siyasi bəyanat səslənmədi. Dövlət xadiminin qətiyyətli mövqeyi informasiya blokadasını yararaq həqiqətin beynəlxalq hüquq müstəvisinə çıxmasına yol açdı.

Tarix göstərir ki, bəzən bir çıxış ordunun əldə edə bilmədiyi nəticəni təmin edir. 1990-cı il yanvarın 21-də Moskvada baş verən hadisə də bunun parlaq nümunələrindən biri idi. Həqiqət siyasi iradə ilə ifadə olunanda informasiya ən güclü müdafiə vasitəsinə çevrilir. Azərbaycanın müstəqillik tarixi həmin gün sözün dövlətçilik qarşısındakı məsuliyyətini bütün aydınlığı ilə nümayiş etdirdi.



1990-cı illərin əvvəllərində Azərbaycan müstəqilliyini bərpa etsə də, dövlət quruculuğu son dərəcə mürəkkəb şəraitdə aparılırdı. Xarici hərbi təcavüz, iqtisadi böhran, siyasi qarşıdurmalar və hakimiyyət uğrunda mübarizə ölkənin gələcəyini ciddi təhlükə qarşısında qoymuşdu. Həmin dövrdə informasiya məkanı da siyasi mübarizənin əsas istiqamətlərindən birinə çevrildi. Ayrı-ayrı mətbuat orqanları müxtəlif siyasi qrupların təsiri altında fəaliyyət göstərir, cəmiyyətə təqdim olunan məlumatlar çox vaxt emosiyalar üzərində qurulur, faktla mövqe arasındakı sərhəd sürətlə aradan qalxırdı. İnformasiyanın cəmiyyətə təsiri barədə dünya tarixinin verdiyi dərslər Azərbaycanda da özünü göstərirdi.

1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri dövlətçiliyin yalnız silahlı müdaxilə ilə deyil, informasiya müstəvisində də ciddi sınaqlarla üzləşdiyini nümayiş etdirdi. Həmin günlərdə bəzi media qurumları və informasiya platformaları siyasi qarşıdurmanın iştirakçısına çevrilərək cəmiyyətdə gərginliyin artmasına xidmət edən mövqelər sərgiləyirdilər. Dövlət çevrilişi cəhdlərinin uğur qazanması üçün ilk növbədə ictimai rəyin parçalanmasına ehtiyac duyulurdu. Tarixi təcrübə dəfələrlə göstərib ki, cəmiyyətin inamı sarsıldıqda dövlət institutları daha böyük təzyiqlə üzləşir. Məhz buna görə informasiya təhlükəsizliyi dövlət təhlükəsizliyinin ayrılmaz hissəsi hesab olunur.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlət idarəçiliyində olduğu kimi, media sahəsində də sistemli yanaşma formalaşdı. Onun siyasi baxışında mətbuat dövlətin rəqibi kimi yox, ictimai nəzarətin və sağlam dialoqun mühüm vasitəsi kimi qəbul edilirdi. Hüquqi islahatlar mərhələli şəkildə həyata keçirilir, söz və mətbuat azadlığının təmin olunması istiqamətində ardıcıl qərarlar qəbul edilirdi. 1998-ci il avqustun 6-da senzuranın ləğvi haqqında fərmanın imzalanması Azərbaycanın müasir media tarixinin ən mühüm hadisələrindən biri oldu. Bu qərar yalnız hüquqi sənəd deyildi, həm də dövlətin azad sözə güvənən siyasi iradəsinin ifadəsi idi.

Heydər Əliyev müxtəlif çıxışlarında mətbuatın cəmiyyət qarşısında məsuliyyətini xüsusi vurğulayırdı. Onun fikrincə, mətbuat azadlığı dövlətin demokratik inkişafının vacib şərtidir, jurnalistin peşəkarlığı isə həmin azadlığın ən böyük təminatıdır. Bu yanaşma həm hüquqi islahatlarda, həm də media ilə dövlət arasında formalaşan münasibətlərdə öz əksini tapdı.

Mətbuatın azadlığı hüquqi anlayışdır. Onun cəmiyyətə verdiyi faydanı müəyyən edən isə peşə məsuliyyətidir. Azad mətbuatla məsuliyyətsiz mətbuat arasında sərhəd hüquqi normalarla yanaşı, müəllif vicdanı ilə də müəyyən olunur. Dövlət idarəçiliyində mövcud problemlərin araşdırılması, ictimai nəzarətin həyata keçirilməsi və tənqidi fikrin səsləndirilməsi jurnalistikanın inkişafını təmin edən başlıca amillərdəndir. Eyni zamanda milli maraqlara qarşı aparılan informasiya kampaniyalarının təsir dairəsinə daxil olmaq, xaricdə hazırlanmış siyasi tezisləri araşdırmadan cəmiyyətə təqdim etmək və dövlətçiliyə qarşı yönəlmiş çağırışların informasiya daşıyıcısına çevrilmək peşə məsuliyyəti ilə uyğunluq təşkil etmir.

Bu kontekstdə "sapı özümüzdən olan baltalar"ın məkrli dezinformasiya kampaniyaları xüsusilə diqqəti cəlb edir. Antiazərbaycançı şəbəkənin "marioneti" olan, xarici ölkələrdə dünya erməniliyinin himayəsinə sığınan bir ovuc "bloqçu-jurnalistin" məlum destruktivlikləri yalnız millət və dövlət əleyhinə qərəzli fəaliyyət deyil, həm də beynəlxalq jurnalistikanın təməl prinsiplərinə, müasir dəyərlərinə, strateji çağırışlarına tamamilə ziddir. Sevindirici haldır ki, bu kimi bədnam kampaniyalar ictimai rəydə planlaşdırılan təsiri əsla yaratmır. Vətəndaşlarımızın yüksələn ictimai şüuru verilən informasiyanın dəqiqliyini, mötəbərliyini ayırd etmək səviyyəsinə çatdığından, belə qarayaxmalar cəmiyyətdə mənəvi bütövlüyü də əsla zədələyə bilmir.

Tarix bir həqiqəti dəfələrlə təsdiqləyib: xarici qüvvələr hər zaman daxildə özünə dayaq axtarır. İnformasiya müharibələri də bu qanunauyğunluqdan kənarda qalmır. Dövlətçiliyə münasibət siyasi baxışdan daha geniş anlayışdır. Müxtəlif fikirlər, fərqli mövqelər və müxtəlif siyasi yanaşmalar demokratik inkişafın təbii tərkib hissəsidir. Milli maraqlar isə həmin müxtəlifliyi birləşdirən ümumi dəyərdir. Mətbuatın böyüklüyü də məhz bu dəyəri qorumaq bacarığında özünü göstərir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə milli media yeni geosiyasi reallıqların və rəqəmsal dövrün tələblərinə uyğun inkişaf istiqaməti qazandı. İnformasiya təhlükəsizliyi dövlət siyasətinin mühüm komponentlərindən birinə çevrildi. Medianın İnkişafı Agentliyinin yaradılması, "Media haqqında" qanunun qəbul edilməsi, jurnalist peşəkarlığının yüksəldilməsi, media subyektlərinin iqtisadi dayanıqlılığının gücləndirilməsi və rəqəmsal transformasiya istiqamətində həyata keçirilən tədbirlər bu sahədə sistemli yanaşmanın göstəricisidir. Söhbət yalnız qanunvericiliyin yenilənməsindən getmirdi. Məqsəd sürətlə dəyişən informasiya mühitində milli medianın rəqabət qabiliyyətini artırmaq, peşə standartlarını möhkəmləndirmək və ictimai etimadı gücləndirmək idi.

Müasir dövrdə dövlət başçılarının fəaliyyəti təkcə qəbul etdikləri qərarlarla qiymətləndirilmir. Həmin qərarların beynəlxalq ictimaiyyətə necə çatdırılması da siyasi liderliyin mühüm meyarlarından biri hesab olunur. Prezident İlham Əliyevin dünyanın aparıcı televiziya kanallarına, informasiya agentliklərinə və nüfuzlu qəzetlərinə verdiyi çoxsaylı müsahibələr bu baxımdan ayrıca təhlil mövzusudur. CNN, BBC, "France 24", "Euronews", CGTN, Nikkei, "El Pais", TASS, RİA Novosti, Anadolu Agentliyi və digər media qurumları ilə açıq dialoqlar zamanı Azərbaycanın mövqeyi emosiyalarla deyil, beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, tarixi sənədlərə və faktlara əsaslanan arqumentlərlə təqdim olunurdu. İnformasiya diplomatiyası anlayışı da məhz belə formalaşır.

2020-ci il Vətən müharibəsi informasiya məkanının strateji əhəmiyyətini bütün dünyaya bir daha göstərdi. Döyüş meydanında gedən mübarizə ilə informasiya cəbhəsində aparılan fəaliyyət vahid strategiyanın tərkib hissəsi idi. Ermənistan uzun illər ərzində formalaşdırmağa çalışdığı təbliğat modelini davam etdirir, müxtəlif xarici media resurslarında Azərbaycanın mövqeyini kölgədə saxlamağa cəhd göstərirdi. Azərbaycan isə tamamilə fərqli yol seçdi. Rəsmi məlumatların operativ təqdim olunması, hərbi əməliyyatların gedişi barədə dəqiq informasiyanın verilməsi, saxta xəbərlərin dərhal təkzib edilməsi və Prezident İlham Əliyevin müharibə dövründə xarici jurnalistlərə verdiyi ardıcıl müsahibələr beynəlxalq informasiya məkanında yeni reallıq formalaşdırdı.

Bu müsahibələrin hər biri ayrıca diplomatik hadisə idi. Çünki qarşı tərəfin illərlə formalaşdırdığı stereotiplər ilk dəfə açıq debat şəraitində hüquqi arqumentlərlə cavablandırılırdı. Müharibə başa çatdıqdan sonra dünyanın bir çox analitik mərkəzi informasiya cəbhəsində Azərbaycanın üstünlüyünü ayrıca təhlil etməyə başladı. Bu nəticə təsadüfi deyildi. Həqiqətin sistemli şəkildə təqdim olunması uzunmüddətli dövlət siyasətinin məntiqi nəticəsi idi.

Müharibədən sonra informasiya məkanının gündəliyi dəyişdi. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma layihələri, "Böyük qayıdış" proqramının icrası, dağıdılmış şəhərlərin və kəndlərin bərpası, tarixi-mədəni irsin dirçəldilməsi dünya mediasının diqqət mərkəzinə çevrildi. Ağdam, Füzuli, Zəngilan, Laçın, Kəlbəcər və Şuşada həyata keçirilən layihələr haqqında hazırlanmış reportajlar Azərbaycanın postmünaqişə dövründə nümayiş etdirdiyi inkişaf modelini beynəlxalq auditoriyaya çatdırdı. Bu istiqamətdə Şuşa Qlobal Media Forumu xüsusi əhəmiyyət daşıyır. Forum müxtəlif ölkələrdən media rəhbərlərini, jurnalistləri, ekspertləri və tədqiqatçıları bir araya gətirərək informasiya təhlükəsizliyi, süni manipulyasiya texnologiyaları, media etikası və beynəlxalq əməkdaşlıq məsələlərini müzakirə edən nüfuzlu platformaya çevrilib. Azərbaycanın mədəniyyət paytaxtında keçirilən belə forumlar həm tarixi ədalətin bərpasını, həm də ölkəmizin beynəlxalq informasiya gündəliyinin formalaşmasında fəal iştirakını nümayiş etdirir. Bu, informasiya siyasətinə strateji baxışın ifadəsidir.

Azərbaycan milli mətbuatının qarşısında dayanan strateji vəzifələr zaman keçdikcə yeni məzmun qazanır. Qarabağ məsələsində əldə olunan tarixi Zəfər informasiya siyasətinin qarşısında yeni istiqamətlər açdı. Bu gün həmin istiqamətlərin ən mühümlərindən biri Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə ardıcıl, elmi əsaslarla və hüquqi arqumentlərlə çatdırılmasıdır. Uzun illər doğma yurdlarından məcburi çıxarılan yüz minlərlə azərbaycanlının taleyi yalnız humanitar problem kimi qiymətləndirilə bilməz. Bu məsələ insan hüquqları, beynəlxalq hüquq, tarixi ədalət və mədəni irsin qorunması ilə birbaşa bağlıdır. Milli media bu həqiqətləri arxiv sənədləri, tarixi xəritələr, beynəlxalq müqavilələr, məhkəmə presedentləri və elmi araşdırmalar üzərində qurulan arqumentlərlə təqdim etdikcə Azərbaycanın mövqeyi daha inandırıcı görünür.

İnformasiya əsrində həqiqətin müdafiəsi yeni məsuliyyət anlayışı formalaşdırıb. Sürətlə yayılan xəbər hər zaman həqiqət anlamına gəlmir. Məlumatın dəyərini onun yayılma sürəti yox, etibarlılığı müəyyən edir. Mətbuatın nüfuzu da məhz burada yaranır. Oxucu hər gün yeni xəbər oxuyur, lakin etibar etdiyi müəllifi uzun illər ərzində seçir. Bu etibar peşəkarlığın, vicdanın və prinsipial mövqenin nəticəsidir. Jurnalistin əsas kapitalı çalışdığı redaksiya və ya istifadə etdiyi texnologiya yox, qazandığı ictimai inamdır.

Qlobal informasiya məkanında müşahidə olunan proseslər yeni təhlükələri də üzə çıxarır. Rəqəmsal platformalar vasitəsilə hazırlanan manipulyativ məlumatlar, məqsədli dezinformasiya kampaniyaları, saxta vizual materiallar və koordinasiya olunmuş informasiya hücumları dövlətlərin milli təhlükəsizlik gündəliyində mühüm yer tutur. Belə şəraitdə peşəkar jurnalistikanın dəyəri daha da artır. Faktın yoxlanılması, mənbənin dəqiqliyi, hüquqi məsuliyyət və etik prinsiplər milli medianın gücünü müəyyən edən əsas meyarlardır.

Yuxarıda vurğuladığımız kimi, xaricdən təzyiq etmək istəyənlər hər zaman daxildə özünə dayaq axtarır. İnformasiya müharibələri də bu qayda ilə aparılır. Dövlətçiliyə münasibətdə şəxsi ambisiyalar, qısamüddətli siyasi maraqlar və kənardan yönləndirilən təsirlər milli maraqların önünə keçəndə cəmiyyət bütövlüyünü itirməyə başlayır. Bu səbəbdən mətbuatın azadlığı ilə məsuliyyəti eyni dərəcədə əhəmiyyət daşıyır. Mətbuatın azadlığı qanunla qorunur, nüfuzu isə vicdanla qazanılır. Vicdanın istiqamət verdiyi qələm cəmiyyətə inam gətirir, milli həmrəyliyi möhkəmləndirir və dövlətçiliyin dayaqlarını gücləndirir.

Azərbaycan milli mətbuatının 151 illik tarixi Həsən bəy Zərdabinin maarifçilik ideyalarından başlayaraq Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi media siyasətinə, Prezident İlham Əliyevin formalaşdırdığı müasir informasiya diplomatiyasına qədər vahid inkişaf xətti təşkil edir. Dövrlər dəyişib, texnologiyalar yenilənib, informasiya vasitələri fərqli məzmun qazanıb. Dəyişməyən bir dəyər var: milli maraqlara sədaqət. Məhz bu dəyər Azərbaycan jurnalistikasını 151 il ərzində yaşadıb, inkişaf etdirib və yeni tarixi vəzifələr qarşısında daha da məsuliyyətli edib.

Bu gün milli mətbuat qarşısında duran məqsəd Azərbaycan haqqında həqiqətləri elmi əsaslarla dünyaya çatdırmaq, dövlətçilik düşüncəsini möhkəmləndirmək, milli maraqlarımızı hüquqi arqumentlərlə müdafiə etmək, gənc nəslin informasiya mədəniyyətini formalaşdırmaq və cəmiyyətin intellektual inkişafına töhfə verməkdir. Güclü media güclü dövlətin nəticəsi olmaqla yanaşı, onun gələcəyini formalaşdıran əsas amillərdən biridir.

*Milli Mətbuat Günü münasibətilə bütün jurnalistləri, publisistləri, redaktorları, media tədqiqatçılarını və bu məsuliyyətli peşəyə ömrünü həsr etmiş hər kəsi səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, tükənməz yaradıcılıq enerjisi, peşə uğurları və yeni nailiyyətlər arzulayırıq. Azərbaycan milli mətbuatı bundan sonra da Həsən bəy Zərdabinin yandırdığı maarifçilik çırağını daha da gur yandıracaq, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik prinsiplərinə sadiq qalacaq, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı uğurların, Qarabağ Zəfərinin, Qərbi Azərbaycan həqiqətlərinin və milli maraqlarımızın beynəlxalq informasiya məkanında layiqincə təqdim olunmasına öz sanballı töhfəsini verəcək.*

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Azərbaycanın diplomatik coğrafiyası sərhəd tanımır



**Hələ başa çatmasa da, indidən demək olar ki, iyul ayı Azərbaycanın xarici siyasətində mühüm diplomatik hadisələrlə yadda qaldı. Slovakiya Prezidenti Peter Pelleqrininin ölkəmizə rəsmi səfəri, Prezident İlham Əliyevin İrlandiya, Braziliya, Kamboca dövlətlərinin və Oman Sultanlığının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul etməsi beynəlxalq əlaqələrimizin coğrafiyasının genişliyini nümayiş etdirir.**

İlk baxışdan bunlar ayrı-ayrı diplomatik tədbirlər olsa da, əslində, vahid siyasi məntiqin - xarici siyasətin tərkib hissəsidir. Bu hadisələr Azərbaycanın artıq yalnız regionun deyil, müxtəlif qitələri və siyasi mərkəzləri birləşdirən etibarlı tərəfdaş kimi qəbul olunduğunu göstərir. Avropa İttifaqının üzvü olan Slovakiya və İrlandiya, Latın Amerikasının aparıcı dövləti Braziliya, Cənub-Şərqi Asiyanın perspektivli ölkəsi Kamboca və Körfəz regionunun nüfuzlu dövlətlərindən olan Omanla münasibətlərin inkişaf etməsi Azərbaycanın çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursunun uğurunu təsdiqləyir.

Bu gün Azərbaycan beynəlxalq münasibətlər sistemində enerji ixracatçısı olmaqla yanaşı, həm də regional təhlükəsizliyin təmin edilməsinə töhfə verən, Avropa ilə Asiyanı birləşdirən əsas nəqliyyat qovşaqlarından biri, "yaşıl enerji" gündəliyinin fəal iştirakçısı və Qlobal Cənubla Qərb arasında etibarlı dialoq platforması kimi çıxış edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin əsas xüsusiyyəti də məhz milli maraqların prioritet tutulması, ideoloji bloklaşmalardan uzaq dayanaraq bütün tərəfdaşlarla qarşılıqlı hörmət və faydaya əsaslanan münasibətlərin qurulmasıdır.

### Şuşadan başlanan strateji tərəfdaşlıq

Son illər dünyada geosiyasi qarşıdurmaların dərinləşdiyi, yeni iqtisadi blokların formalaşdığı və beynəlxalq münasibətlər sisteminin dəyişdiyi bir dövrdə Azərbaycanın xarici siyasəti öz sabitliyi ilə seçilir. Azərbaycan nə Qərblə münasibətlərini zəiflədir, nə də Şərqlə əməkdaşlığını məhdudlaşdırır. Əksinə, ölkəmiz Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Mərkəzi Asiya ölkələri, Körfəz dövlətləri və Latın Amerikası ilə paralel şəkildə qarşılıqlı əlaqələri inkişaf etdirir.

Bu siyasətin əsas məqsədi Azərbaycanın iqtisadi və siyasi maraqlarının beynəlxalq arenada maksimum təmin olunmasıdır. Son illər enerji diplomatiyasının nəqliyyat, logistika, rəqəmsal transformasiya, "yaşıl enerji", humanitar əməkdaşlıq və investisiya diplomatiyası ilə tamamlanması ölkəmizin beynəlxalq çəkisini daha da artırıb. Bu diplomatik fəallığın ən diqqətçəkən hadisələrindən biri Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana rəsmi səfəri oldu. Səfərin Bakıda deyil, Şuşada başlaması təsadüfi seçim deyildi. Şuşa tarixi Zəfərimizin rəmzi, Azərbaycanın mədəniyyət paytaxtı, eyni zamanda ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş ölkəmizin yeni inkişaf mərhələsinin və Qarabağın dirçəlişinin əsas simvoludur. Xarici dövlət başçısının burada rəsmi qarşılanması Azərbaycanın yaratdığı yeni geosiyasi reallığın beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilməsinin növbəti nümunəsi idi.

Azərbaycan-Slovakiya münasibətləri hər iki ölkə üçün mühüm əhəmiyyət daşıyır. Xüsusən son üç ildə bu münasibətlər sürətli inkişaf yolu keçib. 2024-cü ildə Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması, 2025-ci ildə Prezident İlham Əliyevin Bratislavaya ilk rəsmi səfəri və nəhayət, Slovakiya Prezidentinin Azərbaycana səfəri iki ölkə arasında münasibətlərin artıq tamamilə yeni mərhələyə yüksəldiyini göstərir.

Bakı-Bratislava əməkdaşlığı yalnız siyasi dialoqla məhdudlaşmır. Ölkələrimiz arasında energetika, müdafiə sənayesi, nəqliyyat, sənaye kooperasiyası, turizm, təhsil və investisiyalar üzrə geniş perspektivlər formalaşıb. Qarabağın bərpasında Slovakiyanın iştirak etməsi isə münasibətlərə xüsusi məna qazandırır - Ağdam rayonunun Baş Qərvənd kəndində Slovakiyanın maliyyə dəstəyi ilə müasir məktəbin inşasına başlanılması iki ölkə arasında əməkdaşlığın humanitar ölçüsünü nümayiş etdirir. Bu layihə təhsil infrastrukturu olmaqla yanaşı, həm də iki xalq arasında uzunmüddətli dostluq münasibətlərinin formalaşmasına xidmət göstərir.

Bu, həm də ona dəlalət edir ki, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri Azərbaycanın xarici siyasətində yeni əməkdaşlıq istiqaməti formalaşdırıb. Bu gün müxtəlif dövlətlər Qarabağda məktəblərin, xəstəxanaların, digər sosial obyektlərin tikintisində, enerji layihələrində və infrastrukturun yaradılmasında iştiraka maraq göstərirlər. Slovakiyanın Ağdamda məktəb tikməsi bunun ən uğurlu nümunələrindəndir. Bu cür layihələr göstərir ki, Qarabağın dirçəlişi artıq beynəlxalq əməkdaşlığın mühüm hissəsinə çevrilməkdədir.

Azərbaycanla Slovakiyanın energetika istiqamətində əməkdaşlığı da strateji əhəmiyyət daşıyır. Slovakiya Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində ölkəmizi etibarlı tərəfdaş hesab edir. Azərbaycan qazının Slovakiyaya çatdırılması və gələcəkdə bu əməkdaşlığın genişləndirilməsi Avropanın enerji xəritəsində ölkəmizin rolunu daha da artırır.

### İnnovasiya və yüksək texnologiyalar istiqaməti

Prezident İlham Əliyevin İrlandiyanın yeni səfirinin etimadnaməsini qəbul etməsi protokol qaydası sayılsa da, Azərbaycanın Avropa siyasətinin müvafiq istiqamətlərindən biri kimi nəzərdən keçirilməlidir. İrlandiya Avropanın ən innovativ iqtisadiyyatlarından sayılır. Dünyanın aparıcı texnologiya şirkətlərinin Avropa qərargahlarının məhz bu ölkədə yerləşməsi təsadüfi deyil. İnformasiya texnologiyaları, rəqəmsal iqtisadiyyat, süni intellekt, təhsil və innovasiya sahələrində İrlandiyanın təcrübəsi dövlətimiz üçün xüsusi maraq doğurur.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi strategiyası qeyri-neft sektorunun inkişafını prioritet hesab edir. Bu baxımdan İrlandiya ilə əməkdaşlıq yüksək texnologiyalar, startap ekosistemi, universitetlərarası əlaqələr və rəqəmsal transformasiya istiqamətlərində yeni imkanlar yarada bilər. Bundan başqa, İrlandiya Avropa İttifaqının nüfuzlu üzvlərindən biri kimi Azərbaycan-Avropa əlaqələrinin inkişafında da mühüm tərəfdaş hesab olunur.

Bu baxımdan Braziliyanın ölkəmizə yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbul edilməsi də Azərbaycanın digər coğrafiya - Latın Amerikası siyasətinin inkişaf etdiyini göstərir. Braziliya dünyanın böyük iqtisadiyyatlarından sayılır. BRICS-nin aparıcı üzvü olan bu ölkə həm iqtisadi potensialı, həm də beynəlxalq təşkilatlardakı nüfuzu ilə seçilir. Azərbaycanın son illərdə Qlobal Cənub ölkələri ilə əməkdaşlığı xarici siyasətin əsas istiqamətlərindən birinə çevrilib. Qoşulmama Hərəkatına uğurlu sədrliyi, COP29-a evsahibliyi etməsi və inkişaf etməkdə olan dövlətlərin maraqlarını beynəlxalq platformalarda müdafiə etməsi ölkəmizin bu istiqamətdə nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Braziliya ilə kənd təsərrüfatı, "yaşıl enerji", bioyanacaq texnologiyaları, ərzaq təhlükəsizliyi, sənaye və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial mövcuddur və hazırda bu imkanlardan istifadəyə yönəlmiş ardıcıl addımlar atılır.

Prezident İlham Əliyev Kambocanın ölkəmizə yeni təyin olunmuş səfirinin də etimadnaməsini qəbul etdi. Bu fakt Azərbaycanın Asiya istiqamətində də diplomatik fəaliyyətinin uğurla davam etdiyini göstərir. Cənub-Şərqi Asiya regionu dünya iqtisadiyyatının sürətlə inkişaf edən regionlarındandır. ASEAN ölkələrinin iqtisadi potensialı və artan ticarət imkanları Azərbaycan üçün yeni bazarlar açır. Orta dəhlizin inkişafı fonunda Azərbaycan Cənub-Şərqi Asiya ilə Avropa arasında yükdaşımaların əsas logistika mərkəzlərindən birinə çevrilir. Kamboca ilə siyasi münasibətlərin inkişafı isə gələcək iqtisadi əməkdaşlığın möhkəm əsasını yaradır.

Oman Sultanlığı ilə münasibətlər də son illər dinamik inkişaf etməkdədir. Körfəz regionu dünyanın ən böyük investisiya mənbələrindən biri hesab olunur və Oman bu regionda sabit və balanslaşdırılmış xarici siyasəti ilə seçilir. Azərbaycan üçün Omanla əməkdaşlığın əsas istiqamətləri enerji, "yaşıl enerji" layihələri, liman infrastrukturu, logistika, turizm, kənd təsərrüfatı və investisiyalardır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və Orta dəhliz layihəsi Oman investorları üçün də cəlbedici imkanlar yaradır.

### Etibarlı siyasi tərəfdaşlıq, səmərəli iqtisadi əməkdaşlıq

Müasir dövrdə diplomatiyanın əsas məqsədlərindən biri iqtisadi inkişaf üçün yeni imkanlar yaratmaqdır. Azərbaycan da məhz bu modeli tətbiq edir. Xarici siyasət artıq yalnız siyasi dialoqla məhdudlaşmır. Hər bir dövlət səfəri, hər bir yüksəksəviyyəli görüş və hər bir diplomatik əlaqə yeni investisiyalar, ticarət dövriyyəsinin artması, texnologiya transferi, sənaye əməkdaşlığı və yeni bazarlara çıxış fürsətləri deməkdir. Azərbaycanın enerji resursları ilə yanaşı, nəqliyyat imkanları, logistika infrastrukturu, rəqəmsal inkişaf proqramları və "yaşıl enerji" layihələri xarici tərəfdaşların ölkəmizə marağını artırır.

İyul ayına təsadüf edən diplomatik faktlar bir daha təsdiqləyir ki, Azərbaycan beynəlxalq münasibətlər sistemində artıq tamamilə yeni mövqeyə yüksəlib. Bu gün ölkəmiz Avropa ilə Asiyanı, Şimalla Cənubu birləşdirən əsas nəqliyyat qovşaqlarındandır. Enerji təhlükəsizliyi, "yaşıl enerji", logistika, rəqəmsal iqtisadiyyat və beynəlxalq dialoq sahələrində Azərbaycanın rolu ildən-ilə artır.

Slovakiya Prezidentinin Şuşadan başlayan səfəri, İrlandiya, Braziliya, Kamboca və Omanın yeni səfirlərinin etimadnamələrinin qəbul edilməsi eyni strateji xəttin tərkib hissələridir. Bu xətt Azərbaycanın dünyanın müxtəlif regionları ilə qarşılıqlı etimada əsaslanan, praqmatik və uzunmüddətli əməkdaşlıq siyasətini uğurla davam etdirdiyini göstərir.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin nəticəsi olaraq Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti kimi Avropa, Asiya, Yaxın Şərq və Latın Amerikasını əhatə edən geniş diplomatik coğrafiyada etibarlı tərəfdaşdır. Müxtəlif siyasi sistemlərə və iqtisadi modellərə malik dövlətlərlə eyni vaxtda səmərəli münasibətlər qurmaq bacarığı Azərbaycanın beynəlxalq nüfuzunun artmasının ən mühüm göstəricilərindən sayılmalıdır. Məhz buna görə Bakıda keçirilən hər bir yüksəksəviyyəli görüş, təqdim olunan hər bir etimadnamə və imzalanan hər bir sənəd diplomatik protokol hadisəsi olmaqdan çox, Azərbaycanın qlobal əməkdaşlıq şəbəkəsinin daha da genişlənməsinə xidmət edən mühüm siyasi hadisə mahiyyəti daşıyır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Bakı-Berlin münasibətləri yeni mərhələyə qədəm qoyur

**Qlobal siyasi və iqtisadi nizamın yenidən formalaşdığı, beynəlxalq münasibətlər sisteminin ciddi sınaqlarla üzləşdiyi müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya planlaşdırılan rəsmi səfəri müstəsna əhəmiyyət kəsb edir.**





Bu diplomatik addım, sadəcə, ikitərəfli təmasların davamı olmaqla məhdudlaşmır, həm də qlobal böhranlar, logistik qırılmalar və kəskinləşən enerji təhlükəsizliyi çağırışları fonunda Avropanın Cənubi Qafqaz regionuna yönəlik baxışındakı köklü geosiyasi transformasiyanın bariz təzahürüdür. Avropanın aparıcı sənaye lokomotivi olan Almaniya ilə regional güc mərkəzi olan Azərbaycan arasındakı yüksəksəviyyəli dialoq tərəfdaşlıq münasibətlərini keyfiyyətcə daha dayanıqlı və strateji bir mərhələyə yüksəldir.

İki ölkə arasında formalaşan müsbət dinamika təsadüfi xarakter daşımır və son illərdə intensivləşən qarşılıqlı səfərlərlə daha da möhkəmlənir. Dövlətimizin başçısının 2024-cü ilin aprelində Almaniyaya uğurlu səfəri, həmçinin ənənəvi olaraq Münxen Təhlükəsizlik Konfransında fəal iştirakı yüksəksəviyyəli siyasi dialoqun daimi və dayanıqlı olduğunu göstərir.

Bununla yanaşı, Almaniya Federal Prezidenti Frank-Valter Ştaynmayerin 2025-ci ilin aprelində Bakıya rəsmi səfəri və eləcə də Federal Kansler Fridrix Mertsin 2025-ci ilin dekabrında Prezident İlham Əliyevlə telefon danışığı zamanı dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət etməsi Berlinin regional sabitlikdə Bakını əvəzedilməz aktor kimi qəbul etdiyini təsdiqləyir.

Postpandemiya dövrü, Rusiya-Ukrayna müharibəsi və Yaxın Şərqdə alovlanan gərginliklər ənənəvi təhlükəsizlik və təchizat modellərini iflasa uğradıb. Enerji sahəsində birtərəfli asılılıqlardan qurtulmağa və resurslarını şaxələndirməyə çalışan Avropa İttifaqı üçün Cənubi Qafqaz qlobal təchizat zəncirinin strateji qovşağına çevrilib. Bu çərçivədə 2022-ci ildə Azərbaycan ilə Avropa Komissiyası arasında imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu münasibətlərin transformasiyasında mühüm dönüş nöqtəsi oldu.

Hazırda Azərbaycan Avropanın 10-u ittifaq üzvü olmaqla ümumilikdə 16 ölkəsinə mavi yanacaq ixrac edir. Tədarük həcminin qısa müddətdə 8 milyard kubmetrdən 13 milyard kubmetrə çatdırılması və 2027-ci ilə qədər bu göstəricinin ən azı 20 milyard kubmetrə çatdırılması hədəfi Azərbaycanın qitənin enerji arxitekturasındakı yerini möhkəmləndirir. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Almaniyanın "Uniper" şirkəti ilə 2045-ci ilə qədər nəzərdə tutulan uzunmüddətli qaz tədarükü müqaviləsi və "SEFE" (Securing Energy for Europe) şirkəti ilə formalaşdırılan işgüzar bağlar Berlinin enerji təhlükəsizliyinin təmin olunmasında və "Cənub qaz dəhlizi"nin Avropa bazarında sabit mənbəyə çevrilməsində mühüm rol oynayır.

Bakı-Berlin münasibətlərinin ən güclü təməllərindən birini iqtisadi-ticari əlaqələr təşkil edir. Almaniya Azərbaycanın Avropa İttifaqı məkanında ən mühüm ticarət tərəfdaşlarından biridir. Ölkəmizdə cənub və qərb regionlarının sənaye potensialının artırılmasında, infrastrukturun müasirləşdirilməsində alman texnologiyaları və avadanlıqları geniş tətbiq olunur. Hazırda Azərbaycanda sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı və xidmət sahələrində yüzlərlə alman kapitallı şirkət uğurla fəaliyyət göstərir. Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən irimiqyaslı bərpa-quruculuq işlərində, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılmasında alman şirkətlərinin layihələndirmə və alternativ enerji sahəsindəki təcrübəsinə böyük önəm verilir. Alman investorlarının bu ərazilərə artan marağı iqtisadi əməkdaşlığın gələcək miqyasını daha da genişləndirir.

Yeni dövrün çağırışlarına uyğun olaraq, Azərbaycan ilə Almaniya arasında əməkdaşlıq təkcə ənənəvi karbohidrogen resursları ilə məhdudlaşmır, həm də "yaşıl enerji" və iqlim dəyişikliyi ilə mübarizə sahələrini əhatə edir. Almaniya bərpaolunan enerji texnologiyaları sahəsində dünya liderlərindən biridir. Azərbaycanın Xəzər dənizində və işğaldan azad edilmiş ərazilərdə malik olduğu nəhəng külək və günəş enerjisi potensialı alman şirkətləri üçün cəlbedici investisiya imkanları vəd edir. Bakı və Berlin "yaşıl hidrogen" istehsalı və onun gələcəkdə Avropa bazarlarına ixracı istiqamətində birgə layihələrin həyata keçirilməsini, həmçinin "Berlin İqlim Keçidi Dialoqu" çərçivəsində əlaqələrin gücləndirilməsini hədəfləyir.

Müasir geosiyasətdə boru kəmərləri qədər nəqliyyat dəhlizləri, dəniz limanları, dəmir yolları və rəqəmsal kommunikasiya xətləri də dövlətlərin geoiqtisadi gücünü müəyyən edən əsas amillərə çevrilib. Almaniya kimi ölkənin ixracyönümlü və nəhəng istehsal potensialına malik bir iqtisadiyyat üçün təchizat zəncirlərinin təhlükəsizliyi və diversifikasiyası həyati əhəmiyyət daşıyır. Bu kontekstdə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) Almaniya sənayesinə Mərkəzi Asiya və Uzaq Şərq bazarlarına daha təhlükəsiz, qısa və rentabelli çıxış imkanı yaradır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və logistik mərkəzləri ilə Azərbaycan bu nəhəng coğrafiyada Asiya ilə Avropanı birləşdirən ən etibarlı qovşaq rolunu oynayır.

İkitərəfli münasibətlərin humanitar ölçüsü də kifayət qədər zəngindir. İki xalq arasında mədəni bağların tarixi XIX əsrə, almanların Azərbaycana köçürülməsi və buradakı zəngin memarlıq, şərabçılıq və mədəni irs dövrünə təsadüf edir. Bu gün həmin tarixi irs Azərbaycanda böyük diqqət və qayğı ilə qorunur.

Təhsil və elm sahəsində Alman Akademik Mübadilə Xidməti (DAAD) və Höte İnstitutu kimi qurumların xətti ilə həyata keçirilən layihələr, yüzlərlə azərbaycanlı gəncin Almaniyanın qabaqcıl universitetlərində təhsil alması ölkələrimiz arasında intellektual körpülər qurur. Eyni zamanda peşə təhsili sahəsində Almaniyanın dual təhsil modelinin Azərbaycanda tətbiq olunması istiqamətində atılan addımlar ölkəmizdə yüksəkixtisaslı kadrların hazırlanmasına mühüm töhfə verir.

Beləliklə, Prezident İlham Əliyevin Almaniyaya səfəri həm keçmişin zəngin tarixi irsinə və qarşılıqlı etimada əsaslanır, həm də gələcəyin qlobal çağırışlarına verilən ortaq, rasional və strateji cavabdır. Bakı və Berlin arasında qurulan bu çoxtərəfli strateji körpü bütövlükdə Avrasiya coğrafiyasının enerji təhlükəsizliyinə, dayanıqlı nəqliyyat infrastrukturunun inkişafına, "yaşıl iqtisadiyyat"a keçidə və uzunmüddətli siyasi sabitliyə xidmət edən fundamental platformadır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Bəzi avropalı siyasətçilər Prezident İlham Əliyevin lider kimi rolunu başa düşmürlər"

**"Avropa İttifaqının bəzi siyasətçiləri, Avropa Parlamenti və Avropa Şurası strukturlarında olan şəxslər elə bəyanatlar verirlər ki, onların Cənubi Qafqaz regionunda sülhün inkişafında maraqlı olub-olmadığı sual doğurur".**

Bu sözləri AZƏRTAC-a müsahibəsində **"Vahid Neytral Gürcüstan" partiyasının regional katibi, politoloq Levan NİKOLEİŞVİLİ** bildirib. "Bu gün biz bunu Azərbaycan, Gürcüstan və Ermənistanın nümunəsində də görürük. Gürcüstan rəsmi olaraq Avropa İttifaqına namizəd ölkə statusuna malikdir. Lakin eyni zamanda müxtəlif sanksiya mexanizmləri ilə üzləşir. Bu addımlar maneə yaradır və əslində Gürcüstanın inkişafına təsir edir. Bu isə bir daha belə şübhələr yaradır ki, onların məqsədi Gürcüstana xidmət etmək və onu qorumaq deyil, əksinə, ölkəni öz təsirləri altında saxlamaqdır", - deyə o qeyd edib.




Politoloq bildirib ki, oxşar siyasət Cənubi Qafqazın digər istiqamətlərində də müşahidə olunur: "Azərbaycana qarşı siyasətə fikir verək. Azərbaycan ilə dost görüntüsü yaradanlar, əslində, dost olmayan siyasət yürüdürlər. Bunu anlamayan insanlar ən azı müəyyən düşüncə və analiz qabiliyyətinə malik olmalıdırlar. Onlar Azərbaycanın harada yerləşdiyini, hansı resurslara malik olduğunu, enerji imkanlarını və iqtisadi inkişafını düzgün qiymətləndirə bilmirlər. Unudurlar ki, Azərbaycana öz siyasətlərini qəbul etdirməyə çalışmaq, onun milli maraqlarına zidd addımlar atmaq cəhdləri çox sadə cavabla qarşılaşacaq".

L.Nikoleişvili deyib: "Onlar ya Prezident İlham Əliyevin lider kimi rolunu və onun həm Azərbaycan, həm də Cənubi Qafqaz üçün əhəmiyyətini başa düşmürlər, ya da Azərbaycan xalqının mentalitetini, tarixini və mədəniyyətini anlamırlar. Ona görə ki, Azərbaycan imkanlarına və resurslarına sahib olan bir dövlət kimi öz suverenliyini heç vaxt güzəştə getməyəcək və heç bir ölkənin diktəsi ilə hərəkət etməyəcək".

Onun sözlərinə görə, Ermənistan məsələsində bəzi qüvvələr bu dövləti müəyyən istiqamətlərə yönəltməyə çalışırlar və nəticədə Ermənistan müəyyən problemlərlə qarşılaşa bilər.

**Müasir dövrdə ölkələrin geostrateji əhəmiyyətini müəyyən edən başlıca amillərdən biri onların qlobal nəqliyyat-logistika zəncirindəki önəmli mövqeyi ilə ölçülür.**

Xüsusən, qlobal iqtisadiyyatın yenidən formalaşdığı indiki dönəmdə qitələrarası tranzit xətlərini qovuşdurmaq imkanına sahib olmaq həmin ölkəyə uzunmüddətli strateji üstünlük və böyük iqtisadi dividendlər qazandırır. Şərq ilə Qərbin, Şimal ilə Cənubun kəsişmə nöqtəsində yerləşən Azərbaycan da öz coğrafi mövqeyini, sadəcə, xəritə üzərindəki üstünlük kimi saxlamayıb, onu məqsədyönlü siyasət nəticəsində real siyasi və iqtisadi dividendlər gətirən platformaya, əməkdaşlıq məkanına çevirib.

Təbii ki, bu strateji baxışın əməli müstəviyə keçirilməsi uzunmüddətli ardıcıl siyasi iradənin nəticəsidir. Nəqliyyat dəhlizlərinin səmərəli fəaliyyət göstərməsi üçün fiziki infrastruktur qədər regional sabitlik və sağlam qonşuluq münasibətləri də vacibdir. Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri sərhəd qonşuları və strateji tərəfdaşlarla qarşılıqlı etimada əsaslanan münasibətlərin inkişaf etdirilməsidir. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və genişlənən magistral yollar ölkəmizin logistik xəritəsini köklü şəkildə yeniləyərək Orta dəhliz və "Şimal-Cənub" marşrutlarının kəsişmə nöqtəsini formalaşdırıb. Region ölkələri ilə qarşılıqlı etimada dayanan münasibətlər bu infrastrukturun tam gücü ilə çalışmasını təmin edib. Xüsusilə Türkiyə, Gürcüstan və Mərkəzi Asiya ilə qurulan sıx tərəfdaşlıq gömrük və tarif siyasətinin uyğunlaşdırılmasına, yükdaşımaların sürətlənməsinə şərait yaradıb. Beləliklə, infrastruktur imkanları ilə düzgün xarici siyasət kursunun sintezi Azərbaycanın regional logistikadakı strateji çəkisini və iqtisadi dividendlərini maksimuma çatdırıb.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində jurnalistlərin suallarını cavablandırarkən Azərbaycanın tranzit mərkəzinə çevrilməsində fiziki infrastrukturun və qonşuluq siyasətinin mühüm roluna diqqət çəkib. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan kifayət qədər uzun müddət ərzində bağlantılar üzərində işləyib: "Biz bəlkə də 10 ildən artıqdır çalışdıq ki, coğrafi mövqeyimizin üstünlüklərindən istifadə edərək, onları çoxtərəfli əməkdaşlıq üçün real platformaya çevirək. Müxtəlif meyarlar var idi ki, bizə beynəlxalq daşımalar məkanına çevrilmək imkanını yaradırdı və ya buna mane olurdular. İlk olaraq, bu, çatışmayan fiziki infrastrukturla bağlı idi və biz onu yaratmalı idik və yaratdıq. İkincisi, qonşularla qarşılıqlı əlaqələr olmadan, siz heç zaman tranzit ölkəyə çevrilməyəcəksiniz. Əgər qonşularınızla münasibətləriniz pisdirsə, bu o deməkdir ki, heç nə alınmayacaq".



# Azərbaycanın uğurlu bağlantı modeli

## Ölkəmiz müasir infrastruktur, çevik diplomatiya və real dividendlərlə Avrasiyanın əsas nəqliyyat mərkəzinə çevrilir

Azərbaycanın təşəbbüskarı olduğu regional layihələrin artıq qlobal miqyasda mühüm amilə çevrildiyini bəyan edən dövlətimizin başçısı əməkdaşlığın çoxtərəfli xarakterini xüsusi olaraq vurğulayıb: "Avrasiyanın böyük coğrafi məkanında, Azərbaycandan Şərq və Qərb, Şimal və Cənub istiqamətlərdə geniş beynəlxalq əməkdaşlığı qurmaq, prosesi apardığımız kimi inkişaf etdirmək, məsələn, Azərbaycanın təşəbbüskar olduğu, əsas maliyyə töhfəsini verən tərəf olduğu və çoxtərəfli əməkdaşlığı təşkil edən tərəf kimi enerji layihələrimizin həyata keçirilməsi həmin meyarlar sırasındadır".

Dövlətimizin başçısının vurğuladığı kimi, coğrafi mövqe özözlüyündə üstünlük yaratmır, yalnız güclü infrastruktur və düzgün qonşuluq siyasəti ilə birləşdikdə real siyasi-iqtisadi resursa çevrilir. Məhz Azərbaycanın qətiyyəti, təşəbbüskarlığı və çoxtərəfli əməkdaşlıq modeli ölkəmizi regional tranzit qovşağından qlobal enerji və nəqliyyat təhlükəsizliyinin əsas zəmanətçilərindən birinə yüksəldib.

Nəzərə alsaq ki, son dövrdə dünyada və regionda cərəyan edən geosiyasi proseslər, qlobal təchizat zəncirindəki qırılmalar alternativ və təhlükəsiz marşrutlara olan tələbatı kəskin şəkildə artırıb, onda Azərbaycanın illər öncə əsasını qoyduğu bağlantı strategiyası məhz bu günün reallıqlarına tam cavab verir. Lakin yaranmış yeni reallıqlar və gələcək hədəflər çərçivəsində mövcud imkanların daha da genişləndirilməsi zərurətə çevrilib. Dövlətimizin başçısının söylədiyi kimi, fiziki infrastruktur qurulub, indi isə biz yalnız onun genişləndirilməsi yolları üzərində çalışırıq: "Çünki biz gözləmirdik ki, coğrafiyamız son vaxtlar bu qədər lazımlı olacaq. Şərq və Qərbdəki qonşularla - istər Mərkəzi Asiya ölkələri, istərsə də Gürcüstan, Türkiyə və Avropa kimi yaxın qonşularımızla qarşılıqlı fəaliyyət çox yaxşıdır. Əlbəttə, bütün bunları bir araya gətirmək üçün bizə dəhlizi səmərəli edə biləcək bir çox addımları atmaq vacib idi".

Zamanında atılmış strateji addımlar, tamamlanmış fiziki infrastruktur və qurulmuş etibarlı tərəfdaşlıqlar ölkəmizi Avrasiyanın mühüm nəqliyyat və enerji mərkəzi səviyyəsinə çatdırıb. Gələcək hədəf isə mövcud dəhlizlərin rəqəmsallaşdırılması, ötürücülük qabiliyyətinin artırılması və effektivliyin maksimuma yüksəkdilməsi vasitəsilə bu liderlik mövqeyini daha da möhkəmləndirməkdən ibarətdir.

Nəticə etibarı ilə Azərbaycanın reallaşdırdığı bağlantı strategiyası təkcə geoiqtisadi dividendlərlə kifayətlənmir, həm də ölkəmizi Avrasiya məkanında mühüm siyasi güc mərkəzinə çevirir. Coğrafi üstünlüyün güclü infrastruktur, çevik diplomatiya və etibarlı tərəfdaşlıqla tamamlanması Bakının qlobal təchizat və enerji zəncirindəki strateji çəkisini daha da artırır. Bu mütərəqqi xətt Azərbaycanın uzunmüddətli milli təhlükəsizliyinin, iqtisadi dayanıqlılığının və beynəlxalq nüfuzunun etibarlı zəmanətidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# *Türkiyəli ekspert:*

## Şuşa Qlobal Media Forumu digər dövlətlər üçün də nümunə ola bilər

**"Media ilə əlaqədar hər hansı bir forumun keçirilməsi faktı onu deməyə əsas verir ki, müasir dünyada kütləvi informasiya vasitələrinin ictimai rəyə təsiri böyükdür. Lakin sosial media bu gün həyatımızın bütün sahələrinə daxil olaraq əksər hallarda obyektiv olmayan məlumatlar yayır".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında **Türkiyənin Kırıkkale Universitetinin dosent doktoru, beynəlxalq münasibətlər üzrə ekspert Merve Suna Özəl ÖZCAN** deyib.



O bildirib ki, Şuşada keçirilən Media Forumunda müstəqil bloqçuların də iştirakı və birbaşa ölkə Prezidentinə sual vermək imkanı mütərəqqi haldır: "Əvvəlcə ona görə ki, dövlət siyasətinə aid məsələlərə birbaşa Prezident İlham Əliyevin özü aydınlıq gətirdi. Onun ətraflı şərhindən sonra istər ənənəvi, istərsə də sosial medianın qeyri-obyektiv məlumatlar yayması yersiz görünür. Prezident xarici və yerli jurnalistlər və bloqçuların qarşısında Azərbaycanın xarici və daxili siyasətinə dair bütün məsələlərə aydınlıq gətirərək yalan, yoxlanılmamış və qeyri-obyektiv informasiyaların yayılmasının qarşısının alınmasının vacibliyini bildirdi. Hər bir məsələyə aid dərc olunan materialların ilkin mənbəyi birbaşa Azərbaycan Prezidentinin özü oldu. Onun çıxışından sonra regionda davam edən sülh prosesinə aid həyata keçirilən işlərə manеə olmaq istəyən istər Avropadakı, istərsə də digər maraqlı dövlətlərin mediası dezinformasiya yaya bilməz, yaysa da gözlənilən effekti ala bilməzlər".

"Bu gün süni intellekt, sosial şəbəkələr və elektronlaşan media mühitində düzgün informasiya tapmaq və yaymaq çox çətinləşib. İnformasiya xaosu işində düzgün və həqiqi məlumatları yaymaq və auditoriyaya çatdırmaq baxımından IV Şuşa Qlobal Media Forumu olduqca əhəmiyyətlidir. Azərbaycanın bu ideyasından digər dövlətlər də faydalana bilər. Dövlət başçısının birbaşa media nümayəndələri ilə ünsiyyəti söz və fikir azadlığını, eyni zamanda media qurumlarının sərbəstliyini göstərir. Bəzi hallarda dünya miqyasında tanınmış mətbuat orqanları da yoxlanılmamış məlumatlar yayır. Düşünürəm ki, bunlar da təsadüfi xarakter daşımır. Bağlı olduğu siyasi və biznes qrupunun marağını güdən bu media qurumlarının belə neqativ addımları siyasi xarakter daşıyır. Lakin yuxarıda qeyd etdiyim kimi, ilkin mənbənin özünün açıqlama verməsi bütün suları duruldur. Şuşa Qlobal Media Forumu digər dövlətlər üçün də nümunə ola bilər. Belə tədbirlər yalnız qaranlıq məqamlara aydınlıq gətirmir, eyni zamanda gələcəkdə media mühitinin şəffaflığını təmin edir", - deyə ekspert əlavə edib.

# Azərbaycan-Mərkəzi Asiya formatı regionlar arasında geosiyasi və geoiqtisadi əlaqələrin inkişafına yeni imkanlar yaradır

**"Müasir dövrdə geosiyasi və geoiqtisadi proseslərin sürətlə dəyişdiyi bir şəraitdə Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyur. Tarixi, mədəni və mənəvi yaxınlıq üzərində qurulan bu münasibətlər artıq strateji tərəfdaşlıq müstəvisinə yüksələrək regionlararası əlaqələrin mühüm istiqamətlərindən birinə çevrilib".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında **türkiyəli siyasi ekspert Cafer DAL** bildirib. C.Dal qeyd edib ki, Azərbaycan-Mərkəzi Asiya formatı yalnız regional əməkdaşlıq mexanizmi deyil, eyni zamanda Avrasiya məkanında yeni geosiyasi reallıqların formalaşmasına təsir edən mühüm platformadır.

Ekspertin sözlərinə görə, Azərbaycanın son illərdə həyata keçirdiyi uğurlu xarici siyasət, xüsusilə nəqliyyat, enerji və logistika sahələrində əldə etdiyi nailiyyətlər Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın genişlənməsi üçün əlverişli zəmin yaradıb: "Azərbaycan və Mərkəzi Asiya dövlətləri arasında əlaqələrin inkişafı ortaq maraqlara əsaslanır. Bu ölkələr bir-birini tamamlayan iqtisadi potensiala malikdir. Azərbaycan Xəzər regionunda mühüm nəqliyyat və enerji qovşağı kimi çıxış edir. Mərkəzi Asiya ölkələri üçün isə Azərbaycan üzərindən dünya bazarlarına çıxış imkanlarının genişlənməsi xüsusi əhəmiyyət daşıyır".

Onun fikrincə, xüsusilə Orta dəhlizin inkişafı Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığının əsas istiqamətlərindən biridir. Bu nəqliyyat marşrutu Asiya ilə Avropa arasında alternativ və etibarlı bağlantı yaradaraq region ölkələrinin tranzit imkanlarını artırır.

"Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və digər infrastruktur layihələri Azərbaycanın regional logistika mərkəzi kimi mövqeyini gücləndirib. Bu imkanlar Mərkəzi Asiya ölkələri üçün də böyük iqtisadi perspektivlər açır", - deyə türk ekspert vurğulayıb.

Cafer Dal bildirib ki, enerji sahəsində əməkdaşlıq da Azərbaycan-Mərkəzi Asiya münasibətlərinin mühüm istiqamətlərindəndir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə, "yaşıl enerji" layihələri və bərpaolunan enerji sahəsində təşəbbüsləri region ölkələri arasında yeni əməkdaşlıq imkanları formalaşdırır.

Ekspert qeyd edib ki, Azərbaycan-Mərkəzi Asiya formatı türk dünyasında inteqrasiya proseslərinə də mühüm təsir göstərir. Ölkələr arasında siyasi dialoqun güclənməsi, iqtisadi əlaqələrin genişlənməsi və humanitar münasibətlərin inkişafı daha sıx regional əməkdaşlıq üçün möhkəm baza yaradır.

"Bu format həm regional sabitliyə, həm də davamlı iqtisadi inkişafa xidmət edir. Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın dərinləşməsi gələcəkdə yeni investisiya layihələrinin, ticarət əlaqələrinin və birgə təşəbbüslərin həyata keçirilməsinə imkan verəcək", - deyə Cafer Dal əlavə edib.

Onun sözlərinə görə, qlobal iqtisadi çağırışlar fonunda regional əməkdaşlıq platformalarının əhəmiyyəti daha da artır. Azərbaycan-Mərkəzi Asiya formatı qarşılıqlı etimad, strateji maraqlar və ortaq inkişaf hədəfləri əsasında formalaşan mühüm əməkdaşlıq modeli kimi çıxış edir: "Qarşıdakı illərdə bu əməkdaşlıq enerji, nəqliyyat və ticarətlə yanaşı, rəqəmsal iqtisadiyyat, innovasiya, kənd təsərrüfatı və "yaşıl texnologiya"lar sahələrini də əhatə etməklə daha geniş məzmun qazanacaq. Azərbaycanın təşəbbüsləri və Mərkəzi Asiya ölkələri ilə qurduğu strateji tərəfdaşlıq əlaqələri regionlar arasında geosiyasi və geoiqtisadi bağların möhkəmlənməsinə, Avrasiyada yeni əməkdaşlıq imkanlarının yaranmasına mühüm töhfə verir".

# *Almaniyanın "Cicero" jurnalı:* "Avropa Cənubi Qafqazı Mərkəzi Asiyaya açılan strateji qapı kimi yenidən kəşf edir"

**Almaniyada yayımlanan nüfuzlu "Cicero" jurnalında "Mərkəzi Asiyaya açılan qapı - Avropa Cənubi Qafqazı niyə yenidən kəşf edir?" sərlövhəli məqalə dərc olunub.**




AZƏRTAC xəbər verir ki, məqalədə son illərdə dəyişən geosiyasi reallıqlar fonunda Avropanın Cənubi Qafqaza münasibətində baş verən ciddi transformasiya təhlil olunur. Müəllif Oliver Rolofs pandemiya, Rusiya-Ukrayna müharibəsi və Yaxın Şərqdə artan gərginliyin Avropanın təhlükəsizlik, enerji və nəqliyyat siyasətinə baxışını əsaslı şəkildə dəyişdiyini qeyd edir. Bildirilir ki, "soyuq müharibə"dən sonra təhlükəsizliyini əsasən ABŞ-yə həvalə edən, enerji təchizatında Rusiyadan, iqtisadi inkişaf modelində isə Çin bazarından asılı olan Avropa qlobal böhranlar fonunda bu modelin davamlı olmadığını görərək çoxtərəfli dünyada müstəqil geosiyasi aktor kimi çıxış etməyə çalışır. Bu dəyişiklik isə uzun müddət geosiyasi periferiya hesab olunan Cənubi Qafqazı Avropanın strateji maraqlarının əsas istiqamətlərindən birinə çevirib.

Bu kontekstdə Ukrayna müharibəsinin boru kəmərlərinin, limanların, dənizaltı rabitə xətlərinin və tranzit marşrutlarının təkcə iqtisadi deyil, həm də geosiyasi alət olduğunu nümayiş etdirdiyi vurğulanır. İran müharibəsi və Hörmüz boğazı ilə bağlı risklərin artmasının isə enerji və logistika təhlükəsizliyi məsələlərini daha da aktuallaşdırdığı diqqətə çatdırılıb. Bu baxımdan Cənubi Qafqazın Avropa üçün xüsusi strateji əhəmiyyət daşıdığı qeyd olunur. Yazıda bildirilir ki, Cənubi Qafqaz regionu uzun illər əsasən Ermənistan-Azərbaycan münaqişəsi prizmasından qiymətləndirilib. Lakin bu yanaşma Cənubi Qafqazın daha geniş geostrateji imkanlarını kölgədə qoyub. 2025-ci il avqustun 8-də Vaşinqtonda Ermənistan və Azərbaycan arasında başlanmış sülh təşəbbüsü Brüsseldə və Avropanın digər paytaxtlarında regiona münasibətin əhəmiyyətli dərəcədə dəyişməsinə təkan verib. Sərhədlərin delimitasiyası, minaların təmizlənməsi və qarşılıqlı etimad tədbirləri kimi məsələlərin tam həllini tapmamasına baxmayaraq, Avropanın Cənubi Qafqazı Avropa ilə Mərkəzi Asiyanı birləşdirən körpü kimi qiymətləndirdiyi bildirilir.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan roluna xüsusi yer ayıran müəllif xatırladır ki, 2022-ci ildə Bakıda imzalanmış Anlaşma Memorandumu çərçivəsində Azərbaycanın Avropaya təbii qaz ixracı artmaqdadır. Hazırda Azərbaycan Avropa İttifaqına ildə 13 milyard kubmetr qaz ixrac edir. Bu rəqəm 2022-ci ildən əvvəl 8 milyard kubmetr olub. Bu həcmin 2027-ci ilədək azı 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Bundan başqa, 2026-cı ildən etibarən Almaniya və Avstriyanın da Azərbaycandan ilk dəfə olaraq birbaşa qaz almağa başladıqları qeyd edilir. Eyni zamanda, Azərbaycanın artıq 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətinə qaz ixrac etdiyi və Avropanın enerji mənbələrinin şaxələndirilməsi siyasətinin əsas dayaqlarından birinə çevrildiyi xüsusi vurğulanır.

Yazıda "Cənub qaz dəhlizi"nin Xəzər hövzəsindən başlayaraq Rusiya ərazisindən keçmədən Avropaya enerji çatdıran mühüm infrastruktur layihəsi olduğu bildirilir. TANAP və TAP kəmərlərinin Rusiya-Ukrayna müharibəsindən sonra Avropanın enerji asılılığını azaltmaq strategiyasında xüsusi əhəmiyyət qazandığı vurğulanır. Bununla yanaşı, Azərbaycanın əhəmiyyətinin təkcə enerji təchizatçısı olması ilə məhdudlaşmadığı və ölkənin mühüm tranzit imkanları da qeyd edilərək ölkənin Mərkəzi Asiyaya çıxış üçün əsas qapı rolunu oynadığı bildirilir.

Orta dəhlizin geostrateji əhəmiyyətini bu prizmadan geniş təhlil edən müəllif qeyd edir ki, Rusiyadan keçən şimal marşrutunun müharibə və sanksiyalar səbəbindən məhdudlaşması, İran istiqamətinin isə yüksək geosiyasi risklər daşıması fonunda Orta dəhliz Avropa ilə Asiya arasında ən etibarlı və perspektivli bağlantılardan birinə çevrilib. Bu marşrut Avropanı Azərbaycan vasitəsilə bütövlükdə Mərkəzi Asiya bazarları - Qazaxıstan, Türkmənistan, Özbəkistan və Çin ilə əlaqələndirir. Xüsusilə vurğulanır ki, Avropa İttifaqı artıq bu dəhlizi "Global Gateway" strategiyasının əsas infrastruktur layihələrindən biri hesab edərək enerji, rəqəmsallaşma, kritik xammal, nəqliyyat və logistika sahələrində əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verir.

Məqalədə bildirilir ki, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya sonuncu səfəri zamanı səsləndirdiyi fikirlər Brüsselin regiona baxışındakı dəyişiklikləri aydın nümayiş etdirir. Onun Cənubi Qafqazı Avropa, Xəzər hövzəsi və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən mühüm qovşaqlarından biri adlandırdığı, Azərbaycanın isə regional əməkdaşlıq və sabitliyin təşviqində xüsusi imkanlara malik olduğunu vurğuladığı qeyd edilir. Həmçinin Rusiyanın enerji resurslarından siyasi təzyiq vasitəsi kimi istifadə etdiyi bir dövrdə Azərbaycanın Avropaya qaz tədarükünü artırdığı, ölkənin etibarlı enerji tərəfdaşı kimi qiymətləndirildiyi bildirilir. Qeyd olunur ki, əməkdaşlığın növbəti mərhələsi "yaşıl enerji" dəhlizinin yaradılması, elektrik şəbəkələrinin inteqrasiyası və bərpaolunan enerji layihələrinin genişləndirilməsini əhatə edir.

Müəllif bildirir ki, Avropa İttifaqının Azərbaycanla yeni "Bağlantılar Tərəfdaşlığı" və "Bağlantılar vasitəsilə sülh" təşəbbüsü regionda nəqliyyat, enerji və rəqəmsal infrastrukturun inkişafına yönəlib. Bu proqram çərçivəsində ayrılacaq vəsaitlərin milyardlarla avroluq investisiyaları stimullaşdıracağı, Bakı limanının genişləndirilməsi, yeni dəmir yolu xətlərinin tikintisi və sərhəd bölgələrinin inkişafının dəstəklənəcəyi bildirilir.

Məqalədə regionun Almaniya üçün geosiyasi baxımdan daha böyük əhəmiyyət daşıdığı qeyd olunaraq, Prezident Frank-Valter Ştaynmayerin ötən il Ermənistana və Azərbaycana səfərlərinin təkcə diplomatik protokol xarakteri daşımadığı, həm də Berlinin regiona enerji və infrastruktur siyasəti baxımından artan marağının göstəricisi olduğu vurğulanır. Qeyd edilir ki, Almaniya üçün Cənubi Qafqaz artıq təkcə alternativ təbii qaz mənbəyi kimi deyil, həm də dayanıqlı təchizat zəncirlərinin formalaşdırılması, rəqabət qabiliyyətinin möhkəmləndirilməsi və Mərkəzi Asiya bazarlarına çıxış imkanlarının genişləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Bu baxımdan Kansler Fridrix Mertsin Prezident İlham Əliyevi Almaniyaya rəsmi səfərə dəvət etməsi Berlinin Avropanın enerji təhlükəsizliyi, nəqliyyat infrastrukturu və bağlantılar strategiyası çərçivəsində Azərbaycanla siyasi və iqtisadi tərəfdaşlığı daha da dərinləşdirmək niyyətinin göstəricisi kimi qiymətləndirilir.



# Qarabağ həm də qlobal dialoq mərkəzidir

## Bu, eyni zamanda bölgənin quruculuq işlərini dünyaya təqdim edir

**Bu gün Azərbaycan beynəlxalq müstəvidə yalnız regionun lider dövləti kimi deyil, həm də qlobal problemlərin dialoq yolu ilə həll edildiyi, mühüm siyasi, iqtisadi və mədəni platformalara evsahibliyi edən etibarlı tərəfdaş kimi tanınır. Ölkəmizin yüksək təşkilatçılıq qabiliyyəti, artan beynəlxalq nüfuzu və sülh təşəbbüsləri son illərdə keçirilən mötəbər tədbirlərdə bir daha öz təsdiqini tapır.**

Bu prosesin ən qürurverici məqamı isə həmin beynəlxalq forum və zirvə görüşlərinin bir qisminin işğaldan azad edilmiş, dirçələn Qarabağda təşkil olunmasıdır. Təkcə ötən il Laçında Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Zirvə görüşü, Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü, Ağdamda ECO Gənclər Forumu, Laçında Qadınlar Forumu, Şuşada 6-cı ECO Biznes Forumunun təşkili buna əyani sübut idi. O cümlədən bu il iyulun 13-də Prezident İlham Əliyevin açılışında iştirak etdiyi IV Şuşa Qlobal Media Forumu dövlətimizin qüdrətinin və Qarabağ zəfərinin növbəti təntənəsi oldu.

Qlobal Media Forumunda Prezident İlham Əliyev məhz bu məqamı xüsusi qeyd etdi: "Əvvəlcə, burada, Azərbaycanda, Qarabağda, Şuşada bu cür mötəbər auditoriyanı qəbul etmək böyük şərəfdir... ...Əminəm ki, vaxt keçdikcə dövri olaraq buraya gələn qonaqlarımızın bir çoxu Qarabağın inkişafını, yenidənqurmanı görürlər. Onlar ilk dəfə gəldikləri zaman, bəlkə də yalnız dağıntıları gördülər, lakin indi şəhərləri görürlər... ...Əlbəttə ki, bizim üçün mühüm meyar qərarların qəbul edilməsi prosesinə təsir göstərən, öz ölkələrində və onun hüdudlarından kənarda ictimai rəyi formalaşdıran insanlardan ibarət böyük qrupu toplamaqdır və Qarabağın öz köklərinə qayıtmasını, bu torpaqların yiyələrinin qayıtmasını, real inkişafı göstərməkdir".

Vurğulayaq ki, foruma qatılan xarici qonaqlar və media nümayəndələri də bölgədə həyata keçirilən nəhəng bərpa işlərinə və qısa müddətdə baş verən möhtəşəm dəyişikliklərə heyrətlərini gizlədə bilmirlər. Məsələn, Özbəkistanın "Sevimli TV" kanalının müxbiri Johongir Olimov "Qarabağda bundan dörd il əvvəl olmuşdum. O vaxt bu bölgənin yenidən qurulması işləri sürətlə aparılırdı. Bu gün Qarabağa, bütün Azərbaycanın və Qafqazın mədəniyyət mərkəzi olan Şuşa şəhərinə yenidən gələrək böyük dəyişikliklərə şahid oldum", - deyə bildirib.

### Müasir infrastruktur və strateji layihələr

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması Azərbaycan dövlətinin mütləq prioriteti və dövlət büdcəsinin əsas xərc istiqamətlərindən biridir. Otuz ilə yaxın müddətdə viran qoyulan, daşı-daş üstündə qalmayan torpaqlara yenidən can vermək üçün dövlətimiz bütün imkanlarını səfərbər edib.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən nəqliyyat-infrastruktur layihələri bölgənin gələcək inkişafının təməlini təşkil edir. Beynəlxalq hava limanları - Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanlarının tikilib istifadəyə verilməsi bölgəni dünyanın logistika və turizm xəritəsinə inteqrasiya edir. Mürəkkəb dağlıq relyefdə salınan yüzlərlə kilometrlik müasir magistral yollar, keçidlər və strateji əhəmiyyətli tunellər şəhər və kəndlərimiz arasında rahat gediş-gəlişi təmin edir. Zəngin su və günəş enerjisi resurslarına malik bölgədə xeyli sayda su-elektrik stansiyası inşa edilib.

İşğaldan azad edilmiş ərazilərdə salınan yeni yaşayış məntəqələri müasir şəhər və kənd modelini təcəssüm etdirir. Ən son texnoloji həllər və beynəlxalq standartlar əsasında qurulan bu ərazilərdə kommunal və rəqəmsal infrastruktur tam inteqrasiya olunmuş şəkildə istifadəyə verilir.

Qarabağ və Şərqi Zəngəzurda görülən bütün işlər birbaşa Prezident İlham Əliyevin nəzarəti altında həyata keçirilir. Dövlət başçısı dəfələrlə həmin ərazilərə səfər edərək burada yeni layihələrin təməllərini qoyub və yaxud açılışlar edib, həmçinin görülən işlərlə yerində tanış olub, tapşırıqlarını verib. Cəmi bir neçə il əvvələ qədər heç bir həyat nişanəsi olmayan bu ərazilərdə yenidən həyat qaynayır.

İyulun 11-də Prezident İlham Əliyev xoş ənənəsinə sadiq qalaraq Qarabağda xeyli açılışlar etdi, görülən işlərlə tanış oldu. Həmin tarixdə dövlət başçısı Laçında "Həkəriçay" su anbarının təməlini qoydu, Hoçaz çayının üzərində yerləşən su-elektrik stansiyalarının açılışını etdi. Eyni zamanda Şuşada "Sadıqcanın evi"nin bərpası, həmçinin "Yasəmən" hotelinin yeni korpusları ilə tanış olması və "Xankəndi" hotelinin açılışı mədəni irsimizin dirçəldilməsi ilə müasir infrastrukturun vəhdətini nümayiş etdirdi.

### Doğma ocaqlara dönüş bayramı

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı işlər tək bir ali məqsədə xidmət edir: keçmiş məcburi köçkünlərin öz dədə-baba torpaqlarına təhlükəsiz və ləyaqətli qayıdışını təmin etmək.

Ancaq onu da qeyd etməliyik ki, bütün bu möhtəşəm şəhərsalma layihələrinin, nəqliyyat dəhlizlərinin və Böyük qayıdışın reallaşmasının arxasında duran ilk və ən məsuliyyətli mərhələ məhz ərazilərin minalardan təmizlənməsidir. Ermənistanın otuz ilə yaxın işğal dövründə basdırdığı bir milyondan çox mina və partlamamış hərbi sursat bərpa işlərinin tempi qarşısında ən böyük maneə olsa da, Azərbaycan bu sahədə də misilsiz iradə nümayiş etdirir. Torpaqlarımız addım-addım təhlükəsiz zonaya çevrilir.

Görülən işlərin nəticəsidir ki, Qarabağ və Şərqi Zəngəzurun 10 şəhər, 3 qəsəbə və 34 kəndinə Böyük qayıdış həyata keçirilib. Ümumiyyətlə, hazırda azad edilmiş torpaqlarda 90 mindən çox insan yaşayır, çalışır və təhsil alır.

Prezident İlham Əliyevin iyulun 11-də Xocavənd rayonunun Quzeyxırman və Güneyxırman kənd sakinləri ilə görüşündə ifadə etdiyi kimi: "Hər dəfə keçmiş köçkünlər öz dədə-baba torpaqlarına qayıdanda hamımız üçün bayramdır, bütün Azərbaycan xalqı üçün bayramdır. İndi elə ay olmur ki, qrup-qrup şəklində keçmiş köçkünlər öz doğma torpaqlarına qayıtmasın. Elə olur ki, hər həftə, hər ay, hər gün. Bundan sonra bu proses daha geniş vüsət alacaq".

Göründüyü kimi, dövlət rəhbərinin şəxsi nəzarəti, misilsiz quruculuq iradəsi və xalqımızın zəhməti sayəsində Qarabağ və Şərqi Zəngəzur vüsətlə cənnətə çevrilir, bu ərazilərə işıq və həyat qayıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Şuşadan ünvanlanan mesajlar Azərbaycanın yaratdığı yeni reallıqların konseptual təqdimatı oldu

**Ötən həftə Şuşa növbəti dəfə beynəlxalq tədbirə evsahibliyi etdi. "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda keçirilən IV Şuşa Qlobal Media Forumu media nümayəndələrini, ekspertləri, beynəlxalq təşkilatların təmsilçilərini və kommunikasiya sahəsində fəaliyyət göstərən şəxsləri bir araya topladı.**



Dünyanın onlarla ölkəsindən jurnalistlərin, ekspertlərin və media rəhbərlərinin iştirak etdiyi forum çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakçıların suallarına verdiyi əhatəli cavablar regional və qlobal gündəmin əsas istiqamətlərinə aydınlıq gətirdi. Prezidentin çıxışında səsləndirilən fikirlər Azərbaycanın xarici siyasət kursunun əsas prioritetlərini, Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqları, beynəlxalq hüquqa münasibəti və qlobal təhlükəsizlik mühitinə baxışını əks etdirməklə yanaşı, ölkənin gələcək inkişaf strategiyasının da siyasi konturlarını ortaya qoydu.

**Milli Məclisin deputatı Sevinc HÜSEYNOVA** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin fikirlərinin əsas xəttini Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tam bərpa etməsindən sonra regionda yaranmış yeni vəziyyət təşkil edirdi. Dövlət başçısı vurğuladı ki, artıq Cənubi Qafqazda yeni siyasi və hüquqi reallıq formalaşıb və bu reallıq bütün regional aktorlar tərəfindən qəbul edilməlidir. Bu yanaşma Azərbaycanın son illərdə həyata keçirdiyi ardıcıl diplomatik xəttin məntiqi davamıdır. Rəsmi Bakı hesab edir ki, bölgədə davamlı sülh yalnız dövlətlərin suverenliyinə, sərhədlərin toxunulmazlığına və beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında mümkündür. "Forum zamanı Prezident İlham Əliyev Azərbaycanın heç bir hərbi-siyasi blokun maraqlarına xidmət etməyən, milli maraqlara söykənən müstəqil xarici siyasət yürütməsinin əhəmiyyətini xüsusi vurğuladı. Bu siyasət ölkəyə müxtəlif qlobal güc mərkəzləri ilə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq münasibətləri qurmağa imkan verib. Son illər Azərbaycanın həm enerji təhlükəsizliyi, həm nəqliyyat-logistika marşrutları, həm də humanitar diplomatiya sahəsində artan rolu göstərir ki, ölkə artıq təkcə regional deyil, Avrasiya məkanında mühüm geosiyasi aktorlardan birinə çevrilib", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin forumda toxunduğu mühüm məsələlərdən biri də Azərbaycan-Türkiyə münasibətlərinin mahiyyəti və bu əməkdaşlığın beynəlxalq münasibətlər sistemində tutduğu xüsusi yerdir: "Dövlət başçısı vurğuladı ki, Azərbaycan ilə Türkiyə arasında münasibətlər dostluq, qardaşlıq, strateji tərəfdaşlıq və müttəfiqlik prinsiplərinə əsaslanır. Bu münasibətlər təkcə iki dövlət arasında siyasi əməkdaşlıq nümunəsi deyil, eyni zamanda ortaq tarixə, mədəniyyətə, milli-mənəvi dəyərlərə və qarşılıqlı etimada söykənən unikal modeldir. Müasir beynəlxalq münasibətlər sistemində eyni etnik, dini və ya tarixi köklərə malik xalqlar arasında fikir ayrılıqları, siyasi qarşıdurmalar, hətta silahlı münaqişələr yaşandığı hallara tez-tez rast gəlinir. Dünyada qardaş hesab olunan xalqlar arasında münasibətlərin gərginləşməsi, müharibələrin baş verməsi göstərir ki, ortaq mənşə öz-özlüyündə möhkəm tərəfdaşlığın təminatı deyil. Azərbaycan və Türkiyə isə bunun tam əksini nümayiş etdirir. İki dövlət bütün əsas regional və beynəlxalq məsələlərdə bir-birinin mövqeyini dəstəkləyir, təhlükəsizlik, enerji, nəqliyyat, iqtisadiyyat, müdafiə sənayesi və humanitar sahələrdə əməkdaşlığı ardıcıl şəkildə genişləndirirlər. Azərbaycan-Türkiyə müttəfiqliyi regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə mühüm töhfə verir. Bu əməkdaşlıq hər hansı üçüncü tərəfə qarşı yönəlməyib, əksinə, qarşılıqlı hörmətə, beynəlxalq hüquqa və regional əməkdaşlığın inkişafına əsaslanan dayanıqlı tərəfdaşlıq modelidir. Prezident İlham Əliyevin forumda səsləndirdiyi fikirlər bir daha göstərdi ki, Azərbaycan-Türkiyə münasibətləri "bir millət, iki dövlət" fəlsəfəsinin təkcə siyasi şüar deyil, real geosiyasi məzmun daşıyan və müasir beynəlxalq münasibətlərdə nadir rast gəlinən uğurlu əməkdaşlıq nümunəsidir".

Qlobal Media Forumunun məhz Şuşada keçirilməsinin təsadüfi olmadığını deyən S.Hüseynova bildirib ki, Azərbaycan bu platforma vasitəsilə informasiya təhlükəsizliyi, dezinformasiya ilə mübarizə və media əməkdaşlığı kimi məsələləri beynəlxalq gündəliyin ön sıralarına çıxarmağa nail olur. Prezident İlham Əliyev forumda informasiya manipulyasiyalarının, saxta xəbərlərin və ikili standartların beynəlxalq münasibətlər sisteminə mənfi təsir göstərdiyini vurğulayaraq, peşəkar jurnalistikanın və obyektiv informasiyanın əhəmiyyətini ön plana çəkdi. Müasir dövrdə informasiya məkanı artıq klassik diplomatiyanın ayrılmaz tərkib hissəsinə çevrilib. Dövlətlərin beynəlxalq imici, siyasi mövqelərinin düzgün çatdırılması və ictimai rəyin formalaşdırılması məhz media vasitəsilə həyata keçirilir. Bu baxımdan Şuşa Qlobal Media Forumu Azərbaycanın "yumşaq güc" siyasətinin mühüm elementlərindən biri kimi çıxış edir. Prezident İlham Əliyevin cavablarında diqqətçəkən əsas məqamlardan biri də beynəlxalq münasibətlər sistemində müşahidə olunan transformasiya proseslərinin təhlili idi. Dövlət başçısı bildirdi ki, dünya artıq əvvəlki geosiyasi model üzrə inkişaf etmir və yeni güc balansı formalaşır. Bu kontekstdə Azərbaycan balanslaşdırılmış xarici siyasət yürütməklə, müxtəlif siyasi mərkəzlərlə əməkdaşlığı paralel şəkildə inkişaf etdirir. Avropa, Asiya, Yaxın Şərq və Mərkəzi Asiya istiqamətlərində qurulan çoxtərəfli əlaqələr ölkənin beynəlxalq nüfuzunun artmasına mühüm töhfə verir. Eyni zamanda Azərbaycanın enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi mövqeyi, Orta dəhlizin inkişafına verdiyi töhfələr və "yaşıl enerji" layihələri ölkənin geosiyasi çəkisini daha da artırır.

Deputat xatırladıb ki, forumda Prezident İlham Əliyev Azərbaycanın regionda davamlı sülhün tərəfdarı olduğunu və Ermənistanla münasibətlərin beynəlxalq hüququn prinsipləri əsasında normallaşdırılmasını dəstəklədiyini bir daha bəyan edib: "Bu yanaşma göstərir ki, rəsmi Bakı postmünaqişə dövründə regional əməkdaşlığın genişlənməsini, iqtisadi inteqrasiyanın güclənməsini və uzunmüddətli sabitliyin təmin olunmasını strateji məqsəd kimi müəyyənləşdirib. Şuşadan verilən mesajlar təkcə region üçün deyil, beynəlxalq ictimaiyyət üçün də ciddi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər göstərdi ki, Azərbaycan müasir geosiyasi proseslərə passiv müşahidəçi kimi deyil, təşəbbüskar və məsuliyyətli tərəfdaş kimi yanaşır. Ölkəmizin müstəqil siyasəti, çoxtərəfli əməkdaşlıq modeli və beynəlxalq hüquqa əsaslanan mövqeyi onun regional lider statusunu daha da möhkəmləndirir".

S.Hüseynova vurğulayıb ki, IV Şuşa Qlobal Media Forumu informasiya diplomatiyası ilə geosiyasət arasında əlaqələrin getdikcə daha da gücləndiyini bir daha nümayiş etdirdi. Prezident İlham Əliyevin forumda səsləndirdiyi mesajlar Azərbaycanın gələcək inkişaf prioritetlərini, regional sabitlik baxışını və qlobal proseslərdə artan rolunu aydın şəkildə ifadə etdi. Şuşadan dünyaya ünvanlanan bu mesajlar, əslində, yeni dövrün siyasi reallıqlarının və Azərbaycanın həmin reallıqlardakı yerinin konseptual təqdimatı kimi qiymətləndirilə bilər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Səhiyyədə rəqəmsal transformasiya

## Əsas məqsəd vətəndaş mərkəzli sistem qurmaqdır

**Bu gün bütün sahələrdə rəqəmsallaşmaya keçid müşahidə olunur. Bəzi sahələrdə isə bu keçidin sürətli olması zamanın tələbidir. Səhiyyə də məhz belə sahələrdəndir. Durmadan inkişaf edən tibdə süni intellektin və rəqəmsal həllərin tətbiqi səhiyyə sisteminin daha səmərəli, əlçatan və innovativ şəkildə fəaliyyət göstərməsinə imkan yaradır. Azərbaycanda elektron resept, onlayn növbə sistemi, elektron xəstəlik tarixçəsi və digər bir çox istiqamətdə rəqəmsal keçidlə bağlı layihələr hazırlansa da, praktik olaraq rəqəmsal tranformasiya tam müşahidə olunmur.**

Rəqəmsal transformasiya səhiyyə sistemində xidmətə çıxışı asanlaşdırmaqla, vaxt itkisinin və uzun növbələrin qarşısını ala bilir. Eyni zamanda diaqnostikanın dəqiqliyini artırır və idarəetmədə şəffaflığın güclənməsinə şərait yaradır. Ümumilikdə, səhiyyədə rəqəmsal transformasiya yalnız texnoloji yenilik deyil, həm də vətəndaşyönümlü, əlçatan tibbi xidmətlər və davamlı səhiyyə sisteminin formalaşdırılmasına xidmət edən strateji inkişaf istiqamətidir.

**Milli Məclisin deputatı Müşfiq MƏMMƏDLİ** mövzu ilə bağlı qəzetimizə açıqlamasında deyib ki, səhiyyə sistemində rəqəmsal transformasiya artıq seçim deyil, zərurətdir. Son illər bu istiqamətdə mühüm addımlar atılsa da, vətəndaşların gündəlik hiss etdiyi rəqəmsal xidmətlərin tam tətbiqi hələ başa çatmayıb.

Deputat hazırda rəqəmsallaşmaya ən çox tələb olunan istiqamətlərdən danışıb: "Elektron resept sisteminin tam tətbiqi bu gün ehtiyac duyulan əsas istiqamətdir. Bu sistem kağız reseptləri tam əvəzləməli, dərman təyinatlarının vahid bazada saxlanmasını təmin etməli, eyni zamanda dərman istifadəsinə nəzarəti gücləndirməlidir. Xüsusilə icbari tibbi sığorta çərçivəsində gələcəkdə ambulator dərman təminatının genişlənməsi üçün elektron resept əsas infrastruktur rolunu oynayacaq. Digər istiqamət isə mərkəzləşdirilmiş onlayn növbə sistemidir. Hazırda bir sıra tibb müəssisələrində ayrı-ayrı həllər olsa da, bütün dövlət tibb müəssisələrini əhatə edən vahid sistem tam fəaliyyət göstərmir. Vətəndaş mobil telefon vasitəsilə həkim seçə, onların boş vaxtlarını izləyə, növbəni dəyişə və qəbul tarixini dəqiqləşdirə bilməlidir. Bundan başqa, vahid elektron sağlamlıq kartı olmalıdır. Xəstənin analizləri, MRT və



KT nəticələri, peyvəndləri, allergiyaları, əməliyyatları və istifadə etdiyi dərmanlar bir platformada toplanmalıdır. Bu, həm təkrar müayinələrin qarşısını alar, həm də diaqnostikanın keyfiyyətini artırar. Düzdür, bu istiqamətdə müəyyən işlər görülür. Belə ki, bununla bağlı Səhiyyə Nazirliyi tərəfindən Tibbi Rəqəmsal Əkiz platforması yaradılıb. Amma tibdə rəqəmsal istiqamətində işlər sürətləndirilməlidir".

M.Məmmədli qeyd edib ki, laboratoriya və görüntüləmə nəticələrinin inteqrasiyası da rəqəmsallaşamaya ehtiyac duyulan istiqamətlərdəndir. Müxtəlif xəstəxanalarda aparılmış analizlərin yenidən təkrarlanmasına ehtiyac qalmamalıdır. Həmçinin telemedisina xidmətləri genişləndirilməlidir. Xüsusilə regionlarda yaşayan vətəndaşların Bakıdakı ixtisaslaşmış həkimlərlə məsafədən konsultasiya imkanları artırılmalıdır.

Deputat vurğulayıb ki tibb sahəsində süni intellekt və qərar dəstək sistemləri formalaşdırımalıdır: "Radiologiya, patoloji, ailə təbabəti və risk qruplarının erkən müəyyən edilməsində süni intellektdən istifadə səhiyyənin növbəti inkişaf mərhələsidir. Bu istiqamətdə artıq müəyyən işlər görülür. Məsələn, icbari tibbi sığorta sisteminin rəqəmsal platformaları formalaşdırılıb, TƏBİB tabeliyindəki müəssisələrin böyük hissəsində xəstə məlumatlarının elektron idarə olunmasına başlanılıb, elektron göndəriş sistemi tətbiq edilib, rəqəmsal laborator informasiya sistemləri və elektron tibbi sənədlərin genişləndirilməsi istiqamətində işlər davam etdirilir, səhiyyə məlumat bazalarının inteqrasiyası və vahid rəqəmsal ekosistemin yaradılması üzrə layihələr həyata keçirilir. Lakin vətəndaşın əsas gözləntisi hələ tam qarşılanmayıb. İnsanlar rəqəmsal transformasiyanı yalnız layihələrdə deyil, gündəlik xidmətlərdə görmək istəyirlər. Elektron resept, vahid onlayn növbə, mobil tətbiq üzərindən bütün tibbi xidmətlərə çıxış və şəxsi elektron sağlamlıq kabineti artıq yaxın perspektivin deyil, bu günün tələbləridir".

M.Məmmədli bildirib ki, nəticə etibarilə, səhiyyənin rəqəmsallaşdırılmasının əsas məqsədi yalnız kağız sənədləri elektronlaşdırmaq deyil, daha əlçatan, şəffaf, daha sürətli və vətəndaş mərkəzli səhiyyə sistemi qurmaqdır. Bu istiqamətdə dövlət tərəfindən mühüm addımlar atılır.

Deputat hesab edir ki, növbəti mərhələdə elektron resept, vahid onlayn növbə sistemi və inteqrasiya olunmuş elektron sağlamlıq kartının tam tətbiqi rəqəmsal transformasiyanın əsas prioritetləri olmalıdır.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Çin əlaqələri Orta dəhlizin inkişafına mühüm töhfələr verir



**Müasir dövrdə qlobal siyasi və iqtisadi nizam sürətli dəyişikliklərə məruz qalır. Belə şəraitdə dövlətlərarası münasibətlər həm regional, həm də qlobal təhlükəsizliyə birbaşa təsir edir. Hazırda Avrasiya məkanında yeni nəqliyyat və ticarət xəritəsi formalaşır. Bu prosesin mərkəzində dayanan ən mühüm faktorlardan biri Azərbaycanla Çin arasındakı strateji yaxınlaşmadır. İki ölkənin milli maraqları uzlaşaraq, ikitərəfli əlaqələri inkişaf etdirməklə yanaşı, qlobal təchizatın yenidən qurulmasına güclü təkan verir.**

Azərbaycan-Çin münasibətlərinin inkişafında ötən il reallaşan tarixi hadisələr mühüm rol oynayır. Belə ki, 2025-ci ildə Prezident İlham Əliyevin Çin Xalq Respublikasına etdiyi dövlət səfəri iki ölkə arasındakı əlaqələri keyfiyyətcə tamamilə yeni müstəviyə daşıdı. Səfər çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələrinin Qurulması haqqında Birgə Bəyanat" bu əməkdaşlığın gələcək yol xəritəsini müəyyən edən sənədə çevrildi.

Bu tarixi sənəd, sadəcə, siyasi dialoqun dərinləşməsini ehtiva etmir. Birgə bəyanat eyni zamanda ticarət, investisiya qoyuluşu, nəqliyyat-logistika, "yaşıl enerji", rəqəmsal iqtisadiyyat və sənaye sahələrində genişmiqyaslı əməkdaşlığı əhatə edir. Hər iki dövlətin göstərdiyi siyasi iradə münasibətləri real və uzunmüddətli iqtisadi layihələrə çevirmək məqsədi daşıyır. Bununla da Bakı ilə Pekin arasındakı qarşılıqlı fəaliyyət bütün sahələrdə əhəmiyyətli dərəcədə fəallaşıb.

İkitərəfli münasibətlərin ən nəzərəçarpacaq və praktiki nəticələri özünü iqtisadi sahədə biruzə verir. Son illərdə Çin şirkətlərinin Azərbaycan iqtisadiyyatında, xüsusilə də qeyri-neft sektorunda iştirakı davamlı şəkildə genişlənməkdədir. Çin investisiyalarının ölkəmizə cəlb edilməsi respublikanın sənaye potensialını gücləndirməklə yanaşı, yeni texnologiyaların transferinə də zəmin yaradır. Hazırda Çin kapitalının əsas fokuslandığı sahələr qeyri-neft sektoru, əsasən bərpaolunan "yaşıl enerji" layihələri, sənaye parkları, yüksək texnologiyalar və beynəlxalq nəqliyyat-logistika infrastrukturudur. Azərbaycanın strateji hədəfi olan "yaşıl enerji"yə keçid Çin investorları üçün də geniş imkanlar açır. Günəş və külək enerjisi stansiyalarının tikintisində Çin texnologiyalarından istifadə mühüm yer tutur. Bundan başqa, yüksək texnologiyalar və rəqəmsal infrastruktur layihələrində Çin şirkətləri fəal tərəfdaş kimi çıxış edir. Ölkəmizdə fəaliyyət göstərən sənaye zonalarında Çin sərmayəsi ilə yeni istehsal müəssisələri qurulur.

Nəqliyyat-logistika sektoru Azərbaycan-Çin münasibətlərində ən sürətlə inkişaf edən və qlobal təsirə malik olan istiqamətdir. Çindən gələn və Azərbaycan vasitəsilə Avropaya daşınan tranzit yüklərin həcmi, həmçinin ölkəmizə birbaşa idxal olunan Çin məhsullarının miqdarı ildən-ilə rekord səviyyədə artır. Bu dinamika Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun, yəni Orta dəhlizin qlobal təchizatındakı əvəzedilməz rolunu ortaya qoyur.

Orta dəhliz Çin, Mərkəzi Asiya, Xəzər dənizi hövzəsi, Cənubi Qafqaz və Türkiyə ərazisindən keçərək Avropa bazarlarını birləşdirən ən perspektivli multimodal nəqliyyat dəhlizidir. Son zamanlar bu marşrutla konteyner daşımalarının sürətlə artması sübut edir ki, Orta dəhliz beynəlxalq yükdaşımalar üçün əsas strateji xəttə çevrilib. Yolun zaman və məsafə baxımından qısa olması onu qlobal ticarət üçün olduqca cəlbedici edir.

Avrasiyada baş verən son geosiyasi və geoiqtisadi dəyişikliklər Orta dəhlizin önəmini daha da artırır. Mövcud regional münaqişələr ənənəvi ticarət yollarının funksionallığını ciddi şəkildə təhlükə altına qoyub. Belə bir vəziyyətdə beynəlxalq logistika şirkətləri daha təhlükəsiz və dayanıqlı yollara üz tutmağa məcbur olur.

Orta dəhlizin aktuallığını şərtləndirən əsas geosiyasi amilləri fərqli şəkildə qruplaşdırmaq olar. Məsələn, şimal istiqamətindəki geosiyasi gərginliklər ənənəvi daşıma marşrutlarının cəlbediciliyini müəyyən dərəcədə azaldıb. Tətbiq edilən beynəlxalq sanksiyalar, sığorta risklərinin kəskin artması və tədarükdə yaranan qeyri-müəyyənlik qlobal şirkətləri alternativ yollar axtarmağa sövq edib. Digər tərəfdən, Yaxın Şərqdəki hərbi-siyasi böhranlar və risklər də vəziyyətə ciddi təsir göstərib. Bu gərginliklər cənub marşrutu üzrə daşımaların təhlükəsizlik səviyyəsini minimuma endirib və Orta dəhlizi ən etibarlı seçimə çevirib.

Bəlkə də yaxın keçmişdə Orta dəhlizə sıradan bir tranzit xətt kimi baxanlar indi onun yeganə sabit marşrut olduğunu qəbul edirlər. Təhlükəsiz, hərbi risklərdən uzaq və iqtisadi cəhətdən etibarlı olan bu marşrut uzunmüddətli perspektivdə Avrasiyanın əsas ticarət yolu olacaq.

Azərbaycan dövləti bu tarixi fürsəti düzgün qiymətləndirərək uzun illərdir ki, məqsədyönlü logistika imkanları yaradıb. Ölkəmizdə qurulan müasir nəqliyyat-tranzit infrastrukturu regional layihələrin icrasına tam cavab verir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, yenilənən dəmir yolları, beynəlxalq hava limanları və magistral yollar respublikamızın nəqliyyat-logistika imkanlarını maksimuma çatdırıb. Lakin Bakı bununla da kifayətlənmir, tranzit imkanlarının daha da genişləndirilməsi, rəqəmsal gömrük sistemlərinin tətbiqi və logistik prosedurların sadələşdirilməsi istiqamətində işləri fasiləsiz davam etdirir.

Bakı indi böyük regional mərkəzə çevrilib. Paytaxtımız xarici ticarətin, investisiyaların və strateji qərarların cəmləşdiyi əsas məkandır. Hazırkı reallıqlar Orta dəhlizin çəkisinin yaxın illərdə daha da yüksələcəyini göstərir. Həmin çərçivədə Azərbaycan-Çin tərəfdaşlığı hər iki ölkənin maraqlarını təmin edir. Bu tərəfdaşlıq isə bütövlükdə Avrasiya məkanında yeni, ədalətli və dayanıqlı ticarət sisteminin bərqərar olmasına, ölkələrin əhalisinin rifahının yüksəlməsinə misilsiz töhfələr verir.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Anastasiya LAVRİNA: "Azərbaycan yeni dünya nizamında mövqeyini daha da möhkəmləndirir"

**"Bu gün Azərbaycan öz inkişafının yeni mərhələsindədir. Ərazi bütövlüyünün və tam suverenliyinin bərpasından sonra ölkəmizin qarşısında yeni strateji vəzifə dayanır - tarixi Zəfəri uzunmüddətli iqtisadi, texnoloji və geosiyasi inkişafın möhkəm təməlinə çevirmək. Qarabağın və Şərqi Zəngəzurun bərpasına, Orta dəhlizin inkişafına, enerji təhlükəsizliyinin gücləndirilməsinə və rəqəmsal transformasiyaya məhz bu kontekstdə yanaşmaq lazımdır. Bunlar ayrı-ayrı istiqamətlər deyil, Azərbaycanın gələcək inkişaf modelinin bir-biri ilə sıx bağlı elementləridir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvü, ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun elmi tədqiqatçısı Anastasiya LAVRİNA deyib.**



O bildirib ki, azad edilmiş ərazilərin dirçəldilməsi bu prosesdə xüsusi əhəmiyyət daşıyır.

"Qarabağ və Şərqi Zəngəzur bu gün müasir infrastrukturun yaradıldığı, "yaşıl enerji"nin inkişaf etdirildiyi, rəqəmsal texnologiyaların tətbiq olunduğu və yeni iqtisadi mərkəzlərin formalaşdığı bir məkana çevrilir. Azərbaycan dünyaya suverenlik, ərazi bütövlüyü və beynəlxalq hüquq prinsiplərinə əsaslanan öz postmünaqişə bərpa modelini nümayiş etdirir. Eyni zamanda Azərbaycanın geoiqtisadi rolu da dəyişir. Qlobal logistika zəncirlərinin yenidən formalaşdığı bir dövrdə Orta dəhliz Azərbaycanı Şərqlə Qərb arasında mühüm bağlantı mərkəzlərindən birinə çevirir. Enerji sahəsində ölkəmiz artıq özünü etibarlı tərəfdaş kimi təsdiqləyib və bu gün bərpaolunan enerji mənbələrinin inkişafı hesabına bu rolunu daha da genişləndirir. Rəqəmsal transformasiya və süni intellekt isə dövlətin gələcək rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən birinə çevrilir", - deyə o bildirib.

Anastasiya Lavrinanın sözlərinə görə, Azərbaycanın beynəlxalq nüfuzu bu gün yalnız onun iqtisadi və coğrafi potensialı ilə müəyyən edilmir. Prezident İlham Əliyevin - ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş qalib Liderin şəxsi siyasi nüfuzu və beynəlxalq hüquq prinsiplərinə əsaslanan ardıcıl mövqeyi də burada xüsusi əhəmiyyət daşıyır.

Ekspert bildirib ki, iştirak etdiyi IV Şuşa Qlobal Media Forumu bu reallığın beynəlxalq səviyyədə necə qəbul olunduğunu aydın şəkildə nümayiş etdirib. "Beynəlxalq media və ekspert ictimaiyyətinin nümayəndələri Prezidentimizin fikrini yalnız Cənubi Qafqazla bağlı deyil, regionun hüdudlarından çox-çox kənarda baş verən proseslər barədə də öyrənməyə çalışırdılar. Azərbaycanın xarici siyasəti ardıcıl, balanslaşdırılmış və müstəqil xarakter daşıyır. Biz dəfələrlə bəyan etdiyimiz kimi, Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir, eyni zamanda Rusiya ilə münasibətlərimizi inkişaf etdiririk. Azərbaycan İsraillə sıx əməkdaşlıq edir və İranla da qarşılıqlı fəaliyyət göstərir, bütün bu münasibətlərdə öz milli maraqlarını əsas tutur. Vaşinqtonla münasibətlər də yeni mərhələyə qədəm qoyub. Azərbaycan və ABŞ rəhbərliyi arasında formalaşmış birbaşa siyasi dialoq ölkəmizin və onun Liderinin artan beynəlxalq nüfuzunun daha bir göstəricisidir", - deyə ekspert bildirib.

Anastasiya Lavrina vurğulayıb ki, Azərbaycanın gələcək inkişaf modeli müstəqil dövlətçilik prinsiplərinə əsaslanır. "Mən Azərbaycanın gələcək inkişaf modelini öz daxili və xarici siyasətini müstəqil şəkildə müəyyən edən, Qarabağı bərpa edən, yeni nəqliyyat və enerji marşrutlarını inkişaf etdirən, müasir texnologiyalara sərmayə qoyan və təhlükəsizliyini gücləndirən qüdrətli və suveren dövlət kimi görürəm. Azərbaycan artıq qlobal transformasiya şəraitində passiv müşahidəçi deyil, yeni geosiyasi reallıqların formalaşmasında söz sahibi olan dövlətlər sırasındadır. Azərbaycan artıq, sadəcə, dəyişən dünya nizamına uyğunlaşmır. Ardıcıl dövlət siyasəti və güclü Liderlik sayəsində ölkəmiz bu yeni sistemdə öz yerini daha da möhkəmləndirir və mövqeyi getdikcə daha çox eşidilmək istənilən dövlətə çevrilir", - deyə Anastasiya Lavrina fikrini yekunlaşdırıb.

# Azərbaycanın "yaşıl enerji"si sərhədləri aşacaq

## Yaxın zamanda ölkəmiz Gürcüstan və Türkiyə üzərindən Bolqarıstana bərpaolunan enerji ixrac edəcək



**"Yaşıl enerji" potensialının böyük olması ölkəmizin enerji xəritəsində yeni reallıq yaradır. Quruda 135 QVt, dənizdə isə 157 Qvt texniki potensial Azərbaycanın regionda və daha geniş coğrafiyada "yaşıl enerji" mərkəzinə çevrilməsi üçün möhkəm zəmin rolunu oynayır.**

Mühüm məqamlardan biri də işğaldan azad edilmiş ərazilərimizin və Naxçıvan MR-in Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan olunmasıdır. Belə ki, bərpaolunan enerji mənbələrinin texniki potensialı Qarabağ və Şərqi Zəngəzurda 10 QVt, Naxçıvanda isə 5 QVt səviyyəsində qiymətləndirilir.

Qarşıdakı qoyulan hədəflər də bəllidir. Azərbaycanın 2020-ci ildə qarşıya qoyduğu məqsədə uyğun olaraq, 2030-cu ilə qədər elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmağı hədəflənib. Proqnozlara görə, 2027-ci ildə elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payı 25 faizə, 2030-cu ildə isə 30 faizə yüksələcək. Bu isə təkcə enerji balansının şaxələndirilməsi deyil, həm də qaz ehtiyatlarının daha səmərəli istifadəsi və ixrac potensialının artması deməkdir.

Hazırda icra olunan birinci mərhələ üzrə 2027-ci ilin sonunadək təxminən 2 QVt gücündə bərpaolunan enerji mənbələrinin istismara verilməsi gözlənilir. Növbəti mərhələdə isə əlavə 6 giqavatdan çox gücün yaradılması nəzərdə tutulur. Gələcəkdə istehsal olunan "yaşıl enerji"nin xeyli hissəsi ixraca yönəldiləcək.

İndi reallaşmasının müxtəlif mərhələlərində olan Mərkəzi Asiya-Azərbaycan, Azərbaycan-Naxçıvan-Türkiyə-Avropa, Xəzər-Qara dəniz-Avropa və Azərbaycan- Gürcüstan-Türkiyə-Bolqarıstan "yaşıl enerji" dəhlizləri layihələri də məhz bundan xəbər verir. Beləliklə, Azərbaycan "yaşıl enerji"nin həm istehsalını, həm tranzitini, həm də ixracını həyata keçirəcək.

Qeyd edildiyi kimi, "yaşıl enerji" dəhlizlərindən birinin marşrutu Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstandır. Ümumiyyətlə, indiyədək Azərbaycan ilə Bolqarıstan arasında enerji nəqli və əməkdaşlığı sahəsində bir neçə mühüm memorandum imzalanıb. Keçən il aprelin 4-də bu barədə Bakıda imzalanan sənəd elektrik enerjisinin ötürülməsi və ticarətinə dair dördtərəfli Anlaşma Memorandumudur.

Bir qədər geriyə dönərək xatırlayaq ki, 2009-cu il noyabrın13-də Sofiya şəhərində Azərbaycanın və Bolqarıstanın müvafiq nazirlikləri arasında enerji sahəsində əməkdaşlığa dair ilk rəsmi Anlaşma Memorandumu imzalanmışdı. 2023-cü il aprelin 25-də imzalanan sənəd isə "Həmrəylik Halqası" (Qaz nəqli) Memorandumu idi. Yəni Sofiyada SOCAR ilə Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın qazötürücü sistem operatorları arasında əlavə qaz tədarükünə dair Anlaşma Memorandumu imzalanmışdı.

Hazırda xəttin qurulması üçün texniki və iqtisadi planlar hazırlanır. İşlərin sürətləndirilməsi üçün nazirlər səviyyəsində mütəmadi görüşlər keçirilir. Bu il aprelin 17-də Türkiyədə 5-ci Antalya Diplomatiya Forumu çərçivəsində bir sıra digər məsələlərlə yanaşı Azərbaycan-Türkiyə-Avropa və Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan "yaşıl enerji" interkonnektor layihələrinin inkişafı nəzərdən keçirildi. Proseslərin sürətləndirilməsi razılaşdırıldı.

Bu günlərdə isə "Türkiye" qəzeti qardaş ölkənin Energetika və Təbii Sərvətlər Nazirliyinin genişmiqyaslı "yaşıl enerji" dəhlizi layihəsi çərçivəsində Azərbaycandan Bolqarıstana elektrik enerjisinin tədarükünə fəal hazırlıq işlərini davam etdirdiyini bildirib. Xəbər verilib ki, Ankarada "Elektrik TANAP" adlandırılan təşəbbüs çərçivəsində hazırlıq prosesi elektrik şəbəkələrinin tutumunun artırılmasından tutmuş enerji birjalarının hazırlanmasına, transsərhəd ticarət məsələlərinin həllinə və bazarların tənzimlənməsinə qədər bir çox istiqamətdə eyni vaxtda aparılır.

Xəzər regionunu Cənub-Şərqi Avropa ilə birləşdirmək və ekoloji cəhətdən təmiz bərpaolunan enerjinin birbaşa ötürülməsini təmin etmək məqsədi daşıyan fiziki marşrutun formalaşmasına dövlətə məxsus TEİAŞ elektrik şəbəkəsi korporasiyası qoşulub.

Başqa sözlə, TEİAŞ iştirakçı ölkələrin elektrik şəbəkəsi operatorları ilə texniki koordinasiyanı dəstəkləyir. Məqsədlərdən biri elektrik birləşdiricilərinin - şəbəkələrarası enerji axınlarını asanlaşdıracaq yüksəkgərginlikli elektrik xətlərinin yaradılmasıdır.

Layihəyə Türkiyənin EPİAŞ enerji birjası və Türkiyə Enerji Bazarını Tənzimləmə İdarəsi (EPDK) da cəlb olunub.

"Beləliklə, elektrik enerjisi mübadiləsi şəbəkələrinin təkmilləşdirilməsi ilə yanaşı, EPİAŞ xətti ilə genişmiqyaslı təşəbbüs üçün kommersiya bazası yaradılır", - deyə nəşr Türkiyənin hazırda əməliyyat həcminə görə Avropada üçüncü ən böyük elektrik enerjisi birjasına malik olduğunu xatırladaraq qeyd edir.

Nəhayət, EPDK elektrik enerjisi ticarəti üçün hüquqi çərçivənin hazırlanması kontekstində təşəbbüsə töhfə verir. Bu təşkilat Türkiyənin iştirak etdiyi beynəlxalq layihələrdə fəal rol oynayır.

Qəzet yekun olaraq bildirir ki, "Elektrik TANAP" layihəsi sayəsində Türkiyə təkcə neft və qaz deyil, həm də regionda elektrik enerjisi üçün təchizat dəhlizinə çevrilməyə hazırlaşır. Beləliklə, ölkə qlobal enerji ticarət bazarındakı mövqeyini də gücləndirir.

***Flora SADIQLI, "Azərbaycan"***

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, iyulun 20-də ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov Şəmkir rayonunda Şəmkir, Gədəbəy, Daşkəsən, Samux və Göygöldən olan sakinlərin müraciətlərini dinləyib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdən əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyularaq dahi şəxsiyyətin əziz xatirəsi anılıb.

Vətəndaş qəbulu zamanı ətraf mühitin mühafizəsi, yaşıllıqların qorunması, mineral xammal, işlə təminolunma və digər aidiyyəti məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin araşdırılması və zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul əməkdaşlarına müvafiq tapşırıqlar verilib. ETSN-in fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydiyyata alınıb.

❖ ❖ ❖

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iyulun 20-də Xaçmaz şəhərində Quba, Qusar və Xaçmaz rayonlarının sakinləri ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdən əvvəl nazir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Vətəndaşlarla görüş zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb.

Müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verilib.

Vətəndaşların müraciətlərində göstərilən problemlərin bir qismi dərhal müsbət həllini tapıb.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

❖ ❖ ❖

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov iyulun 20-də Xankəndi Elektrik Şəbəkəsinin inzibati binasında Xankəndi, Şuşa, Xocalı və Ağdərədə yaşayan vətəndaşlarla görüşüb. ASC-dən AZƏRTAC-a bildirilib ki, görüş zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb. Həlli araşdırma tələb edən məsələlərlə əlaqədar yazılı müraciət qeydə alınaraq aidiyyəti şöbələrin icraatına göndərilib.

Adıçəkilən şəhər və rayonların sakinləri regionların elektrik şəbəkələrində həyata keçirilən yenidənqurma işləri barədə məmnunluqlarını ifadə edib, vətəndaşlara göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

"Azərişıq" ASC-nin həyata keçirdiyi yenidənqurma və maariflədirmə tədbirləri kimi regionlarda vətəndaşlarla təşkil olunan görüşlər də abonentlərin dayanıqlı, fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına, həmçinin elektrik enerjisi itkilərinin minimuma endirilməsinə hədəflənib.

# REGİONLAR

## Neftçalada aqrar sahənin inkişafına dair dövlət proqramının icrası müzakirə edilib





**Neftçala Rayon İcra Hakimiyyətində Prezidentin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı tədbir keçirilib.**

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mirhəsən Seyidov, dövlət proqramının icrası ilə əlaqədar RİH başçısı yanında yaradılmış Əlaqələndirmə Qərargahının üzvləri, "Prime-Cotton", "P-Agro", "Azərpambıq", "Sr-Dalğa", "Azerbaijan Fish Farm", "Xıllı Balıqartırıma" MMC-lər və aqrar sahədə fəaliyyət göstərən digər müəssisələrin əməkdaşları, eləcə də inzibati ərazi dairələr üzrə nümayəndələr və bələdiyyələr, iri fermer təsərrüfatlarının rəhbərləri, sahibkarlar və aidiyyəti şəxslər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan M.Seyidov bildirdi ki, dövlət proqramının icrası və 5 il ərzində rayonun sosial-iqtisadi inkişafı ilə bağlı Neftçala rayonu üzrə 2026-2030-cu illərdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair iş planı hazırlanmalı, rayonda aqrar sahədə mövcud vəziyyət geniş təhlil olunmalı, torpaq resurslarının qorunması və ondan səmərəli istifadə edilməsi məqsədilə əkinəyararlı bütün torpaq sahələri dəqiqləşdirilməli, istifadə olunmayan kənd təsərrüfatına yararlı torpaq sahələrində, o cümlədən iri fermer təsərrüfatlarında müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artırılması, su resurslarından səmərəli istifadə mexanizmlərinin, o sıradan müasir suvarma və pivot sistemlərinin tətbiqi, buğda, pambıq, intensiv bağçılıq, akvakultura və balıqçılıq üzrə tətbiq edilən dövlət güzəştləri barədə sahibkarlar arasında maarifləndirilmə işinin aparılması əsas hədəflərdən biri kimi müəyyən olunmalıdır. RİH başçısı, eyni zamanda fermerlərə dövlət dəstəyi mexanizmlərindən daha geniş yararlanmaları istiqamətində dəstək göstərilməsi, statistik məlumatların dəqiqləşdirilməsi, qarşıda duran vəzifələr və fəaliyyət istiqamətləri üzrə aidiyyəti qurumlar arasında əlaqələndirmənin və koordinasiyanın daha da təkmilləşdirilməsinin vacibliyini vurğuladı.

Çıxış edən RİH başçısının müavini-Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri Burcalı Ağayev Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən, dövlət proqramının mahiyyətindən, əsas məqsədlərindən və kənd təsərrüfatı istehsalatının hədəf göstəricilərindən ətraflı məlumat verdi. Digər çıxış edənlər - Neftçala Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor müavini Elsevər Əsədov, Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Təbriz Eyyubov, Elektrik Şəbəkəsinin rəisi Ağababa Babayev dövlət proqramının aqrar sektorun inkişafına mühüm töhfə verəcəyini qeyd edərək yüksək reproduksiyalı toxumçuluğun genişləndirilməsi, müasir əkinçilik texnologiyalarının tətbiqi, su və torpaq ehtiyatlarından səmərəli istifadə, fermerlərlə dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, fasiləsiz su təminatı ilə bağlı texniki avadanlıqların dayanıqlı elektrik enerjisi ilə təmin olunması, kənd təsərrüfatı məhsullarının istehsal və emal zəncirinin təkmilləşdirilməsi istiqamətində görüləcək işlər barədə fikirlərini bölüşdülər.

Tədbirdə "Caspian İrrigation" MMC əkin sahələrinin suvarma sistemləri ilə təmin olunması, su ehtiyatlarından səmərli istifadə edilməsi ilə əlaqədar müasir suvarma avadanlıqlarının əkin sahələrində tətbiqi barədə fermerlərə maarifləndirici məlumat verildi.

İclasın sonunda Əlaqələndirmə Qərargahının fəaliyyətinin səmərəli təşkili, iş planının vaxtında və hərtərəfli hazırlanması, aidiyyəti məlumatların operativ toplanması və ümumiləşdirilməsi, habelə əlaqələndirmə işlərinin çevik və effektiv həyata keçirilməsi ilə bağlı iştirakçılara müvafiq tapşırıqlar verildi.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Ağsaqqallar şuraları hesabat verirlər

**Yardımlı Rayon Ağsaqqallar Şurasının hesabat konfransında RİH-in başçısı Ayaz Əsgərov, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, akademik Abel Məhərrəmov, ziyalılar, şəhid valideynləri, gənclər və ictimaiyyətin digər nümayəndələri iştirak ediblər.**

Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar. RİH-in inzibati binasında davam edən tədbirdə giriş sözü ilə çıxış edən Ayaz Əsgərov Ümummilli Lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin ətrafında sıx birləşən ağsaqqalların ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolundan və xidmətlərindən bəhs edib. Vurğulanıb ki, Ulu Öndərin ideyalarına sadiq olan ağsaqqallarımız dövlətçiliyin qorunmasında, gənclərin maarifləndirilməsində, vətənpərvərlik və milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə edilməsində xüsusi rol oynayırlar.

Sonra Yardımlı Rayon Ağsaqqallar Şurasının sədri Etibar Əməşovun hesabat dövrü ərzində təşkilatın gördüyü işlər və qarşıda duran vəzifələr barəsində məruzəsi dinlənilib. Təşkilatın fəaliyyəti iştirakçılar tərəfindən yüksək qiymətləndirilib.

Söz alan akademik Abel Məhərrəmov rayonda növbəti dəfə ağsaqqallarla görüşməkdən məmnun olduğunu bildirib. Ağsaqqal sözünün xüsusi məna kəsb etdiyini vurğulayaraq qeyd edib ki, ağsaqqal bütün parametrlər üzrə mükəmməl, nüfuzlu, hörmətli, dünyagörüşlü, xeyirxah, təəssübkeş olmalı və bir çox digər müsbət keyfiyyəti özündə birləşdirməlidir. O, Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycan üçün ximətlərindən də ətraflı bəhs edib.

Konfransda çıxış edən digər natiqlər də Yardımlı Rayon Ağsaqqallar Şurası tərəfindən görülən işlərdən və qarşıda duran vəzifələrdən söz açıblar. Qeyd ediblər ki, cəmiyyətimizdə yüksək nüfuza malik olan ağsaqqallarımızın bilik və təcrübəsindən hərtərəfli və səmərəli istifadə olunmalıdır.

❖ ❖ ❖

Şuranın Astara rayon təşkilatının konfransı da Ulu Öndər Heydər Əliyevin abidəsinin ziyarət edilməsi və torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Çıxış edən RİH-in başçısı Qəzənfər Ağayev fəaliyyəti dövründə ağsaqqalların dəyərli məsləhətlərinə həmişə xüsusi önəm verdiyini qeyd etdi, yaşayış məntəqələrində mütəmadi olaraq keçirilən səyyar qəbullarda ağsaqqalların verdiyi təkliflərə, qaldırılan problemlərin həllinə həssaslıqla yanaşdığını vurğuladı. Ölkənin, o cümlədən regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramlarının rayonda icra edilməsində cəmiyyətin digər təbəqələri ilə yanaşı, ağsaqqalların da aparıcı rolu olduğundan danışan natiq xatırlatdı ki, 2017-ci ildə Prezident İlham Əliyevin sədrliyi ilə Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilmiş və dövlət proqramları təsdiq edilmişdir. Həmin ildən başlayaraq rayona xarici ölkələrdən yeni məhsuldar sitrus tingləri gətirilərək intensiv sitrus bağlarının salınmasının əsası qoyulmuş, nəticədə sitrus meyvə bağlarının sahəsi 2 min hektardan 4 min 500 hektara çatdırılmışdır.

RİH başçısı Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlərdən, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən qlobal layihələrdən də danışdı, bu yeni dövrdə yaşlı nəslin nümayəndələrinin ön sırada olmasını yüksək dəyərləndirdi.

Rayon Ağsaqqallar Şurasının sədri Natiq İbadov hesabat məruzəsi ilə çıxış etdikdən sonra İdarə Heyətinin yeni tərkibi, şuranın və təftiş komissiyasının sədrləri seçildi.

Respublika Ağsaqqallar Şurası sədrinin müavini akademik Abel Məhərrəmov çıxışında Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından, Azərbaycanı inkişaf etdirərək müasir, hüquqi, demokratik, dünyəvi bir dövlətə çevirməsindən danışdı, həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin inkişafı, tərəqqisi naminə aparılan işlərdə ağsaqqalların rolundan bəhs etdi.

***S.QUBADOĞLU,***
***"Azərbaycan"***

## Daşkəsəndə Aqroturizm Festivalı keçirilib

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və Daşkəsən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı, dövlət qurumları və tərəfdaşların dəstəyi ilə Daşkəsən rayonu Gənclərin Təlim və İstirahət Mərkəzində Aqroturizm və Aqrar Biznes Festivalı keçirilib.**



Festivalın keçirilməsində əsas məqsəd aqrar sahədə fəaliyyət göstərən dövlət qurumları, özəl sektor nümayəndələri və fermerlər arasında əməkdaşlığın daha da gücləndirilməsi, kənd təsərrüfatı sahəsində innovativ yanaşmaların təşviqi, regionun aqroturizm potensialının tanıdılması və yerli istehsalçıların məhsullarının geniş auditoriyaya təqdim olunması olub.

Aqrar Biznes Festivalı çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin tabeli qurumları, həmçinin aqrar sahədə fəaliyyət göstərən şirkətlər tərəfindən stendlər qurulub, müasir kənd təsərrüfatı texnologiyaları, məhsul və xidmətlər nümayiş etdirilib. Fermerlərə subsidiyalar, aqrar sığorta, güzəştli maliyyə alətləri və digər dövlət dəstəyi mexanizmləri barədə ətraflı məlumat verilib.

Festival çərçivəsində Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair Dövlət Proqramının məqsəd və hədəflərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə proqramın əsas prioritetlərini əks etdirən təqdimat materialları stendlərdə nümayiş olunub.

Eyni zamanda dövlət proqramında nəzərdə tutulan prioritet istiqamətlər, aqrar sahənin inkişafı üzrə tədbirlər və dövlət dəstəyi mexanizmləri barədə festival iştirakçılarına ətraflı məlumatlar təqdim edilib.

Aqroturizm festivalı çərçivəsində rayonun kənd təsərrüfatı məhsullarının sərgi-satışı təşkil edilib, yerli istehsalçılar tərəfindən müxtəlif kənd təsərrüfatı məhsulları, milli mətbəx nümunələri və digər yerli məhsullar nümayiş etdirilib. Festivalda rayonun kənd təsərrüfatı məhsulları, xalq sənətkarlığı nümunələri, əl işləri, bal, süd, meyvə-tərəvəz və digər yerli istehsal məhsullarından ibarət sərgilər təşkil olunub, milli mətbəx nümunələri nümayiş etdirilib. İdman yarışları, uşaqlar üçün əyləncə zonaları, STEAM layihələri üzrə təqdimatlar festival iştirakçılarının böyük marağına səbəb olub.

Tədbir iştirakçıları üçün müxtəlif əyləncə proqramları təşkil olunub, günün sonunda isə konsert proqramı ilə başa çatıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Qusarda keçirilən konfrans mediada dini mövzuların təqdimatına həsr olunmuşdu

**Qusarda Azərbaycan milli mətbuatının 151 illiyinə həsr olunmuş "Dini mövzuların mediada təqdimatı: dini sabitliyin qorunmasında birgə məsuliyyət" mövzusunda konfrans keçirilib.**

"Şahdağ" Turizm Mərkəzində baş tutan tədbirdə öncə respublikamızda multikultural dəyərlərə söykənən tolerant mühiti özündə birləşdirən "Azərbaycan - sülh və harmoniya məkanı" və "Hər məsciddə kitabxana" layihələrinə həsr olunmuş videoçarx nümayiş olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirə dövlət qurumlarının nümayəndələri, media rəhbərləri, jurnalistlər, din xadimləri, ilahiyyatçılar və ekspertlər qatılıb. Konfransda giriş sözü ilə Qusar Rayon İcra Hakimiyyətinin başçısı Sahir Məmmədxanov çıxış edib. Vurğulayıb ki, milli-mənəvi dəyərlərin qorunması, dini tolerantlıq mühitinin möhkəmləndirilməsi və bu istiqamətdə medianın apardığı iş diqqətəlayiqdir. Qusar ölkəmizin tolerant rayonlarından biridir. Burada dini adətlərə, qədim abidələrə hörmətlə yanaşılır. 44 günlük Vətən müharibəsində qusarlı gənclər torpaq qarşısında öz sözlərini qanları ilə yazıblar.




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov çıxışında ölkədə dini maarifləndirmə sahəsində həyata keçirilən layihələr barədə məlumat verib. O, "Hər məsciddə kitabxana" layihəsinin dini icmalar arasında maariflənmənin gücləndirilməsinə xidmət etdiyini bildirib. Komitə sədri həmçinin AMİN informasiya sisteminin dini sahədə xidmətlərin daha operativ və şəffaf təşkilinə imkan yaratdığını qeyd edib. R.Məmmədov "Azərbaycan - sülh və harmoniya məkanı" layihəsinin ölkənin tolerantlıq və multikulturalizm ənənələrinin beynəlxalq səviyyədə tanıdılmasına töhfə verdiyini də vurğulayıb.

AZƏRTAC-ın İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılov bildirib ki, dini mövzulara həssas yanaşma jurnalistin borcudur. Azərbaycan tolerant ölkədir və hər bir media qrupu bu mövzularda savadlı yanaşmaya söykənməlidir. Digər çıxış edənlər də Azərbaycanda din-media münasibətlərinin keçmişdən gələn sağlam əsaslar üzərində inkişaf etdiyini diqqətə çatdırıblar. Bildirilib ki, dini mövzuların obyektiv təqdim olunması medianın üzərinə düşən əsas vəzifələrdəndir. Dini abidələrin mühafizəsi, onların tarixinin işıqlandırılması və insanlara çatdırılması medianın qurumlarının işidir. Bu sahədə çoxşaxəli iş aparılır.

Daha sonra konfrans panel müzakirələri ilə davam edib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılovun moderatorluğu ilə keçirilən ilk panel "Rəqəmsal media və dini diskurs: informasiya manipulyasiyası və dezinformasiya" mövzusuna həsr olunub. Rəqəmsal platformalarda dini məzmunun təqdim edilməsi, dezinformasiyaların aradan qaldırılması, informasiya təhlükəsizliyi və media savadlılığının artırılması məsələləri müzakirə olunub. Rəqəmsal medianın inkişafı haqqında maraqlı misallar varaqlanıb.

İkinci panel BDU-nun Jurnalistika fakültəsinin dekanı, Mətbuat Şurası sədrinin müavini Vüqar Zifəroğlunun moderatorluğu ilə "Peşəkarlıq və dini savadlılıq: mənəvi dəyərlərin qorunmasında medianın məsuliyyəti" mövzusunda müzakirələrlə keçirilib. Dini savadlılığın artırılması, milli-mənəvi dəyərlərin qorunmasında medianın rolu və dini mövzuların balanslı, obyektiv təqdim edilməsi istiqamətində fikir mübadiləsi aparılıb. Mediatur iştirakçıları panel müzakirələrində yaxından iştirak edib və onları maraqlandırılan suallar cavablandırılıb.

Konfransın sonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov tədbir boyu səsləndirilən fikir və təkliflərin media ilə dövlət qurumları arasında əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyini bildirib.

Konfrans çərçivəsində səhəri gün media nümayəndələri üçün Quba rayonundakı dini ibadət məkanlarını əhatə edən mediatur təşkil olunub. İştirakçılar Quba "Cümə" və "Səkinəxanım" məscidlərini, Dağ Yəhudiləri Muzeyi və "Giləki" sinaqoqunu ziyarət ediblər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Dövlət proqramı Tərtərdə tingçiliyin inkişafına yeni imkanlar açır

**Ölkəmizdə kənd təsərrüfatının mühüm sahələrindən olan bağçılıq və tingçiliyin inkişafı dövlətin diqqət mərkəzindədir. "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda bağçılığın inkişafı əsas istiqamətlərdən biri kimi müəyyən edilib.**

Sənəddə intensiv bağların genişləndirilməsi, müasir suvarma sistemlərinin tətbiqi və məhsuldarlığın artırılması ilə yanaşı, tingçiliyin inkişafı üzrə hüquqi, institusional və dəstək tədbirlərinin hazırlanması və icrası da nəzərdə tutulub. AZƏRTAC xəbər verir ki, meyvə və dekorativ tingçilik üzrə ixtisaslaşmış rayonlardan biri olan Tərtərdə fermerlər həm daxili bazarın tələbatının ödənilməsinə, həm də yeni meyvə bağlarının salınmasına töhfə verirlər. Rayonda yetişdirilən tinglər respublikanın demək olar ki, bütün bölgələrinə göndərilir.

Tərtər Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Arif Behbudov bildirib ki, son illər rayonda meyvə bağları və tingçilik təsərrüfatlarının sahəsi genişlənir. Fermerlər intensiv bağçılığa, eləcə də keyfiyyətli, sertifikatlaşdırılmış tinglərin yetişdirilməsinə üstünlük verirlər.

Onun sözlərinə görə, bol və keyfiyyətli məhsulun təməli məhz sağlam tingdən başlayır. Təkcə ötən il rayonda 2 milyon 955 mindən çox meyvə, 850 mindən artıq dekorativ ting yetişdirilib. Həmin tinglər həm Tərtərdə, həm də ölkənin digər bölgələrində salınan yeni bağlarda istifadə olunur.

Tərtərdə uzun illərdir bu sahə ilə məşğul olan fermerlərdən biri də Natiq Məmmədovdur. O, 25 ildir ki, tingçiliklə məşğul olduğunu və dövlət dəstəyi sayəsində təsərrüfatını ildən-ilə böyütdüyünü vurğulayır: "Tingçiliyə ilk dəfə cəmi 1 hektar sahə ilə başlamışdım. Dövlət tərəfindən ayrılan güzəştli kreditlər və subsidiyalar sayəsində hər il sahələrimizi daha da genişləndirdik. Təsərrüfatımızda müasir damlama suvarma sistemlərini tətbiq edirik. Həm yerli, həm də xarici calaqaltılardan istifadə edərək zəngin sort çeşidi alırıq".



Fermerin sözlərinə görə, təsərrüfatda almanın 20-dən çox, gilasın isə 30-a yaxın müxtəlif sortu yetişdirilir. Alma, armud, heyva və digər meyvə tinglərinə tələbat yüksəkdir. Tinglərin qiyməti növündən asılı olaraq 3-7 manat arasında dəyişir və satış birbaşa təsərrüfatdan həyata keçirilir.

Beləliklə, tərtərli fermerlərin illər ərzində qazandıqları təcrübə, müasir aqrotexniki üsulların tətbiqi və dövlətin aqrar sahəyə göstərdiyi dəstək rayonda tingçiliyin davamlı inkişafına əlverişli zəmin yaradır. Burada yetişdirilən keyfiyyətli tinglər isə respublikanın müxtəlif bölgələrində salınan yeni meyvə bağlarının əsasını təşkil edərək, Tərtərin ölkənin aparıcı tingçilik mərkəzlərindən biri kimi mövqeyini daha da möhkəmləndirir.



# Mədəniyyət



● Məhəmmədhüseyn Şəhriyar - 120

# Zamanı və sərhədləri aşan söz ustadı

**XX əsr poeziyasının zirvəsində qərar tutan Seyid Məhəmmədhüseyn Şəhriyar (əsl adı Seyid Məhəmmədhüseyn Behcəti Təbrizi) Şərqin poetik ruhunu müasir dövrün fəlsəfi təfəkkürü ilə birləşdirən nadir söz xiridarlarındandır. O, həm fars, həm də Azərbaycan dillərində yaratdığı şah əsərlərlə iki fərqli mədəniyyət dünyası arasında bədii körpü salmağı bacarmışdı.**

Şəhriyarın qələmi millətin minillik tarixindən süzülüb gələn adət-ənənələri, Heydər baba dağının timsalında vətənin saf uşaqlıq xatirələrini və ayrılıq acısı ilə qovrulan milyonlarla insanın həsrətini poetikləşdirmişdir. Onun misraları klassik divan ənənəsinin möhtəşəm yekunu və eyni zamanda xalq ruhunun müasir ədəbiyyatdakı ən səmimi, ən coşğun təzahürüdür. Bu gün şairin yoxluğundan onilliklər keçsə də, onun poetik mirası heç bir qadağa, sərhəd və zaman maneəsi tanımadan sönməz bir məşəl kimi daim gur yanmaqdadır.

## Həyat yolu

1906-cı ildə Təbrizdə tanınmış hüquqşünas Hacı Mirağa Xoşginabinin ailəsində dünyaya göz açan Məhəmmədhüseynin uşaqlıq illəri siyasi təlatümlər dövrünə təsadüf edir. O, ilk təhsilini kənd məktəbində Molla İbrahim adlı bir axund və Molla Ağa Məhəmməd Bağırdan alır. Məşrutə inqilabı illərində, yəni şəhərin qarışıq durumundan uzaqlaşmaq üçün ailə onu Heydər baba dağının ətəyində yerləşən Xoşginab kəndinə göndərir. Məhz bu kənd, onun təbiəti, insanları və adət-ənənələri gələcək şairin yaddaşına silinməz izlərlə həkk olunur. Sonra təhsilini "Füyuzat" və "Müttəhidə" mədrəsələrində davam etdirir, 1924-cü ildə Tehrana gəlir və tibb fakültəsinə daxil olur.

Son kursda həyatını tamamilə dəyişəcək böyük bir sarsıntı yaşayır. Nakam sevgi hekayəsi onu həm təhsildən, həm də paytaxt mühitindən uzaqlaşdırır. Lakin tibb elminin itirdiyi bu gənc dünya ədəbiyyatına Şəhriyar imzasını qazandırır. O, qəlbindəki ağrını poetik misralara köçürərək qısa zamanda İranda klassik fars qəzəlinin Hafiz Şirazidən sonra ən böyük ustadı kimi qəbul olunmağa başlayır.

Seyid Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığı çoxşaxəlidir. Azərbaycan, Vətən sevgisi onun əsərlərində möhtəşəmliyi ilə ifadə olunmuşdur. Azadlıq ruhu şairin Vətən mövzulu əsərlərinin poetik vüsətini təşkil edir. Mübarizə, əzm, birlik Şəhriyar poeziyasının mərkəzində dayanır, coşğun bir vüsətlə meydana çıxmışdır. O, öz yaradıcılığında müxtəlif mövzulara müraciət etmiş və yazdığı əsərlərdə duyğularını, fikirlərini səmimiyyətlə ifadə etmişdir. Məhəmmədhüseyn Şəhriyarın ilk mətbu şeiri 1913-cü ildə, 8 yaşındaykən Təbrizdəki Məhəmmədiyyə orta məktəbində oxuduğu zaman "Ədəb" jurnalında dərc edilmişdir. Əsərlərini qəzəl, qəsidə, məsnəvi, qitə, rübai janrında yazan ustad sənətkar klassik şair səviyyəsinə yüksəlmişdir.

Məhəmmədhüseyn Şəhriyar Azərbaycan və İran poeziyasının ən nəhəng simalarından biridir. Tədqiqatçıların araşdırmalarına görə, Şəhriyarın ilk şeir kitabı 1926-cı ildə "Sədaye-xuda" (Tanrının səsi) adı ilə çap olunmuşdur. Öz ana dilinin təəssübkeşliyi Şəhriyar sənətində xüsusi bir mərhələdir. "Türkün dili", "Dərya elədim", "İman ilə getdi", "Azadlıq quşu", "Varlıq", "Türk övladı, qeyrət vaxtıdır" və onlarca başqa şeirlərində o, bu və ya digər formada doğma dilinin intəhasızlığı, danışıq və şeir dili kimi əvəzolunmazlığı və s. haqqında fikirlər söyləyir.

## "Heydərbabaya salam"

Məhəmmədhüseyn Şəhriyarı XX əsr Azərbaycan poeziyasının nəhəngləri sırasına ucaldan ilk növbədə onun ölməz "Heydərbabaya salam" poeması olmuşdur. İki hissədən ibarət olan bu əsərin birinci hissəsini Tehranda, ikinci hissəsini isə Təbrizdə yazmışdır. Birinci hissədə 77, ikinci hissədə isə 48 bənd var. Poemanın birinci hissəsində təbiət təsvirləri, ilin fəsilləri, camaatın əkin-biçinlə məşğul olması, sadə insanların sevinci, kədəri, toyu, matəmi, adət-ənənələri öz əksini tapır. Şair əsərdə "Heydərbaba, səni Vətən bilmişdim, Vətən deyib baş götürüb gəlmişdim" deməklə Heydərbaba dağının onun üçün müqəddəs ana vətənin rəmzinə çevrildiyini etiraf etmişdir. Tədqiqatçılar yazırlar ki, "Heydərbabaya salam" poemasında şairin özünün də bədii obrazı canlandırılmışdır. Akademik Bəkir Nəbiyev bu haqda qeyd etmişdir ki, lirik qəhrəmanla müəllif arasında tam eyniyyət olmasa da, yaxınlıqlar, səsləşmələr müşahidə edilir.

Bir sözlə, Şəhriyar fars dilində böyük şöhrət qazansa da, onun yaradıcılığının zirvəsi doğma ana dilində yazdığı "Heydərbabaya salam" poeması olmuşdur. Poema, sadəcə, bir dağa müraciət deyil, Cənubi Azərbaycanın etnoqrafiyası, xalq inancları, unudulmaqda olan adət-ənənələri və ən əsası, parçalanmış vətənin mənəvi harayı idi. Şair kənd həyatının lövhələrini yaradır, itirilmiş günlərin həsrətini çəkir və oxucunu saf insani dəyərlərə qaytarmağa çalışırdı. Bu əsər həm Quzey, həm də Güney Azərbaycanda dillər əzbəri olmuş, sərhədləri fikirlərdə ortadan qaldıran bir körpüyə çevrilmişdir.

*Heydərbaba, kəkliklərin uçanda,*
*Kol dibindən dovşan qalxib qaçanda,*
*Baxçaların çiçəklənib açanda,*
*Bizdən də bir mümkün olsa yad əylə,*
*Açılmayan ürəkləri şad eylə*

*Heydərbaba, sənin üzün ağ olsun,*
*Dörd bir yanın bulaq olsun, bağ olsun,*
*Bizdən sonra sənin başın sağ olsun,*
*Dünya qəzov-qədər, ölüm-itimdir,*
*Dünya boyu oğulsuzdir, yetimdir.*

*Heydərbaba, yolum səndən kəc oldu,*
*Ömürüm keçdi, gələmmədim gec oldu,*
*Heç bilmədim gözəllərin necə oldu.*
*Bilməz idim döngələr var, dönüm var,*
*İtkinlik var, ayrılıq var, ölüm var*

## Şəhriyarın həyatını dəyişən nakam sevgi hekayəsi

Məhəmmədhüseyn Şəhriyarın gənclik illərində yaşadığı nakam sevgi, sadəcə, şəxsi bir kədərli hadisə deyildi, həm də onun bir şair kimi doğulmasının əsas mənəvi təkanverici qüvvəsi olmuşdur. 1920-ci illərin sonunda Tehranda tibb təhsili alan gənc Məhəmmədhüseyn rəssamlıq və musiqi məclislərinin birində Sürəyya adlı bir qıza (şair əsərlərində onu gizli saxlayaraq "Pəri" adlandırırdı) aşiq olur. Bu sevgi qarşılıqlı olur və gənclər evlənmək qərarına gəlirlər. Sürəyyaya eyni zamanda Rza şahın sarayına yaxın, nüfuzlu və varlı bir general (bəzi mənbələrdə şahın qohumu Çirağəli xan Pəhləvi) da aşiq olmuşdu. Şəhriyar kasıb bir tələbə olduğu üçün qızın ailəsi generalın tərəfini tutur. Şair hədələnir, həbs olunur və tibb fakültəsinin sonuncu kursunda oxuyarkən Tehrandan Nişapura sürgün edilir.

Sürəyya məcburi olaraq generala ərə verilir. Yaşadığı bu ağır mənəvi sarsıntı səbəbindən Şəhriyar həkimlik diplomunu almağa bir neçə ay qalmış təhsilini tamamilə atır, özünü bədii yaradıcılığa həsr edir və Şərq poeziyasının sultanına çevrilir. İllər keçir, Şəhriyar artıq bütün İranda tanınan məşhur bir şair olur. Günlərin bir günü o, Tehranın "Behcətabad" parkında gəzərkən artıq yaşlaşmış və boşanmış köhnə sevgilisi Sürəyya (Pəri) ilə qarşılaşır. Dinməz-söyləməz bir-birlərinə baxırlar. Şəhriyar bu görüşdən sarsılaraq Şərq ədəbiyyatının ən məşhur farsca qəzəllərindən birini - "Hala çera" (İndi niyə?) qəzəlini yazır.

Şəhriyar bu nakam sevgi ilə mənəvi olaraq saflaşır, cismani eşqi ilahi, sufi eşqinə çevirir. Özünün dediyi kimi: "Mən Pərini sevdim, amma o, məni Allaha qovuşdurdu".

## "Yalan dünya" fəlsəfəsi: fanilik və mənəvi saflıq

Şəhriyarın yaşadığı şəxsi itkilər, həmçinin XX əsrin qanlı müharibələri, xalqının parçalanması və sosial ədalətsizliklər onun yaradıcılığında dərin bir "dünya fəlsəfəsi" formalaşdırmışdı. Bu yanaşma onun məşhur "Yalan dünya" şeirində və "Heydərbabaya salam" poemasının fəlsəfi bəndlərində öz mükəmməl ifadəsini tapır.

Şəhriyar üçün maddi dünya aldadıcı bir məkandır, fanidir və etibarsızdır. O, insanı var-dövlət, şan-şöhətlə özünə bağlayır, lakin sonda hamını əliboş qəbirlə baş-başa qoyur:



*Yalan dünya, nağıl dünya, yalan dünya!*
*Süleymanı taxtdan salan, yalan dünya!*

Şair zamanın hər şeyi məhv etdiyini, gəncliyi, gözəlliyi və saf hissləri oğurladığını vurğulayır. O, dünyanın insanı qocaltdığını, lakin insanın arzularının heç vaxt qocalmadığını deyərək hər kəsin bu mənəvi ziddiyyətini dramatik şəkildə təsvir edir.

"Yalan dünya" fəlsəfəsində şair insanları maddiyyata uymamağa çağırır. Dünya pisdir, çünki o, qardaşı qardaşa düşmən edir, insanlığı unutdurur. Lakin bu yalançı dünyada əbədi qalan yeganə şey yaxşılıq, təmiz ad və bəşəri sevgidir:

*Heydər baba, dünyada qalan yaxşılıqdır,*
*Yaxşılıqdan sonra nə var? Baxşılıqdır.*

Ədəbiyyat nəzəyiyyəçilri yazırlar ki, Şəhriyarın fəlsəfəsi klassik Şərq təsəvvüfü ilə sıx bağlıdır. Bu dünyadan küsmək, ona bağlanmamaq, əslində, ruhun azadlığı və Allaha doğru yüksəlişidir. Şair dünyəvi əzabları ruhun saflaşması üçün bir vasitə sayırdı, oxucusuna fani dünyada necə insan qalmağın yollarını göstərirdi.

*Bu dünya fanidir, fani,*
*Bu dünyada qalan hanı?*
*Davud oğlu Süleymanı*
*Təxt üstündən salan dünya.*

*Biri ayna, biri pasdır,*
*Biri aydın, biri kasdır,*
*Gecə toydur, səhər yasdır,*
*Gül içində solan dünya.*

*İgidlərin başın yeyən,*
*Qocalar bozbaşın yeyən,*
*Qəbirlərin daşın yeyən,*
*Özü yenə qalan dünya!*

Şəhriyar təkcə keçmişin nisgilini yazmırdı. Onun "Sahandiyyə" poeması fəlsəfi dərinliyi, dilinin zənginliyi və bədii obrazlığı ilə ana dilli poeziyamızın ən möhtəşəm nümunələrindən biridir. Eyni zamanda şair Şimali Azərbaycandakı qələm dostları - Səməd Vurğun, Süleyman Rüstəm kimi ziyalılarla məktublaşmalar və şeirləşmələr vasitəsilə vahid mədəniyyət ruhunu canlı saxlayırdı.

18 sentyabr 1988-ci ildə Tehranda vəfat edən ustad sənətkar öz vəsiyyəti ilə Təbrizdəki məşhur "Məqbarətüşşüəra"da (Şairlər məqbərəsi) dəfn olunmuşdur. Şəhriyar öz yaradıcılığı ilə sübut etdi ki, həqiqi poeziya heç bir siyasi quruluşdan və sərhəddən asılı deyil. O, zamanın fövqündə dayanan, bəşəriyyətə təmizlik və vətənpərvərlik dərsi keçən ölməz söz ustadıdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

● Sənət dünyası

# Heykəltaraşlığın Tokay səhifəsi

**Valideynləri bir-birindən fərqli ixtisas sahibi idilər. Ancaq ikisi də öz sənətində peşəkarlığı ilə seçilərək ad-san qazanmışdı. Atası Həbib Məmmədov texnika elmləri doktoru, anası Zivər Məmmədova Azərbaycanın ilk qadın heykəltaraşı idi. Tokay da anasının sənətini seçərək heykəltaraş oldu.**



Bəlkə də bunun səbəbi uşaqlıq çağlarının ən şirin, ən kövrək duyğularının bu sənətlə bağlı olması idi. 1927-ci il iyulun 18-də Bakıda dünyaya göz açan Tokay Məmmədovu kiçik yaşlarından anası Zivər xanım öz emalatxanasına aparırdı. Anasının iş prosesini maraqla izləyən balaca Tokay da dinc oturmazdı. O, "ilk əsərləri" üzərində işləyər, rəngli plastilindən özünə oyuncaqlar düzəldərdi.

Heykəltaraşlıqda ilk dərslərini anasından alan Tokay Məmmədovun bu sənətə həvəsi diqqətdən yayınmadı. Anasının həmkarları balaca Tokayın gələcəkdə yaxşı heykəltaraş olacağını deyirdilər. Onlardan biri - Tokayı həmişə doğru istiqamətləndirən tanınmış heykəltaraş Pyotr Sabsay sonralar yazmışdı: "Tokay uşaqlıqdan heykəltaraşlıq sənəti ilə maraqlanırdı, bu uşağın gələcəkdə gözəl sənətkar olacağına şübhəm belə qalmamışdı".



Tokay Məmmədov 1942-ci ildə 7-ci sinfi bitirib sənədlərini Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə verəndə İkinci Dünya müharibəsi davam edirdi. Müharibənin ağır, məhrumiyyətlərlə dolu vaxtlarında tələbə adını qazanan Tokay gələcəyə sonsuz inamla heykəltaraşlıq sənətini dərindən öyrənməyə başladı. Bakı Rəssamlıq Məktəbində tanınmış heykəltaraşlar Fuad Əbdürrəhmanov, Cəlal Qaryağdı, Pyotr Sabsay dərs deyirdilər. Tokay həmin təhsil ocağının nəzdində yeni yaradılmış heykəltaraşlıq sinfində Fuad Əbdürrəhmanovdan dərs alırdı.

1945-ci ildə Əzim Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinin üçüncü kursunu bitirən Tokay Məmmədov təhsilini davam etdirmək üçün Leninqrad (indiki Sankt-Peterburq) şəhərinə gedir. İ.E.Repin adına Leninqrad Boyakarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunun Heykəltaraşlıq fakültəsinə daxil olur. İnstitutda V.Senayski, A.Matveyev və M.Kerzin kimi görkəmli sənətkarlardan dərs alır.

Tələbəykən - 1947-ci ildə uşaqlıq illərindən tanıdığı xalçaçı rəssam Lətif Kərimovun portret büstünü hazırlayan gənc heykəltaraşa bu əsər uğur gətirdi. Tokay Məmmədov institutda təhsil aldığı vaxtlarda hazırladığı büstlərlə bir çox sərgidə iştirak etdi, yaratdığı Azərbaycanın böyük oğlu, rus şərqşünaslığının banisi, görkəmli alim Mirzə Kazım bəyin portreti 1948-ci ildə Moskvada keçirilən sərgidə nümayiş olundu.

1951-ci ildə ali təhsilini başa vurduqdan sonra bir müddət Leninqradda heykəltaraş kimi fəaliyyət göstərən T.Məmmədov Leninqrad Rəssamlar İttifaqına üzv qəbul edildi.

Bakıya qayıtdıqdan sonra Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində pedaqoji fəaliyyətə başlayan sənətkar həm rəsm, həm də heykəltaraşlıqdan dərs deyib. Eyni zamanda heykəltaraşlıqla məşğul olub. Ustalıqla hazırladığı hər bir əsəri - şair, alim, dövlət xadimi və sadə əmək adamları, həmçinin öz sənət



dostlarının büst portretləri heykəltaraşın istedadını göstərib.

Rəssamlıq Məktəbində dərs aldığı Fuad Əbdürrəhmanov "Nizami" heykəlini yaratmışdı. Tokay Məmmədov hələ o məktəbdə oxuduğu zaman dünyaşöhrətli Azərbaycan şairi Nizami Gəncəviyə əsər həsr etmək arzusuna düşmüşdü. 1953-cü ildə o, ilk dəfə ağacdan şairin təsvirini yonub. 1955-ci ildə heykəltaraşın uğurlu əsərlərindən biri olan "Nizami Gəncəvi" portreti Varşavada Gənclərin Beynəlxalq Ümumdünya Sərgisində nümayiş etdirilib. Hazırda əsər şairin adını daşıyan Ədəbiyyat Muzeyində qorunub saxlanılır.

Tokay Məmmədov Azərbaycan heykəltaraşlığında ilk dəfə ağac materialından istifadə edən sənətkardır. O, ayrı-ayrı illərdə ağac materialından portretlər hazırlayıb. Bu qəbildən olan "Səməd Vurğun", "Xalq rəssamı Qəzənfər Xalıqov", "Nəriman Nərimanov", uzunömürlü azərbaycanlı "Şirəli Müslümov" və başqa portretləri heykəltaraşlığımızın dəyərli nümunələridir.

Mərmər, tunc, gipsdən yüzlərlə əsər yaratmış heykəltaraşın qalereyasında dahi bəstəkar Üzeyir bəy Hacıbəyli, Xalq rəssamı Rüstəm Mustafayev, qadın rəssam Vəcihə Səmədo-



va, yazıçı Süleyman Rəhimov, polyak bəstəkarı Frederik Şopen və Avstriya bəstəkarı V.A.Motsartın büst portretləri də var. Tokay Məmmədov dahi şair Məhəmməd Füzulinin abidəsini heykəltaraş Ömər Eldarovla bərabər hazırlayıb. Onun müəllifi olduğu heykəllər müxtəlif ünvanlarda ucaldılıb. Onlardan biri - Üzeyir bəy Hacıbəylinin heykəli 1960-cı ildə konservatoriyanın qarşısında qoyulub. Heykəltaraş Bakıda 1976-cı ildə qoyulan Məşədi Əzizbəyovun monumental heykəlinə görə 1978-ci ildə SSRİ Dövlət Mükafatına layiq görülüb. Tokay Məmmədov həmçinin Şuşada musiqiçi alim, xəttat və rəssam Mir Möhsün Nəvvabın, Azərbaycanın ilk peşəkar vokal sənətinin banisi, SSRİ Xalq artisti, professor Bülbülün və başqalarının qəbirüstü abidələrinin də müəllifidir.

Yaradıcılığının ilk illərindən istedadı ilə fərqlənən sənətkar Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1962), Azərbaycan SSR Xalq rəssamı (1973), SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü (1975), professor (1977), SSRİ Dövlət mükafatı laureatı (1978), Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədri (1970-1972), Rusiya Rəssamlıq Akademiyasının müxbir üzvü olub. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanına (1977), Azərbaycan SSR Dövlət mükafatına (1982) layiq görülüb, "Şərəf nişanı" (1959), "Xalqlar dostluğu" və "Şöhrət" (2002) ordenləri, Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu (2017) ilə təltif edilib.

Xalq qəhrəmanı Koroğlunun abidəsi Tokay Məmmədovun son əsəridir. Görkəmli heykəltaraş 2018-ci il mayın 2-də dünyasını dəyişib. Onun adı müəllifi olduğu dəyərli əsərləri, yaratdığı saysız-hesabsız heykəltaraşlıq nümunələri ilə Azərbaycan incəsənəti tarixində əbədiləşib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***




# DÇ-26 nə ilə yadda qaldı

## Çempionat təkcə İspaniya millisinin ikinci dəfə dünya birincisi olması ilə tarixə düşmədi

**Artıq futbol üzrə dünyanın birnömrəli millisi - 23-cü mundialın qalibi müəyyən oldu. Həlledici görüşdə son çempion Argentina Avropa çempionu İspaniya yığması ilə üz-üzə gəldi. Nyu York yaxınlığındakı "Nyu York Nyu Cersi Stadionu"nda keçirilən görüşü sloveniyalı baş hakim Slavko Vinçiç idarə edirdi.**



Bu, tarixlərində Argentina üçün 7-ci, İspaniya üçün 2-ci final idi. Bundan əvvəl Argentina 3, İspaniya 1 dəfə dünya çempionu olmuşdu. İyulun 19-da keçirilən finalda 1:0 hesabı ilə qələbə qazanan ispanlar tarixlərində ikinci dəfə dünya çempionu tituluna yiyələndilər.

Ümumilikdə çempionatın gedişinə nəzər salsaq görərik ki, 2026-cı il Dünya Çempionatı futbol tarixində ən böyük turnirlərdən biri idi. ABŞ, Kanada və Meksikanın birgə evsahibliyi etdiyi yarışda ilk dəfə 48 komanda iştirak edirdi. Onlar ümumilikdə 104 oyun keçirdilər. Bu yeni format həm daha çox ölkəyə şans yaratdı, həm də turnirin müddətini uzatdı.

İspaniya çempion oldu və o, buna layiq idi. Güclü topa nəzarət, sürətli ötürmələr və kollektiv oyun onların əsas üstünlükləri idi. Bir çox analitik və Opta modeli də İspaniyanı favorit hesab edirdi.

Argentina da finala qədər yüksəksəviyyəli oyun nümayiş etdirdi və dünyanın ən güclü komandalarından biri olduğunu sübut etdi. İngiltərə, Fransa və digər favoritlər yarımfinal mərhələsinə qədər güclü çıxış etsələr də, sabitlik baxımından İspaniyadan geri qaldılar.

Budəfəki çempionat süni intellekt və inkişaf etdirilmiş VAR texnologiyalarından daha geniş istifadə ilə də yadda qaldı, baxmayaraq ki, o, bəzi qərarların dəqiqliyini artırsa da, mübahisələr yaratdı, eyni ilə oyun qaydalarında tətbiq edilən bəzi yeniliklər, xüsusən "su fasilələri" kimi.

Bəzi mütəxəssislər isə turnirin həddindən artıq uzun olduğunu və bilet qiymətlərinin yüksək olmasını tənqid etdilər. Ən azından onlar ikinci iradda haqlı idilər. Axı, futbolu təkcə imkanlılar yox, imkansızlar da sevir.

Ümumilikdə 2026 Dünya Çempionatı həm idman, həm də təşkilati baxımdan tarixi bir turnir oldu. İspaniyanın çempionluğu müasir futbolun sürətli, texnikalı və kollektiv oyun modelinin uğurunu bir daha nümayiş etdirdi. 48 komandalıq format isə gələcək dünya çempionatları üçün mühüm müzakirə mövzusu olaraq qaldı.

Mundialın əsas qəhrəmanları da müəyyən olundu. DÇ-2026-nın bambardiri 10 qol və 4 məhsuldar ötürmə ilə Kilian Mbappe (Fransa), ən yaxşı qapıçısı İspaniya millisinin qolkiperi Unai Simon, ən yaxşı oyunçusu İspaniya millisinin yarımmüdafiəçisi və kapitanı Rodri, ən yaxşı gənc oyunçusu isə ispanların müdafiəçisi Pau Kubarsi oldular. Final matçının ən yaxşı oyunçusu da ispanların heyətində yeganə qolu vuran Ferran Torres seçildi. Finalda meydana çıxan ispaniyalı Lamin Yamal isə 17 yaşında Avropa, 19 yaşında dünya çempionatlarını qazanan ilk futbolçu oldu.

Çempionatdan dərhal sonra isə FIFA milli komandaların yenilənmiş reytinq cədvəlini açıqladı. Onların əmsalları belədir:

| | | |
|---|---|---|
| 1. İspaniya | - | 1995,88 |
| 2. Argentina | - | 1970,37 |
| 3. Fransa | - | 1948,97 |
| 4. İngiltərə | - | 1922,83 |
| 5. Braziliya | - | 1804,92 |
| 6. Mərakeş | - | 1803,99 |
| 7. Portuqaliya | - | 1787,85 |
| 8. Belçika | - | 1778,36 |
| 9. Niderland | - | 1775,54 |
| 10. Meksika | - | 1754,30 |

*Hazırladı:*
***Dönməz ABBASOV***

# Yaxın Şərq böhranı tezliklə həll olunmasa...

## dünya iqtisadiyyatı ciddi sınaqla üzləşə bilər

**İlin əvvəlindən Amerika ilə İran arasında başlanan müharibədə müəyyən razılaşma əldə edildi. Nəticədə dünya bir qədər rahat nəfəs aldı, neft və qazın qiymətləri müəyyən qədər sabitləşdi.**




Lakin bu gün həmin razılaşmadan əsər-əlamət yoxdur. Səssizlik və dinclik yerini raket və dron hücumlarına verib. İran ABŞ-ni sosial infrastrukturu və mülki obyektləri vurmaqda ittiham edir, qarşı tərəf isə bunu əldə olunan danışıqların pozulmasına cavab kimi qiymətləndirir.

Bunun fonunda dünyanın tanınan mütəxəssisləri qlobal iqtisadi böhranın yaxınlaşması barədə həyəcan təbili çalırlar. Amerika əvvəllər İranın neft infrastrukturuna zərbələr endirmirdi. İranın neft ixracına müəyyən qədər icazə verirdi ki, dünya bazarında enerji resurslarının qiymətində ciddi bahalaşma olmasın. Çünki neftin bahalaşması Amerikanın müttəfiqlərində narazılıq doğururdu. İndi vəziyyət fərqlidir. ABŞ İrana neft ixrac etmək imkanı vermək istəmir. Buna qarşılıq olaraq İran Hörmüz körfəzinin hətta Omman sahillərindən neft daşıyan gəmilərə hücum edir.

Görünən odur ki, bu müharibə uzun çəkəcək. Amerikanın tələbi ilə İraqla Suriya arasında Körfəz neftinin Aralıq dənizinə çıxarılması barədə müqavilə bağlanması bunu sübut edir. ABŞ və Körfəz ölkələri bu yolla İran təhdidlərindən yayınmaq istəyirlər. Digər tərəfdən, Səudiyyə Ərəbisrtanı ərazisindəki mövcud kəmərlə neftini Qırmızı dəniz vasitəsilə dünya bazarına çıxarır. Bu yerdə qeyd edək ki, İraqla Suriya arasında kəmərin çəkilməsi üçün bir neçə il vaxt lazımdır. Səudiyyə Ərəbistanının Qırmızı dənizlə ixrac etdiyi neftin həcmi isə onun ixracının cüzi bir hissəsidir. Belə olan halda Hörmüz boğazının tam bağlanması qlobal böhranı dərinləşdirə bilər. Üstəlik, Hörmüz boğazı üzərindən təkcə neft daşınmır, bura həm də dünyanın digər yüklərinin daşındığı mühüm ticarət marşrutudur. O üzdən boğazdan yüklərin daşınması tam dayanarsa, dünyanın ticarət və təchizat zəncirində böyük qırılmalar baş verəcək ki, bu da qlobal iqtisadiyyatda əlavə problemlərin yaşanmasına səbəb olacaq.

Hazırda hər iki ölkə tərəfindən sərt bəyanatlar verilir. Vaşinqton mövcud razılaşmaya qayıtmasa, Tehrana daha böyük zərbələr endirəcəyi barədə xəbərdarlıq edib. ABŞ-nin İsrail və digər ölkələrə çox sayda havada yanacaq dolduran təyyarələrin gətirilməsini hərbi ekspertlər Vaşinqtonun daha şiddətli hücumlara hazırlığı kimi dəyərləndirirlər. İran tərəfi isə hərbi təcavüzə daha dağıdıcı cavab verəcəyini bildirir. Bir sözlə, dünya qarşıdakı günlərdə nə baş verəcəyini narahatlıqla izləyir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




# Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Yayda qida zəhərlənməsindən necə qorunaq?

**Yay mövsümündə havanın isinməsi ilə birlikdə qida zəhərlənmələrinin sayında da artım müşahidə olunur. Bu halların əksəriyyəti məhsulların düzgün saxlanılmaması, daşınmaması və istehlakçıların diqqətsizliyi nəticəsində baş verir. Xüsusilə heyvan mənşəli məhsullar, süd və süd məhsulları, mayonezli salatlar, kremli şirniyyatlar və hazır yeməklər isti havalarda daha tez xarab olur və sağlamlıq üçün təhlükəyə çevrilir. Buna görə də yay aylarında qida seçiminə, alış-veriş zamanı məhsulun keyfiyyətinə və saxlanma şəraitinə xüsusi diqqət yetirmək vacibdir.**




Mövzu ilə bağlı qəzetimizə açıqlama verən **qida məsələləri üzrə mütəxəssis Ağa SALAMOV** bildirib ki, isti havalarda riskli qidaların saxlanılması və istehlakı zamanı ən kiçik səhlənkarlıq belə ciddi qida zəhərlənmələrinə səbəb ola bilər. Onun sözlərinə görə, istər ev şəraitində, istərsə də restoran, kafe və market kimi ictimai iaşə obyektlərində toyuq, balıq, qırmızı ət, süd və süd məhsullarının saxlanma qaydalarına ciddi əməl edilməlidir. Çünki bu məhsullar mikrobioloji çirklənməyə daha həssasdır və temperatur rejiminin pozulması bakteriyaların sürətlə çoxalmasına şərait yaradır.

"Qida təhlükəsizliyi yalnız məhsulun hazırlanması mərhələsində deyil, onun istehsaldan istehlakçıya çatdırılmasına qədər bütün zəncir boyu təmin olunmalıdır. Məhsulların daşınması, saxlanması, emalı, soyudulması, bişirilməsi və təqdim olunması zamanı yol verilən kobud səhvlər insanların sağlamlığı üçün ciddi təhlükə yaradır. Bu səbəbdən qida zəncirinin hər bir mərhələsində gigiyena və temperatur qaydalarına riayət olunması mühüm əhəmiyyət daşıyır", - deyə mütəxəssis vurğulayıb.

Təhlükəsiz qidalanmanın alış-verişdən başladığını deyən Ağa Salamov qeyd edib ki, istehlakçı məhsulu alarkən mütləq onun xarici görünüşünə diqqət yetirməlidir. Ətin rəngində dəyişiklik, xoşagəlməz qoxu və ya şirə salması onun keyfiyyətini itirdiyini göstərə bilər. Balıq seçərkən də diqqətli olmaq lazımdır. Qarnı şişmiş, xoşagəlməz qoxu verən və ya pulları asanlıqla qopan balıq alınmamalıdır. Təzə balığın pulcuqları möhkəm olmalı, dartıldıqda yerindən çıxmamalıdır. Balığın soyuducu vitrinlərdə, buz üzərində və ya lazımi temperaturda saxlanılması təhlükəsizlik baxımından mühüm göstəricidir. Açıq havada, Günəş şüalarının birbaşa təsiri altında satılan ət və balıq məhsullarının alınması isə risklidir.

Mütəxəssis cəmiyyətdə geniş yayılmış yanlış fikirlərdən birinə də aydınlıq gətirib. O bildirib ki, bəzi insanlar yay aylarında balıq yeməyin zərərli olduğunu düşünürlər. Halbuki dəniz məhsullarının istehlakı mövsümdən deyil, onların düzgün saxlanılmasından asılıdır. Əgər məhsulun istehsalından satışına qədər qida zənciri pozulmayıbsa və lazımi temperatur şəraitində saxlanılıbsa, balıq ilboyu təhlükəsiz şəkildə istehlak oluna bilər. Yalnız balıqların kürü tökmə dövrü nəzərə alınmalıdır.

Ağa Salamov qeyd edib ki, isti havalarda ən böyük təhlükələrdən biri riskli qidaların otaq temperaturunda uzun müddət saxlanılmasıdır: "Toyuq, balıq, qırmızı ət, qiymə, süd məhsulları və digər tez xarab olan qidalar iki saatdan artıq otaq temperaturunda qaldıqda bakteriyalar sürətlə çoxalmağa başlayır. Bu isə məhsulun görünüşündə ciddi dəyişiklik olmasa belə, onun sağlamlıq üçün təhlükəli hala gəlməsinə səbəb olur. Məhz buna görə də kəsim məntəqələrində ət doğrandıqdan dərhal sonra soyuducuya yerləşdirilməli və istehlakçıya da soyuq zəncir qorunmaqla təqdim edilməlidir. Belə məhsullar soyuducuda müsbət 4-5 dərəcə temperaturda maksimum 72 saat saxlanıla bilər. Bu müddətdən sonra mikrobioloji çirklənmə riski əhəmiyyətli dərəcədə artır və həmin məhsulların istehlakı məsləhət görülmür. Əgər qidaların daha uzun müddət saxlanılması planlaşdırılırsa, onlar mənfi 18 dərəcə temperaturda dərin dondurucuda mühafizə edilməlidir. Bununla belə, dondurulmuş məhsulların da müəyyən qaydalara uyğun saxlanılması vacibdir. Dərin dondurucuda və ya soyuducuda müxtəlif növ ətlərin bir-biri ilə təmas etməməsi vacibdir. Toyuq, balıq və qırmızı ətin eyni qabda və ya bir-birinə toxunacaq şəkildə saxlanılması çarpaz çirklənməyə səbəb ola bilər. Bu zaman bir məhsulda olan mikroorqanizmlər digər məhsula keçərək zəhərlənmə riskini artırır. Buna görə də hər məhsul ayrı və böyük hissələr şəklində deyil, bir istifadəlik porsiyalar halında qablaşdırılmalıdır. Bu üsul həm məhsulun keyfiyyətini qoruyur, həm də hər dəfə bütün məhsulun əridilib yenidən dondurulmasının qarşısını alır. Çünki əridilmiş məhsulun yenidən dondurulması bakteriyaların çoxalmasına şərait yaradır və qida təhlükəsizliyi baxımından ciddi risk hesab edilir".

Qida zəhərlənmələrinin artmasında istehlakçıların da məsuliyyət daşıdığını bildirən mütəxəssis əlavə edib ki, insanlar bəzən məhsulun saxlanma qaydalarına əməl etmir, alış-verişdən sonra onu uzun müddət avtomobildə saxlayır və ya istifadə müddətinə diqqət yetirmirlər. Bundan başqa, bəzi hallarda mövsümündən əvvəl bazara çıxarılan məhsullara üstünlük verilir. Halbuki hər meyvə və tərəvəzin öz yetişmə dövrü var və həmin dövrdə istehlakı daha məqsədəuyğundur. Məsələn, avqustun sonu və sentyabrın əvvəlində yetişən qarpızı iyun ayında almağa ehtiyac yoxdur. Mövsümündə yetişən məhsullar həm daha keyfiyyətli, həm də daha təhlükəsiz olur.

Yay aylarında pikniklər və dəniz istirahəti zamanı qida təhlükəsizliyi qaydalarının pozulması da zəhərlənmə hallarının artmasına səbəb olur. Ağa Salamovun sözlərinə görə, insanlar çox vaxt evdən hazırladıqları yeməkləri və ya aldıqları ərzaqları avtomobilin yük yerində saatlarla saxlayırlar. İsti hava və tıxac şəraitində avtomobil daxilində temperatur daha da yüksəlir. Nəticədə riskli qidalar sürətlə xarab olur və bakteriyalar çoxalır. Sonradan həmin məhsullar istehlak edildikdə qida zəhərlənməsi qaçılmaz olur. Yayda konservləşdirilmiş məhsulların, mayonezli salatların, müxtəlif sousların və kremli şirniyyatların istifadəsinin minimuma endirilməsi tövsiyə edilir. Salatlarda mayonez əvəzinə, zeytun yağından istifadə etmək həm sağlamlıq, həm də təhlükəsizlik baxımından daha düzgün seçimdir.

"İsti aylarda küçə qidalarına ehtiyatla yanaşmaq vacibdir. Xüsusilə toyuqlu dönərlərin istehlakı tövsiyə edilmir. Çünki toyuq əti temperatur dəyişikliyinə qarşı daha həssasdır və düzgün saxlanılmadıqda bakteriyaların çoxalması üçün əlverişli mühit yaranır. Yay mövsümündə qeydə alınan qida zəhərlənmələrinin əhəmiyyətli hissəsi məhz dönər məhsulları ilə əlaqədardır. Buna görə də istehlakçılar yalnız sanitar-gigiyenik qaydalara əməl edən, soyuducu sistemi və istehsal şəraiti etibarlı olan iaşə obyektlərinə üstünlük verməlidirlər", - deyə mütəxəssis vurğulayıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

**"Azər-inşaat" MTK tərəfindən 04 avqust 2018-ci ildə Abbasov Fəxri Muxtar oğluna verilmiş Bakı şəhər Nəsimi rayonu Cəlil Məmmədquluzadə küçəsi, 108 ünvanında, yaşayış binasının zirzəmisində yerləşən 18 saylı avtomobil dayanacağının bütün rəsmi sənədləri (müqavilə və maliyyə arayışı) itdiyi üçün etibarsız sayılır.**

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Dönməz Abbasova xalası

**PƏRVANƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3204**
**Sifariş 921**

**Qiyməti 60 qəpik**